RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 100 (10120) 10 iyun 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycan iqtisadiyyatının gücünü beynəlxalq maliyyə qurumları da etiraf edirlər

Azərbaycanda son illər həyata keçirilən iqtisadi islahatlar, neftdənkənar sahənin inkişafına yönəlmiş siyasət və maliyyə sabitliyinin qorunması beynəlxalq maliyyə qurumlarının diqqətindən kənarda qalmır. Dünyanın aparıcı reytinq agentlikləri və beynəlxalq təşkilatları ölkəmizin iqtisadi göstəricilərini müsbət qiymətləndirir, dayanıqlı inkişaf potensialına dair nikbin proqnozlar səsləndirirlər.

Bu baxımdan beynəlxalq reytinq agentliyi "Fitch Ratings"in son hesabatı xüsusi diqqət çəkir. Agentlik Azərbaycanın uzunmüddətli xarici valyutada emitent defolt reytinqini BBB səviyyəsində təsdiqləyib, proqnozu isə "sabit" saxlayıb (Qeyd edək ki, "Fitch Ratings"in Azərbaycan iqtisadiyyatına verdiyi BBB səviyyəsi kredit reytinqləri şkalasında kredit qabiliyyətinin kifayət qədər səviyyəli olduğu deməkdir). Hesabatda ölkəmizin güclü xarici maliyyə mövqeyi, aşağı dövlət borcu səviyyəsi və Dövlət Neft Fondunun əhəmiyyətli aktivləri sayəsində formalaşan yüksək maliyyə çevikliyi əsas üstünlüklər kimi qeyd olunub.

Agentlik hazırda qlobal maliyyə bazarlarının ən etibarlı informasiya mənbələrindən biri kimi tanınır. Bu gün "Fitch Ratings" yalnız reytinq fəaliyyəti ilə məhdudlaşmır. Qurum maliyyə bazarlarının təhlili, risklərin idarə olunması, kredit araşdırmaları və peşəkar təlim xidmətləri istiqamətlərində də fəaliyyət göstərir. Elə buna görə də onun Azərbaycan iqtisadiyyatı ilə bağlı verdiyi hər bir rəy və proqnoz ölkənin investisiya cəlbediciliyinin, maliyyə dayanıqlılığının və beynəlxalq etimad səviyyəsinin mühüm göstəricilərindən biri hesab olunur.

Agentliyin qiymətləndirməsində Azərbaycanın güclü maliyyə dayanıqlılığını şərtləndirən əsas amillərdən biri kimi ölkənin xarici valyuta ehtiyatları xüsusi vurğulanır. Qurumun proqnozlarına görə, yaxın illərdə də bu istiqamətdə müsbət dinamika davam edəcək. Agentlik Azərbaycanın suveren valyuta aktivlərinin 2026-cı ildə 93 milyard dollara yüksələcəyini proqnozlaşdırır. Bu məbləğin ölkənin həmin il üçün proqnozlaşdırılan ümumi daxili məhsulunun 117 faizinə bərabər olacağı bildirilir. "Fitch Ratings" hesab edir ki, valyuta aktivlərinin artımında əsas rolu enerji sektorundan əldə olunan gəlirlər oynayacaq. Xüsusilə Yaxın Şərqdə müşahidə olunan geosiyasi gərginlik fonunda neft və qaz qiymətlərinin yüksəlməsi Azərbaycanın ixrac gəlirlərinin artmasına əlavə imkanlar yaradır. Hesabatda qeyd olunur ki, ölkənin suveren valyuta aktivlərinin böyük hissəsi, yəni təxminən 84 faizi Dövlət Neft Fondunda cəmləşəcək. Qalan hissə isə Mərkəzi Bankın beynəlxalq valyuta ehtiyatları şəklində saxlanılacaq. Bu amil Azərbaycanın strateji maliyyə ehtiyatlarının etibarlı şəkildə idarə olunduğunu və uzunmüddətli makroiqtisadi sabitliyin qorunmasına xidmət etdiyini göstərir.

8

## Sloveniya ilə Azərbaycan beynəlxalq sabitliyə və davamlı inkişafa sadiqdirlər



### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sloveniya Respublikasının xalqı adından və öz adımdan Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ölkələrimiz arasındakı davamlı konstruktiv əməkdaşlıq və dostluq münasibətlərindən çox məmnunam. Əminəm ki, qarşılıqlı maraq doğuran bütün istiqamətlərdə ikitərəfli əlaqələrimizi dərinləşdirəcək və bir çox sahələrdə əməkdaşlığı daha da inkişaf etdirəcəyik.

Həm Sloveniya, həm də Azərbaycan beynəlxalq sabitliyə və davamlı inkişafa sadiq qaldığı üçün inanıram ki, Avropa və beynəlxalq birlik çərçivəsində əməkdaşlığımız daha da genişlənəcək və möhkəmlənəcək.

Cənubi Qafqaz regionunda sülhün, sabitliyin və yaxşı münasibətlərin qurulması istiqamətində davam edən səylərinizi yüksək qiymətləndirirəm və Sizə uğurlar arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Nataşa Pirts MUSAR,***
***Sloveniya Respublikasının Prezidenti***

## İstanbul Bəyannaməsi üç ölkəni qlobal çağırışlara qarşı vahid cəbhədə birləşdirir



Üç qonşu ölkə arasında əlaqələrin bu cür yüksələn xətlə inkişafı fonunda əldə olunan ortaq platforma regional iqtisadiyyatın əsas hərəkətverici qüvvəsinə çevrilib. Bu sıx əməkdaşlığın ən böyük praktik nəticələri özünü strateji layihələrdə və enerji təhlükəsizliyi sahəsində göstərir. Bakı-Tbilisi-Ceyhan və "Cənub qaz dəhlizi" kimi qlobal layihələrlə Avropanın enerji xəritəsini dəyişən bu ittifaq mövcud əlaqələri yeni bir mərhələyə daşıyır. Azərbaycanın öz təbii qazını artıq 16 ölkəyə ixrac etdiyi indiki şəraitdə Gürcüstanla qaz alqı-satqısı müqaviləsinin müddətinin uzadılması, həmçinin SOCAR və BOTAŞ arasında "Abşeron" yatağının ikinci mərhələsindən qaz tədarükünə dair əldə edilən yeni razılaşma regional və qlobal enerji təhlükəsizliyinə növbəti böyük töhfədir.

7

## Ölkəmizə qarşı media manipulyasiyaları qəbuledilməzdir

### Azərbaycan sülh, sabitlik və mehriban qonşuluq münasibətlərinə hər zaman sadiqdir




Azərbaycanın xarici siyasət kursunda sarsılmaz və dəyişməz bir prinsip var. Ölkəmizin ərazisindən və ya hava məkanından hər hansı üçüncü bir dövlətə qarşı istifadə edilməsinə qətiyyən icazə verilmir. XİN-in sözügedən şərhində də bu barədə deyilir: "Dəfələrlə bəyan edildiyi kimi, Azərbaycan ərazisinin hər hansı üçüncü dövlətə qarşı hərbi əməliyyatlar, kəşfiyyat fəaliyyəti və ya digər düşmən xarakterli məqsədlər üçün istifadə edilməsi barədə iddiaların heç bir əsası yoxdur. Ölkəmiz bu kimi fəaliyyətlərə heç vaxt icazə verməyib və verməyəcək.

Azərbaycan regionda sülhün, sabitliyin və mehriban qonşuluq münasibətlərinin təşviqinə sadiqdir. Bu kimi əsassız və heç bir sübuta əsaslanmayan iddialar növbəti dezinformasiya cəhdidir".

7

## Təmiz ətraf mühit və "yaşıl artım" milli inkişafın prioritetidir

Respublikamızda bu strateji hədəflər real torpaq üzərində bərpa edilir. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur regionları rəsmi olaraq "yaşıl enerji" zonası elan edilmişdir və bu ərazilərin 2050-ci il hədəfi tamamilə Xalis Sıfır Emissiya zonasına çevrilməkdir. "Ağıllı kənd" və "ağıllı şəhər" infrastrukturunu nəzərdən keçirərkən biz, sadəcə, müasir binalar görmürük. Biz orada Armin Qrunvaldın bəhs etdiyi insan-təbiət harmoniyasını tətbiq edirik: bu



şəhər və kəndlərdə alternativ idarəetmə və "sıfır tullantı" prinsipləri tətbiq edilir, məişət tullantıları resurs kimi yenidən dövriyyəyə qatılır. Binaların üzərində quraşdırılmış günəş panelləri, "ağıllı işıqlandırma" və izolyasiya texnologiyaları enerjiyə qənaəti maksimuma çatdırır. Bölgənin su ehtiyatlarından səmərəli istifadə edilir. Artıq ümumi gücü 307 MVt olan 38 hidroelektrik stansiyası da istismara verilmişdir.

6

## Uşaqların sosial şəbəkə platformalarında qeydiyyatı qanunla tənzimlənəcək



Azərbaycanda uşaqların sosial şəbəkələrdən istifadəsi daha geniş hüquqi çərçivədə tənzimlənəcək. Məqsəd uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunması, onların zərərli məzmunlardan qorunması və valideyn nəzarətinin gücləndirilməsidir. Unutmaq olmaz ki, bu prosesdə cəmiyyətin, məktəblərin və xüsusilə valideynlərin üzərinə də böyük məsuliyyət düşür. Rəqəmsal savadlılığın artırılması və dövlətin yaratdığı bu hüquqi çərçivədən düzgün istifadə edilməsi gələcəyimiz olan uşaqları virtual dünyanın təhlükələrindən qorumağın ən etibarlı yoludur.

6

## Azərbaycandan tranzit keçməklə Rusiyadan Ermənistana növbəti yük göndərilib

Azərbaycandan tranzit keçməklə Rusiyadan Ermənistana növbəti tədarük həyata keçirilib.



AZƏRTAC xəbər verir ki, 12 vaqondan ibarət, çəkisi 828 ton olan gübrə və 6 vaqondan ibarət, çəkisi 414 ton olan antrasit (daş kömür növü) bu gün Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə göndərilib. Qeyd edək ki, indiyədək Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə 29 min tondan çox taxıl, 6 min tondan çox gübrə, 133 ton alüminium və 68 ton qarabaşaq göndərilib.

Xatırladaq ki, tranzitlə yanaşı, Azərbaycandan Ermənistana neft məhsulları da ixrac olunur. İndiyədək Azərbaycandan Ermənistana 12 min tondan çox dizel, 979 ton Aİ-92 benzini və 2955 ton Aİ-95 benzini ixrac olunub.

# Sahibkarlıq subyektlərinə verilən kreditlər üzrə təminat və faiz subsidiyası mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bir sıra fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında sahibkarlıq subyektlərinə verilən kreditlər üzrə təminat və faiz subsidiyası mexanizmlərinin vahid əsaslarla səmərəli tətbiqi sahəsində institusional tənzimləmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra - Fond) sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi və həmin kreditlərə hesablanmış faizlərə subsidiya verilməsi ilə bağlı səlahiyyətləri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyətinə (bundan sonra - Cəmiyyət) həvalə edilsin.

2. Bu Fərman qüvvəyə mindiyi tarixədək Fondun sahibkarların manatla aldıqları kreditlərə verilmiş təminat və həmin kreditlərə hesablanmış faiz subsidiyaları üzrə hüquqlarının həyata keçirilməsinin və öhdəliklərinin icrasının tam başa çatdırılması, mövcud normativ hüquqi aktlara uyğun olaraq, Fond tərəfindən təmin edilsin.

3. Müəyyən edilsin ki:

3.1. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş təminat və faiz subsidiyası mexanizmləri ilkin mərhələdə pilot layihə kimi 2030-cu il dekabrın 31-dək, Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla, Azərbaycan Respublikasının digər ərazilərində tətbiq edilir;

3.2. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş təminat və faiz subsidiyası mexanizmləri çərçivəsində müvəkkil təşkilatlar tərəfindən sahibkarlıq subyektlərinə təqdim edilən kreditlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi 13 (on üç) faizdir və təqdim edilən kreditlər üzrə hesablanmış illik faiz dərəcəsinin 50 (əlli) faizi dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılır;

3.3. bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, təminat və faiz subsidiyası mexanizmlərinin tətbiqi "Elektron kredit və zəmanət" informasiya sisteminin fəaliyyəti Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla, Azərbaycan Respublikasının digər ərazilərini əhatə edənədək həm elektron qaydada, həm də sənədlərin kağız formada qəbulu və icrası yolu ilə həyata keçirilir.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. aşağıdakılar barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

4.1.1. altı ay müddətində sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat və həmin kreditlərə hesablanmış faizlərə subsidiya verilməsi mexanizmlərinin tətbiqi təcrübəsi, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 yanvar tarixli 1957 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması Qaydası"nın tətbiqi nəticələri nəzərə alınmaqla, həmin mexanizmlərin təkmilləşdirilməsinə dair;

4.1.2. üç ay müddətində,bu Fərmanın 1-ci və 2-ci hissələri nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı;

4.2. işğaldan azad edilmiş ərazilər istisna olmaqla, bu Fərmanın 3.1-ci bəndi ilə müəyyən edilmiş digər ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə tətbiq olunacaq ümumi kredit portfelinin həcmini və həmin portfel üzrə dövlət zəmanəti ilə təmin ediləcək məbləğin yuxarı həddini bir ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat və həmin kreditlərə hesablanmış faizlərə subsidiya verilməsi ilə bağlı mexanizmlərin maliyyələşdirilməsi məqsədilə Cəmiyyətin tələb olunan maliyyə vəsaiti ilə təmin edilməsi üçün bir ay müddətində zəruri tədbirlər görsün;

4.4. bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulmuş öhdəliklərin icra vəziyyətinə nəzarəti həyata keçirsin və onların icrası başa çatdıqdan sonra bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn aidiyyəti məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

6. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

6.1. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" nəzərə alınmaqla, bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş mexanizmlərin tətbiq ediləcəyi prioritet sahələri bir ay müddətində müəyyən etsin;

6.2. "Elektron kredit və zəmanət" informasiya sisteminin təkmilləşdirilməsi, o cümlədən bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş təminat və faiz subsidiyası mexanizmlərinin həmin sistem üzərindən tam tətbiqinin təmin edilməsi məqsədilə üç ay müddətində zəruri tədbirlər görsün.

7. "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2030 (Cild I); 2024, № 2, maddə 159; 2025, № 2, maddə 113, № 8, maddə 761) 3 - 6-cı hissələri ləğv edilsin.

8. "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2328 (Cild I); 2024, № 3, maddə 263, № 10, maddə 1124; 2025, № 4 (I kitab), maddə 333, № 7, maddə 657) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 3.2-ci bənddən "və müvəkkil banklardan manatla aldıqları kreditlərə" və "və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda və qaydada həmin kreditlərə hesablanmış faizlərin bir hissəsinə subsidiya verən" sözləri çıxarılsın;

8.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi" üzrə:

8.2.1. 1.1-ci bənddən"və müvəkkil banklardan manatla aldıqları kreditlərə" və "və həmin kreditlərə hesablanmış faizlərin bir hissəsinə subsidiya verən" sözləri çıxarılsın;

8.2.2. 2-ci hissə üzrə:

8.2.2.1. 2.1-ci bənddən "və müvəkkil banklardan manatla aldıqları kreditlərə" və "və həmin kreditlərə hesablanmış faizlərin bir hissəsinə subsidiya" sözləri çıxarılsın;

8.2.2.2. 2.2.2-ci yarımbənddən "müvəkkil banklardan manatla aldıqları kreditlərə, habelə" sözləri çıxarılsın;

8.2.2.3. 2.2.3-cü yarımbənd ləğv edilsin.

9. "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində zəruri dövlət dəstəyinin gücləndirilməsi və "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 yanvar tarixli 1957 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 45 (Cild I); 2026, № 1, maddə 26) aşağıdakı dəyişikliklər edilsin:

9.1. adında və 1-ci hissədə "İşğaldan azad edilmiş ərazilərdə" sözləri "Azərbaycan Respublikasında (Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

9.2. 2-ci hissə üzrə:

9.2.1. 2.1-ci bəndə "olaraq" sözündən sonra "işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən" sözləri əlavə edilsin;

9.2.2. 2.2-ci bənddə "İşğaldan azad edilmiş ərazilərdə" sözləri "Azərbaycan Respublikasında (Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

9.3. həmin Fərmanla təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması Qaydası" üzrə:

9.3.1. adında "İşğaldan azad edilmiş ərazilərdə" sözləri "Azərbaycan Respublikasında (Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

9.3.2. 1-ci hissədə "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 10 dekabr tarixli 3037 nömrəli Sərəncamının 1.5-ci bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və işğaldan azad edilmiş ərazilərdə" sözləri "Azərbaycan Respublikasında (Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

9.3.3. 2-ci hissə üzrə:

9.3.3.1. 2.1.3-cü yarımbənddə "və işğaldan azad edilmiş ərazilərdə" sözləri "Azərbaycan Respublikasında (Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

9.3.3.2. 2.1.4-cü yarımbənddə "90 (doxsan)" sözləri "işğaldan azad edilmiş ərazilər üzrə 90 (doxsan) faizədək, digər ərazilər üzrə 50 (əlli)" sözləri ilə əvəz edilsin;

9.3.4. 3-cü hissə üzrə:

9.3.4.1. 3.1-ci bənddən "işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən" sözləri çıxarılsın;

9.3.4.2. 3.3.1-ci yarımbənd ləğv edilsin;

9.3.4.3. 3.3.2-ci yarımbənddə "60 (altmış)" sözləri "30 (otuz)" sözləri ilə əvəz edilsin;

9.3.4.4. 3.6-cı bəndin birinci cümləsində "10 (on) faiz bəndi" sözləri "yarısı" sözü ilə əvəz edilsin və həmin bənddən ikinci cümlə çıxarılsın;

9.3.5. 4-cü hissə üzrə:

9.3.5.1. 4.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.1.1. bir borcalanın bütün müvəkkil təşkilatlar üzrə zəmanət verilən cəmi kreditlərinin məbləği 5 000 000 (beş milyon) manatdan, bir-biri ilə əlaqədar borcalanlar qrupunun bütün müvəkkil təşkilatlar üzrə zəmanət verilən cəmi kreditlərinin məbləği isə 10 000 000 (on milyon) manatdan çox olmamalı;";

9.3.5.2. 4.1.2-ci yarımbənddə "15 (on beş)" sözləri "13 (on üç)" sözləri ilə əvəz edilsin;

9.3.5.3. 4.1.5-ci yarımbənddə "90 (doxsan)" sözləri "işğaldan azad edilmiş ərazilər üzrə 90 (doxsan) faizdən, digər ərazilər üzrə 50 (əlli)" sözləri ilə əvəz edilsin;

9.3.5.4. 4.2-ci bənddə "İşğaldan azad edilmiş ərazilərdə" sözləri "Azərbaycan Respublikasında (Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

9.3.6. 7-ci hissə üzrə:

9.3.6.1. 7.2-ci bənddə "1" rəqəmi "1,75"rəqəmləri ilə, "50 faizini" sözləri "yarısını" sözü ilə əvəz edilsin;

9.3.6.2. 7.3-cü bənddə "0,5" rəqəmləri "1 (bir)" sözləri ilə əvəz edilsin;

9.3.7. 8.5-ci bəndin üçüncü cümləsində "birdəfəlik" sözü "bir dəfə" sözləri ilə əvəz edilsin;

9.3.8. 10-cu hissə üzrə:

9.3.8.1. 10.1-ci bəndin birinci cümləsində və 10.2-ci bənddə "20" rəqəmləri "50 (əlli)" sözləri ilə əvəz edilsin;

9.3.8.2. 10.3-cü və 10.7-ci bəndlər ləğv edilsin;

9.3.9. həmin Qaydaya əlavə - "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi barədə Çərçivə Zəmanət Sazişi" üzrə:

9.3.9.1. adında "İşğaldan azad edilmiş ərazilərdə" sözləri "Azərbaycan Respublikasında (Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

9.3.9.2. 1.1-ci bənddə hər iki halda "İşğaldan azad edilmiş ərazilərdə" sözləri "Azərbaycan Respublikasında (Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

9.3.9.3. 2-ci hissə üzrə:

9.3.9.3.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. Bu Sazişin predmetini sahibkarlıq subyektlərinə verilən kredit üzrə əsas borc öhdəliyi yerinə yetirilmədikdə, onların əsas borcunun işğaldan azad edilmiş ərazilər üzrə 90 (doxsan) faizədək, digər ərazilər üzrə 50 (əlli) faizədək hissəsinin ödənilməsinə dair Fonda Zamin tərəfindən bu Sazişin 3.1.3-cü yarımbəndinin tələbləri nəzərə alınmaqla dövlət zəmanətinin verilməsi təşkil edir.";

9.3.9.3.2. 2.2-ci bəndə "üzrə" sözündən sonra "işğaldan azad edilmiş ərazilərdə tətbiq edilən" sözləri əlavə edilsin;

9.3.9.4. 3.1.3-cü yarımbənddən "sahibkarlıq subyektlərinə ayrılacaq zəmanət məbləğinin 0,5 (sıfır tam onda beş) faizi həcmində" sözləri çıxarılsın;

9.3.9.5. 4.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.1. Bu Sazişin 2.1-ci bəndi nəzərə alınmaqla, Zamin Fondun müraciəti əsasında müvəkkil təşkilat tərəfindən sahibkarlıq subyektlərinə ayrılan kredit vəsaiti üzrə öhdəliklərin (əsas borc) yerinə yetirilməsinə dövlət zəmanəti verir.";

9.3.9.6. 6.3-cü bəndin üçüncü cümləsində "birdəfəlik" sözü "bir dəfə" sözləri ilə əvəz edilsin.

10. Bu Fərmanın 7-ci hissəsi Fondun bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan mövcud öhdəlikləri tam icra olunduqdan sonra qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyun 2026-cı il*

# Qeyri-neft-qaz mallarının ixracının stimullaşdırılması və daşıma xərclərinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Qeyri-neft-qaz sektorunun inkişafı ölkənin iqtisadi dayanıqlılığının gücləndirilməsi, dünyada cərəyan edən mürəkkəb geosiyasi proseslərin, qlobal tədarük zəncirindəki qırılmaların və xarici bazarlardakı qeyri-sabitliyin milli iqtisadiyyata mənfi təsirlərinin minimallaşdırılması, habelə ölkənin strateji iqtisadi suverenliyinin təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Qeyri-neft-qaz sektorunun strukturunda qeydə alınan müsbət dinamikaya baxmayaraq, yerli malların xarici bazarlara, eləcə də Naxçıvan Muxtar Respublikasında istehsal olunmuş malların Azərbaycan Respublikasının digər ərazilərinə çıxış imkanları hələ də məhduddur.

Qeyri-neft-qaz sektorunun ixrac potensialının tam reallaşdırılmasına, habelə blokada şəraitində olması da nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikasında istehsal edilən malların ölkənin digər ərazilərinə daşınmasına mane olan ən mühüm səbəblərdən biri logistik xərclərin yüksəkliyidir. Xüsusilə yerli qeyri-neft-qaz mallarının ənənəvi bazarlardan kənar yeni və alternativ xarici bazarlara yönəldilməsi zamanı yaranan yüksək nəqliyyat-daşıma xərcləri ixracatçıların rəqabət imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Logistik zəncirin mürəkkəbliyi və uzaq məsafəli daşımaların malın maya dəyərindəki xüsusi çəkisinin yüksək olması ixracın mallar üzrə və coğrafi şaxələndirilməsinə maneə yaradan amillərdən biridir. Bu isə nəticə etibarilə qeyri-neft-qaz mallarının ümumi ixracdakı payının potensial imkanlardan aşağı qalmasına səbəb olur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında istehsal olunan qeyri-neft-qaz mallarının ixracının stimullaşdırılması və Naxçıvan Muxtar Respublikasında istehsal olunan qeyri-neft-qaz mallarının ölkənin digər ərazilərinə daşınmasının dəstəklənməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası mənşəli qeyri-neft-qaz mallarının ixracı zamanı onların daşınması üçün çəkilmiş xərclərə görə həmin malların növündən, gömrük dəyərindən, ixrac edildiyi ölkədən və nəqliyyat növündən asılı olaraq, dövlət büdcəsinin vəsaiti hesabına daşıma dəstəyi məbləği (bundan sonra - ixrac daşıma dəstəyi) ödənilsin.

2. Naxçıvan Muxtar Respublikasında istehsal olunan Azərbaycan Respublikası mənşəli qeyri-neft-qaz mallarının Azərbaycan Respublikasının digər ərazilərinə quru yolu ilə daşınması üçün çəkilmiş xərclərə görə dövlət büdcəsinin vəsaiti hesabına daşıma dəstəyi məbləği (bundan sonra - daxili daşıma dəstəyi) ödənilsin.

3. Müəyyən edilsin ki:

3.1. ixrac daşıma dəstəyi məbləği aşağıdakılar əsasında hesablanır:

3.1.1. ixrac olunan malın daşınması üçün çəkilmiş xərclərə görə nağdsız qaydada ödənilmiş məbləğin:

3.1.1.1. daşıma dəmir yolu, hava və dəniz nəqliyyatı vasitələri, habelə Azərbaycan Respublikasında qeydiyyata alınmış avtomobil nəqliyyatı vasitələri ilə həyata keçirildikdə - 70 (yetmiş) faizi;

3.1.1.2. daşıma Azərbaycan Respublikasında qeydiyyata alınmamış avtomobil nəqliyyatı vasitələri ilə həyata keçirildikdə - 50 (əlli) faizi;

3.1.2. istifadə olunan nəqliyyat növündən asılı olaraq, ixrac edilən malın gömrük dəyərinin:

3.1.2.1. daşıma avtomobil, dəmir yolu və hava nəqliyyatı vasitələri ilə həyata keçirildikdə - 15 (on beş) faizi;

3.1.2.2. daşıma dəniz nəqliyyatı vasitələri ilə həyata keçirildikdə - 5 (beş) faizi;

3.2. ixrac daşıma dəstəyinin yekun məbləğini bu Fərmanın 3.1.1-ci və 3.1.2-ci yarımbəndlərinə uyğun olaraq hesablanmış məbləğlərdən ən az olanı təşkil edir;

3.3. daxili daşıma dəstəyinin məbləği Naxçıvan Muxtar Respublikasında istehsal olunan Azərbaycan Respublikası mənşəli qeyri-neft-qaz mallarının Azərbaycan Respublikasının digər ərazilərinə quru yolu ilə daşınması üçün çəkilmiş nəqliyyat xərclərinə görə nağdsız qaydada ödənilmiş məbləğin 70 (yetmiş) faizini təşkil edir;

3.4. ixrac və daxili daşıma dəstəklərinin məbləğləri rüb ərzində həyata keçirilən daşımalara görə müvafiq olaraq ixracatçının və satıcının (malgöndərənin) müraciəti əsasında həmin rüb bitdikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən ödənilir.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bu Fərmanın 1-ci və 2-ci hissələrində nəzərdə tutulan dəstək növlərinin:

4.1.1. 2026-cı ildə ödənilməsinin maliyyələşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.1.2. 2027-2036-cı illərdə ödənilməsinin maliyyələşdirilməsi üçün zəruri vəsaitin həmin illərin dövlət büdcəsi layihələrində nəzərdə tutulmasını təmin etsin;

4.2. üç ay müddətində aşağıdakı normativ hüquqi aktları təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

4.2.1. ixrac və daxili daşıma dəstəyi məbləğlərinin ödənilməsi zamanı qeyri-neft-qaz mallarının Azərbaycan Respublikası mənşəli olmasının müəyyən edilməsi qaydasını;

4.2.2. ixrac və daxili daşıma dəstəklərinin şamil olunmadığı əməliyyatların və şəxslərin siyahısını;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

5.1. üç ay müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla aşağıdakı normativ hüquqi aktları təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

5.1.1. ixrac daşıma dəstəyinin şamil olunacağı qeyri-neft-qaz mallarının və onların ixrac olunduğu ölkələrin (ölkə qruplarının) siyahısını;

5.1.2. ixrac və daxili daşıma dəstəyi məbləğlərinin ödənilməsi ilə bağlı müraciət edilməsi və həmin müraciətlərə baxılması qaydasını;

5.1.3. müxtəlif nəqliyyat növləri ilə (multimodal) daşımalar zamanı ixrac daşıma dəstəyi məbləğinin hesablanması qaydasını;

5.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

6. Bu Fərmanın 1 - 3-cü hissələri 2026-cı il sentyabrın 1-dən qüvvəyə minir və 2036-cı il sentyabrın 30-dək həyata keçiriləcək ixrac və daxili daşımalara münasibətdə tətbiq olunmaqla 2036-cı il dekabrın 31-dək qüvvədədir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyun 2026-cı il*

# Rəsmi Bakının məqsədi regionda sülhə nail olmaq və iqtisadi inkişafa təkan verməkdir

Bu ilin əvvəlindən başlayaraq Azərbaycana həm Avropa, həm də Şərq dövlətlərindən hərbi nümayəndə heyətləri gələrək əməkdaşlıq əlaqələrini genişləndirməyə çalışırlar.

Hazırda Azərbaycan ABŞ, Almaniya, Avstriya, Böyük Britaniya, Estoniya, Fransa və digər Avropa dövlətləri ilə yanaşı, Çin, Qazaxıstan, Özbəkistan, Pakistan, Türkiyə və başqa dövlətlərlə də hərbi əməkdaşlıq əlaqələrini davam etdirir. Yuxarıda adıçəkilən dövlətlər arasında NATO kimi hərbi-siyasi bloka daxil olan və bu blokdan kənarda qalan dövlətlər də var. İstər NATO üzvü olan, istərsə də üzv olmayan dövlətlərin Azərbaycan ilə hərbi əməkdaşlığa can atmaları heç də təsadüfi xarakter daşımır.

AZƏRTAC xəbər verir ki, Rusiya-Ukrayna müharibəsi və İran ətrafında cərəyan edən hərbi-siyasi proseslər qlobal güclərə etimadın azalmasına, eyni zamanda beynəlxalq təhlükəsizlik balansının dəyişməsinə səbəb olub. ABŞ Prezidenti Donald Trampın Avropanın təhlükəsizliyində əvvəlki kimi fəal rol oynamaq istəməməsi və ümumi təhlükəsizlik məsələlərinə maliyyə dəstəyini məhdudlaşdırması Avropa ölkələrini yeni çıxış yolları axtarmağa sövq edib. ABŞ-nin NATO üzvü olan Avropa dövlətlərini İrana qarşı mümkün hərbi əməliyyatlara qoşulmağa çağırmasına baxmayaraq, bu təşəbbüs dəstək qazanmayıb. Nəticədə Vaşinqton Avropanın təhlükəsizliyinin təmin edilməsində üzərinə götürdüyü bəzi öhdəlikləri yenidən nəzərdən keçirməyə başlayıb. Bu şəraitdə Avropa artıq yalnız bir güc mərkəzinə bağlı qalmaq istəmir. Enerji təchizatını şaxələndirdiyi kimi, hərbi-siyasi tərəfdaşlıqlarını da genişləndirməyə çalışır.

Azərbaycan 2020-ci ildən sonra beynəlxalq ictimaiyyətə öz ərazi bütövlüyünü təmin etmək və torpaqlarını işğaldan azad etmək əzmində və gücündə olduğunu nümayiş etdirdi. Bu gün Azərbaycan real döyüş meydanında qələbə qazanmış, peşəkar və güclü orduya malik dövlət kimi tanınır. Qırx dörd günlük Vətən müharibəsində əldə olunan Zəfər Azərbaycan Silahlı Qüvvələrinin imkanlarını və döyüş qabiliyyətini bütün dünyaya göstərdi. Təsadüfi deyil ki, müharibədən sonrakı dövrdə Azərbaycanla İtaliya, Rumıniya və digər Avropa ölkələri arasında hərbi əməkdaşlığın genişləndirilməsinə dair sənədlər imzalanıb. Bəs bu əməkdaşlıq Azərbaycana nə qazandıra bilər? İmzalanan sənədlər birgə hərbi təlimlərin keçirilməsini, təcrübə və bilik mübadiləsini, eləcə də hərbi qurumlar arasında davamlı dialoqun və əməkdaşlığın inkişafını nəzərdə tutur.

Müxtəlif ölkələrlə hərbi əməkdaşlığın genişləndirilməsi ordunun fərqli hərbi ssenarilərə daha yaxşı hazırlaşmasına şərait yaradır.

Hərbi-texniki əməkdaşlıq isə yeni texnologiyaların, silah sistemlərinin və müasir idarəetmə yanaşmalarının öyrənilməsi və tətbiqi üçün əlavə imkanlar açır. Eyni zamanda müxtəlif tərəfdaşlarla əlaqələrin inkişafı hərbi sahədə hər hansı bir mərkəzdən asılılığın azalmasına və əməkdaşlıq imkanlarının şaxələndirilməsinə xidmət edir.

Beləliklə, Avropa ölkələri Ukrayna müharibəsinin ortaya çıxardığı təhlükəsizlik çağırışlarını nəzərə alaraq Azərbaycanla münasibətləri yalnız enerji sahəsində deyil, hərbi istiqamətdə də inkişaf etdirməyə çalışırlar. Bu əməkdaşlıq həm tərəflər arasında strateji əlaqələrin möhkəmlənməsinə, həm də regional və qlobal təhlükəsizlik məsələlərində qarşılıqlı maraqların təmin olunmasına xidmət edir.

Ötən ay Bakıya rəsmi səfər edən İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni mətbuata açıqlamasında bildirib ki, Avropa regionunda inteqrasiya əlaqələri nə qədər güclü olarsa, təhlükəsizlik və sabitliyin təmin edilməsi üçün imkanlar da bir o qədər genişlənər.

Dünyada geosiyasi rəqabətin getdikcə dərinləşməsi və müxtəlif bölgələrdə yeni gərginlik ocaqlarının yaranması fonunda Azərbaycanın öz təhlükəsizliyini təmin etmək qabiliyyəti, güclü hərbi potensialı və müstəqil siyasəti Avropa ölkələrinin diqqətini cəlb edir. Azərbaycan isə təhlükəsizlik məsələlərində qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığa açıq mövqe nümayiş etdirir. Rəsmi Bakının əsas məqsədi regionda dayanıqlı sülhün təmin olunmasına, iqtisadi inkişafın sürətləndirilməsinə və əməkdaşlıq imkanlarının genişləndirilməsinə töhfə verməkdir.

## "Enerji effektivliyi informasiya sisteminin Əsasnaməsi"nin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 168** **Bakı şəhəri, 9 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 dekabr tarixli 322-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 yanvar tarixli 582 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Enerji effektivliyi informasiya sisteminin Əsasnaməsi" təsdiq edilsin *(əlavə olunur).*

2. Azərbaycan Respublikasının Energetika Nazirliyi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Enerji effektivliyi informasiya sistemində formalaşan açıq məlumatların "Açıq məlumatlar" portalına ötürülməsini, bu mümkün olmadığı halda daxil edilməsini və həmin məlumatların mütəmadi olaraq yenilənməsini təmin etsinlər.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Əsasnamənin 4.4-cü bəndində qeyd edilən ötürülən məlumatların ilkin mənbəyini formalaşdıran dövlət qurumları və təşkilatları ilə birlikdə həmin məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə olunmasını təmin etsinlər və bu barədə ildə bir dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mərkəzləşdirilmiş İnformasiya və Rəqəmsal Analitika Sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 noyabr tarixli 533 nömrəli Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 169** **Bakı şəhəri, 9 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mərkəzləşdirilmiş İnformasiya və Rəqəmsal Analitika Sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 noyabr tarixli 533 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 dekabr tarixli 318 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1382 (Cild I); 2024, № 9, maddə 1049) ilə təsdiq edilmiş "Ünvan Reyestri İnformasiya Sistemi ilə inteqrasiya olunacaq digər dövlət orqanlarının informasiya sistemlərinin dairəsi"nə aşağıdakı məzmunda 39-cu hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 39. | Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mərkəzləşdirilmiş İnformasiya və Rəqəmsal Analitika Sistemi | Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti |

2. "Lisenziya və ya icazə verən orqanların lisenziya və ya icazənin, onun dublikatının və əlavəsinin verilməsinin, yenidən rəsmiləşdirilməsinin, dayandırılmasının, bərpasının və ya ləğvinin "Lisenziyalar və icazələr" portalı vasitəsilə həyata keçirilməsini təmin etmək üçün son müddətlər"in, "Lisenziyalar və icazələr" portalına inteqrasiya edilməli olan informasiya sistemlərinin siyahısı və həmin informasiya sistemlərinin portala inteqrasiyası üçün son müddətlər"in və "İnformasiya sistemlərinin "Lisenziyalar və icazələr" portalına inteqrasiyası üçün texniki tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 615 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2560 (Cild I); 2025, № 2, maddə 196, № 9, maddə 877; 2026, № 1, maddə 93) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Lisenziya və ya icazə verən orqanların lisenziya və ya icazənin, onun dublikatının və əlavəsinin verilməsinin, yenidən rəsmiləşdirilməsinin, dayandırılmasının, bərpasının və ya ləğvinin "Lisenziyalar və icazələr" portalı vasitəsilə həyata keçirilməsini təmin etmək üçün son müddətlər"in 18-ci hissəsinin "Son müddət" sütununda "1 mart 2018-ci il" sözləri "2026-cı il" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Lisenziyalar və icazələr" portalına inteqrasiya edilməli olan informasiya sistemlərinin siyahısı və həmin informasiya sistemlərinin portala inteqrasiyası üçün son müddətlər"ə aşağıdakı məzmunda 14-cü hissə əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 14. | Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti üzrə | | |
| 14.1. | Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mərkəzləşdirilmiş İnformasiya və Rəqəmsal Analitika Sistemi | Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən verilən lisenziya və icazələr barədə məlumatlar | 2026-cı il |

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 30 oktyabr tarixli 323 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 10, maddə 1000) ilə təsdiq edilmiş "Yüksəkixtisaslı miqrant" portalına inteqrasiya olunacaq informasiya sistemlərinin siyahısı"na aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 2. | Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti | Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mərkəzləşdirilmiş İnformasiya və Rəqəmsal Analitika Sistemi |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 170** **Bakı şəhəri, 9 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 63 (Cild I); 2024, № 3, maddə 358, № 9, maddə 1106; 2025, № 4 (II kitab), maddə 421, № 9, maddə 858; 2026, № 1, maddə 92, № 2, maddə 197) ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"nin 9-1.2-ci bəndində "20" rəqəmləri "50" rəqəmləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Ümumi istifadədə olan dəmiryol nəqliyyatının infrastrukturunun saxlanması və ondan istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 171** **Bakı şəhəri, 9 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Ümumi istifadədə olan dəmiryol nəqliyyatının infrastrukturunun saxlanması və ondan istifadə Qaydaları" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və "Qaz paylayıcıları tərəfindən qaz təchizatının ümumi şərtlərini təyin edən Qaydaların təsdiq edilməsi haqqında" 1999-cu il 31 may tarixli 87 nömrəli, "Qaz qurğularının tikintisinə, qurulmasına, istismarına və işçi vəziyyətdə saxlanmasına dair tələblər"in təsdiq edilməsi haqqında" 2023-cü il 6 fevral tarixli 36 nömrəli və "Qaz qurğularının qazın atmosferə buraxılmamasına, habelə qazın təzyiqinə, temperaturuna, tərkibinə və digər göstəricilərinə dair tələblər"in təsdiq edilməsi haqqında" 2023-cü il 6 fevral tarixli 37 nömrəli qərarlarının ləğv edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 173** **Bakı şəhəri, 9 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869 (Cild I); 2024, № 1, maddə 80, № 3, maddə 307, № 4, maddə 450, № 5 (II kitab), maddə 585, № 7, maddə 902, № 9, maddələr 1048, 1063; 2025, № 2, maddə 187, № 9, maddə 874; 2026, № 2, maddə 187) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 3-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

"3. qazın topdansatışı, nəqli, paylanması, istehlakçılara qazın pərakəndə satışı, qazın saxlanması xidmətləri, qazın nəqli şəbəkəsinə və qazpaylayıcı şəbəkəyə qoşulma xidmətləri, sabit tarif".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli 104 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 601 (Cild I); 2024, № 1, maddə 111; 2025, № 2, maddə 186) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət etməsi və onların hərəkətinə xüsusi icazənin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.10.1-ci yarımbənddə "elektrik, rabitə, su, qazpaylayıcı" sözləri "qazpaylayıcı sistem operatoru, elektrik, rabitə, su" sözləri ilə əvəz edilsin;

2.2. Qaydaya 2 nömrəli Əlavədə "elektrik, rabitə, su, qazpaylayıcı" sözləri "qazpaylayıcı sistem operatoru, elektrik, rabitə, su" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 23 fevral tarixli 46 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 235 (Cild I); 2024, № 4, maddə 440) ilə təsdiq edilmiş "Tikinti obyektlərinin mühəndis-kommunikasiya təminatı Qaydaları"nın 3.2-ci bəndində "qaz təsərrüfatında təhlükəsizlik qaydalarına" sözləri "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 24.7-ci maddəsində nəzərdə tutulan qaz təchizatı obyektlərində təhlükəsizlik qaydalarına" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 128 (Cild I); 2026, № 1, maddə 82) ilə təsdiq edilmiş "Dövlət məktəbəqədər təhsil müəssisəsini maliyyələşdirmə normativləri"nin 2.1.11-ci yarımbəndinin ikinci abzasına "dəyərinin" sözündən sonra "və sabit tarifin" sözləri, üçüncü abzasına "sərfiyyatı" sözündən sonra "və sabit tarif" sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084, № 12 (II kitab), maddələr 1207,1233, 1257; 2026, № 2, maddələr 173, 187, 189, № 3, maddə 264; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 6 aprel tarixli 96 nömrəli, 29 aprel tarixli 123 nömrəli, 12 may tarixli 141 nömrəli, 14 may tarixli 145 nömrəli və 15 may tarixli 149 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə"nin "222220. "Qaz haqqının ödənilməsi" maddəsinə "dəyərinin" sözündən sonra "və sabit tarifin" sözləri əlavə edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 22 dekabr tarixli 561 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2756 (Cild I); 2024, № 1, maddə 83; 2026, № 2, maddə 187) ilə təsdiq edilmiş "Dövlət peşə təhsili müəssisəsini maliyyələşdirmə normativləri"nin 2.1.13-cü yarımbəndinin ikinci abzasına "dəyərinin" sözündən sonra "və sabit tarifin" sözləri, üçüncü abzasına "sərfiyyatı" sözündən sonra "və sabit tarif" sözləri əlavə edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 fevral tarixli 33 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 184 (Cild I); 2024, № 1, maddə 83; 2026, № 2, maddə 187) ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisəsini maliyyələşdirmə Normativləri"nin 2.1.13-cü yarımbəndinin ikinci abzasına "dəyərinin" sözündən sonra "və sabit tarifin" sözləri, üçüncü abzasına "sərfiyyatı" sözündən sonra "və sabit tarif" sözləri əlavə edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 may tarixli 233 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 571; 2025, № 3, maddə 303, № 9, maddə 869) ilə təsdiq edilmiş "Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası"na əlavə - "Azərbaycan Respublikasının enerji balansı"nın strukturu"nun 3.10.1-ci, 3.12-ci və 3.14-cü sətirlərində ismin müvafiq hallarında "Qaz paylayıcısı" sözləri ismin müvafiq hallarında "Qazpaylayıcı sistem operatoru" sözləri ilə əvəz edilsin.

9. "Qaz paylayıcıları tərəfindən qaz təchizatının ümumi şərtlərini təyin edən Qaydaların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 31 may tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 5, maddə 336 (Cild I); 2025, № 12 (II kitab), maddə 1209) ləğv edilsin.

10. "Qaz qurğularının tikintisinə, qurulmasına, istismarına və işçi vəziyyətdə saxlanmasına dair tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 fevral tarixli 36 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 299 (Cild I); 2025, № 10, maddə 974, № 12 (II kitab), maddə 1240) ləğv edilsin.

11. "Qaz qurğularının qazın atmosferə buraxılmamasına, habelə qazın təzyiqinə, temperaturuna, tərkibinə və digər göstəricilərinə dair tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 300 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan və Türkiyə Şərq-Qərb dəhlizinin inkişafında həlledici rol oynayır

"Azərbaycan və Türkiyə xalqları əsrlər boyu ortaq tarixə, dilə, mədəniyyətə və milli-mənəvi dəyərlərə malik olublar. Bu tarixi bağlılıq iki ölkə arasında münasibətlərin hər zaman xüsusi xarakter daşımasına səbəb olub. XX əsrin əvvəllərində Mustafa Kamal Atatürk tərəfindən səsləndirilən "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" fikri, daha sonra Ulu Öndər Heydər Əliyev tərəfindən ifadə olunan "Bir millət, iki dövlət" prinsipi Azərbaycan-Türkiyə münasibətlərinin ideoloji əsasını formalaşdırıb".



Bu sözləri AZƏRTAC-a açıqlamasında **Milli Məclisin deputatı Əlibala MƏHƏRRƏMZADƏ** söyləyib.

O bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra onu tanıyan ilk dövlətin Türkiyə olması, eləcə də siyasi, iqtisadi və hərbi sahələrdə daim göstərilən qarşılıqlı dəstək bu qardaşlığın real təzahürü olub. Xüsusilə enerji və nəqliyyat layihələri, regional təhlükəsizlik məsələləri və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq iki ölkə arasındakı strateji tərəfdaşlığı daha da möhkəmləndirib. Bu münasibətlərin ən yüksək mərhələsi isə 2021-ci il iyunun 15-də Şuşa şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" ilə başlayıb.

"Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə arasındakı əlaqələri strateji tərəfdaşlıq səviyyəsindən müttəfiqlik səviyyəsinə yüksəldən tarixi sənəddir. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanan bu sənəd iki qardaş ölkə arasındakı münasibətlərin yeni inkişaf mərhələsinin əsasını qoyub.

Bəyannamə siyasi, iqtisadi, hərbi, enerji, nəqliyyat, təhsil, mədəniyyət və informasiya sahələri daxil olmaqla əməkdaşlığın bütün istiqamətlərini əhatə edir. Sənəd ölkələrin suverenliyi, ərazi bütövlüyü və milli maraqlarının qorunması istiqamətində qarşılıqlı dəstəyini təsdiqləyir, regional təhlükəsizliyin təmin edilməsində birgə fəaliyyətin əhəmiyyətini vurğulayır.

Şuşa Bəyannaməsi həm də Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Zəfərin siyasi nəticələrindən biri kimi qiymətləndirilir. Sənəd işğaldan azad olunmuş ərazilərin bərpası, regionda yeni nəqliyyat-kommunikasiya xətlərinin açılması, xüsusilə Zəngəzur dəhlizinin reallaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu layihələr yalnız Azərbaycan və Türkiyənin deyil, bütövlükdə regionun iqtisadi inkişafına və inteqrasiyasına xidmət edir", - deyə Ə.Məhərrəmzadə vurğulayıb.

Deputatın sözlərinə görə, bəyannamədə müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığa xüsusi yer ayrılması onun ən mühüm xüsusiyyətlərindən biridir. Sənəd iki ölkənin hərbi qüdrətinin artırılması, müdafiə sənayesinin inkişafı, birgə təlimlərin keçirilməsi və təhlükəsizlik sahəsində koordinasiyanın gücləndirilməsi üçün möhkəm hüquqi baza yaradır. Bu baxımdan Şuşa Bəyannaməsi regionda sülhün və sabitliyin qorunmasına xidmət edən mühüm strateji sənəd kimi çıxış edir. Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərinin tarixi inkişaf yolunun məntiqi nəticəsi, "Bir millət, iki dövlət" prinsipinin ən yüksək siyasi ifadəsi və gələcək əməkdaşlığın yol xəritəsidir. Bu sənəd iki qardaş dövlətin birliyini daha da möhkəmləndirərək onların regional və beynəlxalq mövqelərinin güclənməsinə xidmət edir.

"Azərbaycan-Türkiyə münasibətləri beynəlxalq sistemdə sabitlik və əməkdaşlıq modelinin mühüm nümunələrindən biri kimi çıxış edir. İki ölkənin strateji müttəfiqliyi Cənubi Qafqaz və daha geniş Avrasiya məkanında güc balansına təsir göstərən əsas amillərdəndir. Enerji və nəqliyyat layihələri vasitəsilə Azərbaycan və Türkiyə Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verir. Bu əməkdaşlıq regional inteqrasiyanı gücləndirərək "Şərq-Qərb" dəhlizinin inkişafında həlledici rol oynayır. Azərbaycan-Türkiyə birliyi beynəlxalq təşkilatlar çərçivəsində də ortaq mövqelərin formalaşmasına şərait yaradır", - deyə Milli Məclisin deputatı vurğulayıb.

# Milli Qurtuluşdan Zəfərə aparan şanlı yol

İyunun 9-da Yeni Azərbaycan Partiyası (YAP) və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr edilmiş "Milli Qurtuluşdan Zəfərə aparan şanlı yol" mövzusunda tədbir keçirilib. Əvvəlcə nazirliyin inzibati binasında Ümummilli Lider Heydər Əliyevin büstü ziyarət olunub.



Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.




Çıxış edən Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Rəşad İsmayılov 15 İyun - Milli Qurtuluş Gününün tarixi əhəmiyyətinə toxunaraq qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə gəlməsi müstəqillik yolunda ciddi dönüş yaratdı.

Nazir qeyd edib ki, dahi rəhbər ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi, eləcə də təbii sərvətlərdən səmərəli istifadə məsələlərinə xüsusi qayğı ilə yanaşırdı: "O, respublikamız üçün aktual olan ekoloji problemlərin həll edilməsi sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsinə rəhbərlik edib. Azərbaycana rəhbərliyinin birinci dövründə görkəmli dövlət xadimi Heydər Əliyev təbii sərvətlərin qorunmasına, yaşıllaşdırma tədbirlərinin miqyasının artırılmasına xüsusi önəm verirdi. Ulu Öndər Heydər Əliyevin iradəsi ilə 1969-1982-ci illərdə ekologiya, ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadəyə dair çox mühüm 8 qanun və 32 qərar qəbul olunub. Bəsitçay, Qarayazı, Ağgöl, Hirkan, Abşeron, İsmayıllı və Şirvan Dövlət Təbiət qoruqlarının yaradılması Ulu Öndərin 1969-1982-ci illərdə respublikaya başçılıq etdiyi dövrə təsadüf edir. Eləcə də Zuvand, Daşaltı, Ordubad, Qubadlı, İsmayıllı və Kiçik Qızılağac Dövlət Təbiət yasaqlıqları da həmin dövrdə məhz Onun diqqət və qayğısı ilə yaradılıb. Ümummilli Lider Heydər Əliyev müstəqillik dövründə Azərbaycan Respublikasında flora və faunanın, təbiət abidələrimizin, nadir heyvanlar aləminin qorunması, mühafizə edilməsi istiqamətində konkret dövlət siyasətini müəyyən edib".

Rəşad İsmayılov deyib ki, Azərbaycan müstəqillik qazanandan sonra da məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə yeni ekoloji siyasət formalaşıb, Bakı və Abşeronun yaşıllaşdırılmasına, ekoloji tarazlığın bərpasına daha böyük əzmkarlıqla başlanılıb. "Ulu Öndərin sədrliyi ilə yaranmış, hazırda isə Onun siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən, ideyalarını gerçəkləşdirən layiqli varisi Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında inkişaf edən və ölkədə ən geniş sosial bazaya malik olan siyasi partiya - Yeni Azərbaycan Partiyasına cəmiyyətdə böyük rəğbət formalaşıb. Nazirliyin bütün tabeli qurumlarında ümumilikdə 5 minə yaxın Yeni Azərbaycan Partiyası üzvünü birləşdirən partiya təşkilatlarının sıraları genişlənir və keyfiyyət cəhətdən təşkilatlanmaqda davam edir", - deyən natiq əlavə edib ki, Yeni Azərbaycan Partiyasının üzvləri əmək fəaliyyətində fərqlənən əməkdaşlardır. Onun sözlərinə görə, son illərdə nazirliyin əməkdaşları, xüsusilə gənclər Yeni Azərbaycan Partiyası sıralarına üzv olmaq üçün fəal təşəbbüs göstərirlər.

Nazir onu da qeyd edib ki, ətraf mühitin mühafizəsi sahəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Yeni Azərbaycan Partiyası arasında sıx əməkdaşlıq edilir: "Belə ki, 2019-cu ilin 5 iyul tarixində ətraf mühitin mühafizəsi və ekoloji layihələrin həyata keçirilməsi istiqamətində birgə əməkdaşlıq məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Yeni Azərbaycan Partiyası arasında birgə fəaliyyət proqramı imzalanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin qarşısında duran vəzifələrin yerinə yetirilməsində, ətraf mühitin mühafizəsi sahəsində ideoloji işin təşkilində, dövlət siyasətinin təbliğində, dövlətə və hakimiyyətə etimadın gücləndirilməsində Yeni Azərbaycan Partiyası üzvlüyünü daşıyan nazirlik əməkdaşlarının məsuliyyəti daha böyükdür. Nazirlikdə çalışan Yeni Azərbaycan Partiyası üzvləri xüsusi fəallıq nümayiş etdirirlər və ölkədə həyata keçirilən çoxşaxəli dövlət siyasətinin əsas təbliğatçıları kimi çıxış edirlər".

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov 15 İyun - Milli Qurtuluş Gününün müasir dövlətçilik tariximizin ən şanlı səhifələrindən biri olduğunu qeyd edib: "Azərbaycan dövlətinin məhv olmaq təhlükəsindən xilası, müstəqilliyimizin dönməzliyinin, şərəfli Zəfər yolumuzun başlanğıcı kimi tarixə düşən bu gün xalq-lider birliyinin təntənəsini əks etdirməklə həyatımızda yeni bir dövrün əsasını qoymuşdur. Dövlət müstəqilliyinin bərpasından sonrakı ilk illərdə Azərbaycan olduqca mürəkkəb və təhlükəli vəziyyətlə üz-üzə qalmışdı. O dövrdə dövlət idarəçiliyində xaos hökm sürür, ölkədə vətəndaş qarşıdurması, parçalanma meyilləri güclənir və bütün bu proseslər Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, beynəlxalq münasibətlər sistemində hökm sürən böhran, gündən-günə dərinləşən iqtisadi tənəzzül fonunda baş verirdi. Belə bir ağır dönəmdə xalqımız çıxış yolunu zəngin dövlətçilik təcrübəsinə malik dahi şəxsiyyət Heydər Əliyevin ətrafında sıx birləşməkdə gördü".

YAP Sədrinin müavini vurğulayıb ki, ümumxalq etimadının təzahürü kimi 91 nəfər ziyalının müraciəti əsasında 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılması və Heydər Əliyevin partiyaya sədr seçilməsi müasir dövlətçilik tariximizin dönüş nöqtəsi oldu: "Azərbaycanın xilası naminə xalq Ulu Öndərə üz tutdu və respublikaya rəhbərlik etməsi barədə qətiyyətli çağırış etdi. Heydər Əliyev öz həyatını böyük riskə ataraq fədakarlıq və vətənpərvərlik nümunəsi ortaya qoyaraq taleyüklü tarixi missiyanı, olduqca mürəkkəb siyasi məsuliyyəti üzərinə götürdü. Beləliklə, 33 il bundan əvvəl - 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Respublikası Ali Məclisinin Sədri seçilməsi tariximizə Milli Qurtuluş Günü kimi həkk olundu, Onun ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər sosial-iqtisadi yüksəliş, mədəni intibah və bütövlükdə müstəqil dövlət quruculuğu dövrü kimi yaddaşlara yazıldı".

Tahir Budaqov bildirib ki, Ümummilli Liderin xalqımız qarşısında ən önəmli xidmətlərindən biri də siyasi varisliyin təmin olunmasıdır: "Bu uzaqgörən siyasət nəticəsində Azərbaycanın inkişafı davamlı xarakter almış və dövlətçilik ənənələri daha da möhkəmlənmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz iqtisadi qüdrətini əhəmiyyətli dərəcədə artırmış, regionun aparıcı dövlətinə çevrilərək beynəlxalq münasibətlər sistemində mövqelərini daha da möhkəmləndirmişdir. Bütün bunlar isə Azərbaycanın milli gücünün artmasını, müasir dövlətçilik tariximizin ən böyük nailiyyətlərinə və şanlı Zəfərə imza atmasını şərtləndirmişdir. Bu gün işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycanın qüdrətinin və gələcəyə aydın strateji baxışının parlaq nümunəsidir. "Yaşıl enerji zonası" elan olunmuş Qarabağ və Şərqi Zəngəzurda ən müasir infrastruktur yaradılır, yaşayış məntəqələri, sosial obyektlər və istehsal müəssisələri son standartlara uyğun qurulur. Azərbaycanın qədim memarlıq ənənələri ilə müasir şəhərsalma konsepsiyalarının vəhdəti əsasında görülən işlər dayanıqlı məskunlaşmaya xidmət göstərir və bütün bu proseslər ekoloji tarazlığın qorunması prioriteti gözlənilməklə baş verir. Bu gün Azərbaycan beynəlxalq miqyasda ətraf mühitin mühafizəsində, iqlim dəyişikliklərinə qarşı mübarizədə və dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsində fəal rol oynayan qabaqcıl ölkələrdəndir. Ekoloji təhlükəsizliyin təmin olunması, təbii ehtiyatlardan səmərəli istifadə və "yaşıl inkişaf"ın təşviqi dövlət siyasətinin əsas prinsipi kimi xüsusi diqqət mərkəzində saxlanılır".

YAP Sədrinin müavini əlavə edib ki, Ümummilli Liderimizin qurucusu olduğu Yeni Azərbaycan Partiyası yarandığı gündən daim milli maraqların müdafiəsini, dövlət müstəqilliyinin möhkəmləndirilməsini, ictimai-siyasi sabitliyin və davamlı inkişafın təmin olunmasını öz fəaliyyətinin əsas istiqamətləri kimi müəyyən etmişdir: "Bu gün partiyamız cəmiyyətin müxtəlif təbəqələrini vahid məqsəd ətrafında birləşdirərək ölkəmizin tərəqqisinə öz töhfəsini verir. Şübhə yoxdur ki, Heydər Əliyev yoluna, Qurtuluş məfkurəsinə sədaqət nümayiş etdirən Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin liderliyi ilə bundan sonra da məqsədyönlü fəaliyyətini inamla davam etdirərək xalqımıza yeni uğurlar qazandıracaqdır. Hər birinizi qarşıdan gələn 15 İyun - Milli Qurtuluş Günü münasibətilə ürəkdən təbrik edir, möhkəm cansağlığı və şərəfli fəaliyyətinizdə davamlı nailiyyətlər arzulayıram".

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidmətinin Hüquqi təminat, insan resursları və sənədlərlə iş şöbəsinin aparıcı məsləhətçi - hüquqşünası Azad Əliyev isə çıxışında bildirib ki, xalqa və dövlətə xidmət Ulu Öndərin qurucusu olduğu, hazırda isə Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edən Yeni Azərbaycan Partiyasının fəaliyyətində xüsusi yer tutur: "Ölkə rəhbərliyinin həyata keçirdiyi siyasətin hər bir Azərbaycan vətəndaşı tərəfindən düzgün və dərindən dərk edilməsi zərurətə çevrilib. Bununla əlaqədar ideoloji işin gücləndirilməsi və səmərəliliyinin artırılması son dərəcə böyük əhəmiyyət kəsb edir. Bu istiqamətdə bizim - Yeni Azərbaycan Partiyasının üzvlərinin üzərinə böyük məsuliyyət düşür".

Çıxış edən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsinin İnformasiya təminatı sektorunun məsləhətçisi Nərmin İsgəndərli qeyd edib ki, ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində, ətraf mühitin mühafizəsi sahəsində ideoloji işin təşkilində, dövlət siyasətinin təbliğində Yeni Azərbaycan Partiyasının üzvü olan nazirlik əməkdaşları aktiv iştirak edirlər: "Mən də bu proseslərdə daha fəal olmaq məqsədilə xalqımızın ən çox inandığı siyasi birliyə - Yeni Azərbaycan Partiyasının sıralarına qoşulmağa qərar vermişəm. Ulu Öndərimizin yaratdığı, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin inkişafına mühüm töhfələr verən Yeni Azərbaycan Partiyasının üzvü olmaqdan qürur duyuram".

Sonra partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyası Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonda xatirə şəkli çəkdirilib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Son 5 ildə sosialyönlü xərclər 3,9 milyard manat artıb



İyunun 9-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Azər Əmiraslanov bildirib ki, iclasın gündəliyinə bir məsələ - ölkə Prezidenti tərəfindən təqdim edilən "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi (birinci oxunuş) daxil edilib.

Azər Əmiraslanov müzakirəyə çıxarılan qanun layihəsinin və hesabatın qanunvericilikdə nəzərdə tutulmuş vaxtda və formada Milli Məclisə daxil olduğunu, bununla bağlı Hesablama Palatası tərəfindən müvafiq rəyin hazırlandığını qeyd edib. O, Azərbaycan Prezidentinin təşəbbüsü ilə ötən ildən dövlət maliyyəsinin idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı institusional xarakterli, eyni zamanda rəqəmsal dövlət maliyyəsi informasiya sisteminin formalaşdırılmasını əhatə edən, həm də səmərəli icra və nəzarət mexanizmlərinin yaradılmasını nəzərdə tutan mühüm islahatlara başlanıldığını vurğulayıb. Komitə sədri dövlət maliyyəsinin idarə edilməsi sahəsində islahatların parlament müstəvisində də büdcə hesabatlılığının təkmilləşdirilməsinə töhfə verəcəyini söyləyib. Qeyd olunub ki, Azərbaycan Konstitusiyasında dövlət büdcəsinin təsdiq edilməsi ilə yanaşı, həm də onun icrasına nəzarət Milli Məclisin mandatı kimi müəyyən edilib. Parlament qarşısında büdcə hesabatlılığı mahiyyətcə büdcəyə nəzarətin həyata keçirilməsidir.

Komitə sədri bildirib ki, 2025-ci ilin dövlət büdcəsinin icrasına dair hesabat bu müddətdə ölkəmizin makroiqtisadi durumunu, dövlət büdcəsinin gəlir və xərclərinin icrasını, dövlət borclanması sahəsində vəziyyəti səciyyələndirən zəruri məlumatları özündə ehtiva edir. Ötən dövr ərzində müdafiə və təhlükəsizlik, əhalinin sosial müdafiəsi, işğaldan azad edilmiş ərazilərin bərpası üzrə xərclərin maliyyələşdirilməsi prioritet istiqamətlər olaraq davam etdirilib.

Nəzərə çatdırılıb ki, büdcənin icrası 2025-ci ildə makroiqtisadi sabitliklə, xüsusilə 1,4 faizlik iqtisadi artımla, 5,6 faizlik orta illik inflyasiya ilə, cari hesablar üzrə tədiyyə balansının 3,5 milyard ABŞ dolları səviyyəsində müsbət saldosu ilə müşayiət olunub, ölkənin strateji valyuta ehtiyatları 85,1 milyard ABŞ dollarına çatıb. Qeyd olunub ki, hesabata əsasən, gəlirlər proqnoz rəqəmlərini üstələyib. Belə ki, 2025-ci il üzrə dövlət büdcəsinin gəlirləri 39,2 milyard manat olmaqla, proqnoza qarşı 829 milyon manat və ya 2,2 faiz çox icra edilib. Dövlət büdcəsinin xərcləri proqnozun 93,2 faizi həcmində və ya 38,6 milyard manat icra edilib. Dövlət büdcəsi kəsirinin yuxarı həddi 3,1 milyard manat məbləğində təsdiq olunsa da, faktiki 580 milyon manat büdcə artıqlığı yaranıb.

Azər Əmiraslanov 2025-ci ilin büdcə zərfinin ölkənin iqtisadi inkişafına, əhalinin sosial rifahına və milli maraqlarımıza xidmət edən maliyyə sənədi olduğunu deyərək, ötən ilin büdcəsinin icrasının möhtərəm cənab Prezidentin mühüm strateji təşəbbüslərinin reallaşdırılması, dövlətin əsas funksiyalarının ardıcıl yerinə yetirilməsi üçün etibarlı maliyyə təminatı yaratdığını, dövlətin müxtəlif sahələrdə əldə etdiyi uğurlara öz töhfəsini verdiyini vurğulayıb.

Sonra maliyyə naziri Sahil Babayev "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsini və 2025-ci il dövlət büdcəsinin icrasına dair illik hesabatı təqdim edib.

O, cənab Prezidentin rəhbərliyi altında 2025-ci ildə həyata keçirilən büdcə siyasətinin əsas istiqamətləri iqtisadi artımın davam etməsi, makroiqtisadi sabitliyin, fiskal intizamın qorunması, büdcə qaydasına əməl edilməsi, eyni zamanda əhalinin rifahının, sosial tədbirlərin tam maliyyələşdirilməsi, müdafiə qabiliyyətinin və təhlükəsizliyin təminatının gücləndirilməsi olub. İqtisadi artım baxımından xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafının, rəqəmsal texnologiyaların, innovativ tədbirlərin genişləndirilməsinin, real sektorun inkişafının sürətləndirilməsinin prioritet olduğunu bildirib.

Nazir ötən ilin əsas makroiqtisadi göstəriciləri ilə bağlı diqqətə çatdırıb ki, 2025-ci ildə ümumi daxil məhsul (ÜDM) 129,1 milyard manat, qeyri-neft-qaz sektoru üzrə ÜDM 92,3 milyard manat təşkil edib, xam neftin 1 barelinin orta illik qiyməti 71 ABŞ dollarına bərabər olub, orta illik inflyasiya 5,6 faiz, manatın məzənnəsi 1,7 manat təsbit edilib, əhalinin nominal gəlirlərində 8 faiz artım müşahidə olunub. Qeyd edilib ki, dövlət borcu ilin sonuna 26 milyard manata və ya illik ÜDM-in 20,1 faizinə bərabər olub və bu, 2025-ci ilin əvvəli ilə müqayisədə ilin sonuna 1,6 faiz azdır. Dövlət borcunun bu günə olan həcmi 24,1 milyard manata və ya illik ÜDM-in 18,4 faizinə bərabər olub. Bu, Azərbaycanın ümumi dövlət borcunun ÜDM-ə nisbətinin ən aşağı olduğunun bariz nümunəsidir. Borc portfeli ilin sonuna 17,8 milyard manat daxili dövlət borcundan, 8,2 milyard manat xarici dövlət borcundan ibarət olub. Strateji valyuta ehtiyatlarımız bu günə 88,4 milyard ABŞ dollarına çatıb. Dövlət Neft Fondundan büdcəyə transfert 8,5 milyard ABŞ dolları məbləğində icra olunub, dövlət büdcəsi profisitlə icra edilib.

Büdcənin icrasının əsas məqamlarından söhbət açan Sahib Babayev bildirib ki, cari xərclərin qeyri-neft gəlirləri ilə örtülmə nisbəti 92 faiz təşkil edir, 2029-cu ilə hədəf bu rəqəmi 100 faizə çatdırmaqdır. İcmal büdcədə qeyri-neft gəlirlərinin payı 55,2 faizə, icmal büdcənin qeyri-neft gəlirlərinin qeyri-neft ÜDM-ə nisbəti 28,7 faizə çatıb. O, xərclərin səmərəli və ünvanlı, müvafiq ehtiyaclara uyğun icra olunmasının təmin edildiyini deyib. Qeyd edilib ki, icmal büdcə xərcləri qeyri-neft ÜDM-in 48,4 faizinə bərabər olub. Həmçinin regionların büdcədən asılılığı daha da azalıb.

Bununla yanaşı, nəzərə çatdırılıb ki, icmal büdcə xərcləri 44,7 milyard manat məbləğində icra olunub. Həmçinin cari xərclər 22,1 milyard manat, əsaslı xərclər 14,4 milyard manat, dövlət borclarına xidmətlə bağlı xərclər 2,1 milyard manat icra olunub, sosialyönlü xərclər isə 15,3 milyard manat və ya büdcənin 40 faizini təşkil edib. Son 5 ildə sosialyönlü xərclər 3,9 milyard manat artıb.

Funksional təsnifat üzrə bildirilib ki, ümumi dövlət xidmətləri üzrə xərclər 4,5 milyard manat məbləğində icra olunub, müdafiə və milli təhlükəsizlik xərclərinə 8,1 milyard manat yönəldilib, məhkəmə, hüquq-mühafizə və prokurorluq orqanları üzrə xərclər 2,9 milyard manat təşkil edib, təhsil xərcləri 4,6 milyard manat icra olunub. Səhiyyə xərcləri 1,3 milyard manat, icmal səhiyyə xərcləri 2,9 milyard manat icra olunub, sosial müdafiə və sosial təminat üzrə xərclərə dövlət büdcəsində 4,6 milyard manat, icmal büdcə çərçivəsində 10,7 milyard manat yönəldilib. Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət növlərinə 527 milyon manat, mənzil və kommunal təsərrüfatı üzrə xərclərə 322,5 milyon manat, kənd təsərrüfatı üzrə 1,1 milyard manat, ətraf mühitin və təbiətin mühafizəsinə 374 milyon manat, iqtisadi fəaliyyətə 7,6 milyard manat vəsait yönəldilib.

Gəlirlər üzrə qeyd edilib ki, icmal gəlirlər 48 milyard manata bərabər olub, gəlirlərin ÜDM-də payı 37,2 faiz, icmal büdcədə qeyri-neft gəlirlərinin payı 55,2 faiz olub. Dövlət büdcəsinin gəlirləri 39,2 milyard manat, bunun ÜDM-də payı isə 30,4 faiz olub. Qeyri-neft sektoru üzrə gəlirlər 20,4 milyard manat və ya 52 faiz, neft-qaz sektoru üzrə gəlirlər 18,8 milyard manat və ya 48 faiz olub. Dövlət Vergi Xidmətinin xətti ilə 16,4 milyard manat, Dövlət Gömrük Komitəsinin xətti ilə 6,4 milyard manat daxilolmalar, Dövlət Neft Fondundan transfert 14,5 milyard manat, büdcə təşkilatlarının ödənişli xidmətləri üzrə daxilolmalar 679,7 milyon manat, sair gəlirlər 837,3 milyon manat dövlət büdcəsinin gəlirlərində icra olunub. Dövlət büdcəsinin profisiti 580 milyon manata bərabər olub.

İcmal büdcənin parametrləri barədə bildirilib ki, gəlirlər 48 milyard manat, o cümlədən qeyri-neft sektoru üzrə 26,5 milyard manat, neft-qaz sektoru üzrə 21,5 milyard manat məbləğində icra olunub. İcmal büdcənin xərcləri isə 44,7 milyard manat təşkil edib. İcmal büdcənin profisiti 3,4 milyard manata bərabər olub.

Sahil Babayev çıxışında 2025-ci ildə maliyyə sahəsində həyata keçirilən islahatlar barədə, o cümlədən dövlət maliyyəsinin səmərəli idarə edilməsi ilə bağlı tədbirlər, Rəqəmsal Dövlət Maliyyəsi İnformasiya Sisteminin təşkili, dövlət xəzinədarlığının fəaliyyətinin təkmilləşdirilməsi, dövlət müəssisələrinin gəlir və xərc smetalarının təhlili və dividend siyasətinin müəyyən edilməsi, dövlət investisiya və infrastruktur layihələrinin maliyyə ekspertizasının aparılması, müxtəlif büdcə xərclərinə dair normativlərin təkmilləşdirilməsi ilə bağlı görülən işlər barədə də məlumat verib.

Sonra iclasda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov 2025-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsinə və dövlət büdcəsinin icrasına dair illik hesabata dair palatanın rəyini təqdim edib.

Palata sədri ötən ilin dövlət büdcəsinin icrasına dair rəy hazırlanarkən istinad edilən göstəriciləri diqqətə çatdırıb. Qeyd edib ki, ÜDM-in proqnoz və fakt göstəriciləri demək olar ki, üst-üstə düşür. O, qanun layihəsinin və hesabatın ümumilikdə mövcud qanunvericiliyin tələblərinə uyğun hazırlandığını bildirib. Ötən ilin dövlət büdcəsinin icrasının büdcə parametrlərinə, ölkənin strateji sənədlərinə uyğunluğu barədə ali audit orqanının mövqeyini diqqətə çatdıran Vüqar Gülməmmədov gəlir və xərc göstəricilərindəki məqamlardan bəhs edib.

Hesablama Palatasının sədri 2025-ci ildə büdcə vəsaitlərinin uçotunun və xərclərin təyinatı üzrə izlənilməsinin təkmilləşdirilməsi istiqamətində qanunvericilikdə mühüm dəyişikliklərin aparıldığını qeyd edib. Eyni zamanda dəyişikliklərin tətbiqi mexanizmlərinin və uçot sisteminin daha da təkmilləşdirilməsi istiqamətində işlərin davam etdirilməsinin vacibliyinə toxunub.

Dövlət büdcəsi parametrlərinin düzgünlüyü və tamlığı ilə bağlı danışan palata sədri deyib ki, Hesablama Palatası tərəfindən 2025-ci ilin dövlət büdcəsinin icrasına dair rəyin tərtib edilməsi zamanı büdcə gəlirləri üzrə 37,7 milyard manat vəsait təhlillə əhatə olunub ki, bu da dövlət büdcəsinin ümumi gəlirlərinin 96,2 faizinə bərabərdir.

O, həmçinin Palata tərəfindən bu il ilk dəfə tətbiq olunan informasiya sistemi vasitəsilə qurumlar tərəfindən təqdim edilmiş məlumatların toplanması və emalının nəticələrini də diqqətə çatdırıb.

Çıxışında Vüqar Gülməmmədov ötən ilin dövlət büdcəsinin əsas gəlir mənbələri və sektorlar üzrə icra vəziyyəti, büdcə inzibatçılığının qiymətləndirilməsi və digər istiqamətlər üzrə palatanın apardığı təhlillər barədə geniş məlumat verib, ali audit orqanının bəzi tövsiyələrini diqqətə çatdırıb.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Ziyad Səmədzadə, Əli Məsimli, Aydın Hüseynov, Rövşən Muradov, Əlibala Məhərrəmzadə sənədlə bağlı aparılan müzakirələrdə çıxış edərək rəy və təkliflərini bildiriblər.

Çıxışlarda Azərbaycanda iqtisadi sahədə həyata keçirilən islahatların ölkənin dayanıqlı inkişafına mühüm töhfə verdiyi, dövlət büdcəsində prioritet istiqamətlərin öz əksini tapdığı və büdcə xərclərinin məqsədyönlü şəkildə yüksək səviyyədə icra olunduğu vurğulanıb.

Maliyyə naziri Sahil Babayev, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov müzakirələrin sonunda qaldırılan məsələlərə aydınlıq gətiriblər.

İclasın yekununda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

*"Azərbaycan"*

# Yeni "orta güc" aktoru

### Çoxşaxəli geosiyasi kimlik: "orta güc" modeli kontekstində

Çoxşaxəli geosiyasi kimliyin "orta güc" nümunəsi kontekstində politoloji mənalandırılması Azərbaycan Prezidenti İlham Əliyevin müasir siyasətşünaslığa verdiyi qiymətli töhfələr sırasındadır. Bu tezisi daha dərindən dərk etmək üçün realpolitik nəzəriyyəsinin "atası", məşhur siyasətçi və dövlət xadimi Henri Kissincerin fikirlərinə diqqət yetirək. 2014-cü ildə nəşr edilən fundamental "Dünya nizamı: millətlərin xarakteri və tarixin gedişi barədə düşüncələr" adlı əsərində H.Kissincer siyasətdə idealizmlə realizmin sintezi məsələsini qoymuşdur. Onun mövqeyinə görə, beynəlxalq sabitlik iki faktorun qarşılıqlı əlaqəsində mümkündür - "qüvvələr balansı" ("Diplomatiya" əsərində onu dərindən araşdırmışdır) və bütün geosiyasi oyunçuların milli maraqlarının etiraf edilməsi. H.Kissincerə görə, realizm o deməkdir ki, mərkəzində qüvvələrin balansı dayanır.

Əslində, çağdaş şərtlər daxilində geniş anlamda qüvvələrin balansının təmin edilməsi həm də hər bir geosiyasi oyunçunun milli maraqlarını qlobal kontekstdə nəzərə almağı ehtiva edir. İdealizm isə özündə beynəlxalq hüququn aliliyini, əxlaqı, mənəvi dəyərləri birləşdirir.

Deməli, praktikada bu nəzəri sistemin tətbiqi dövlətin maraqlarını təmin etməklə yanaşı, beynəlxalq qaydaları yerinə yetirməyi də vacib bilir. Bu isə siyasi peşəkarlıq və liderlik məharəti ilə sıx bağlıdır. Ancaq H.Kissincer burada başqa bir özəlliyi vurğulayır. O, realizmlə idealizmin praktiki sintezində hər bir dövlətin milli dövlətçilik və liderlik ənənələrinin xüsusiyyətlərinin əhəmiyyətli rol oynadığını ifadə edir. "Dəmir kansler" ləqəbli Otto Fon Bismarkın nümunəsində H.Kissincer yazır ki, Almaniyanın qitədə yeni geosiyasi balans yaratması üçün "Bismark kimi dahi tələb olunurdu" ki, qüvvələr arasında bərabərlik mövcud olsun. Bunun üçün də nadir liderlik keyfiyyətləri gərək idi. Çünki bütün variantlarda mümkün münaqişələri aradan qaldırmaq lazım idi.

H.Kissincer bütün tarixi dönəmlərdə Almaniyanın təhlükəsizliyinin təmin olunmasının dahi liderlərdən asılı olduğunu vurğulayır. Və xüsusi qeyd edir ki, bu, Almaniya qarşısında heç bir cəmiyyətin qarşılaşmadığı yeni vəzifələr qoyur.

### Yeni balans

Buradan Azərbaycanın çoxşaxəli geosiyasi kimliklə dövlət olaraq "orta güc" statusu arasında yeni balans yaratmaq kimi mühüm vəzifə yerinə yetirməli olduğu qənaəti formalaşır. Bununla Azərbaycan Prezidenti qüvvələrin balansını böyük ustalıqla iki aspektin sintezi kimi gündəmə gətirir: bir tərəfdən, geosiyasi kimliyin "orta güc" kontekstində balanslaşdırıcı rol oynamasının təmini, digər tərəfdən isə dövlətin "orta güc" statusunda qlobal geosiyasi proseslərdə balanslaşdırıcı rol oynaması. Bunu şərti olaraq "yeni balans nümunəsi" adlandıra bilərik. Eyni zamanda onun praktiki vacibliyi çox əhəmiyyətlidir. Yəni Azərbaycan lideri siyasi-diplomatik fəaliyyəti ilə balanslaşmanın hər iki aspektinin səmərəli sintezini təmin etmişdir.

*(əvvəli qəzetin 9 iyun tarixli nömrəsində)*

Bu məqamda H.Kissincerin siyasi dahiliklə bağlı yuxarıdakı qiymətləndirməsi fonunda Azərbaycana İlham Əliyev nümunəsində tarixin, sözün həqiqi mənasında, Ulu Öndər Heydər Əliyevin siyasi varisi kimi dahi lider bəxş etdiyini deyə bilərik. Hazırda bu məqamın tam olaraq özünü təsdiq etdiyi müşahidə olunur. Yəni Azərbaycan "orta güc" kimi qarşısına qoyduğu vəzifələrin öhdəsindən uğurla gəlir. Bu kontekstdə "çoxşaxəli geosiyasi kimlik" məsələsinin geniş izahına ehtiyac vardır.

Artıq vurğuladığımız kimi, Azərbaycan yalnız Cənubi Qafqaz ölkəsi deyil, eyni zamanda çoxşaxəli geosiyasi kimliyə malik ölkədir. Azərbaycan Cənubi Qafqazın bir hissəsidir, eyni zamanda Mərkəzi Asiya ilə etnik, tarixi və mədəni bağlılıqları var. Deməli, Azərbaycanın Cənubi Qafqazın bir hissəsi olması ilə Mərkəzi Asiya ilə etnik, tarixi və mədəni bağlılıqların sintezi ölkənin geosiyasi identikliyinin bir istiqamətini təşkil edir. Bu, Türk Dövlətləri Təşkilatı (TDT) səviyyəsində yeni geosiyasi əməkdaşlıq platformasına proyeksiya olunur ki, nəticə etibarilə yeni bir geosiyasi identiklik gündəmə gəlmiş olur. Məsələ həm də Azərbaycanın Türkiyə ilə "bir millət, iki dövlət" formulu əsasında özünəməxsus geosiyasi kimliyə malik olması ilə bağlıdır.

Bu o deməkdir ki, TDT kontekstində Azərbaycan coğrafi-siyasi, demoqrafik, milli-etnik, mədəni, tarixi identiklikləri vahid semantik müstəviyə uğurla proyeksiya edə bilmişdir. Həmin məqam geosiyasi perspektiv baxımından xüsusi əhəmiyyət kəsb etməkdədir. Lakin çoxşaxəli geosiyasi kimlik məsələsi bunlarla da məhdudlaşmır.

Azərbaycan Yaxın Şərq istiqamətində də fəallıq göstərir. Faktiki olaraq geosiyasi kimlik məsələsində Yaxın Şərq istiqaməti də ciddi rol oynamağa başlamışdır.

Beləliklə, çoxşaxəli geosiyasi kimlik məsələsi Azərbaycanın "orta güc" modelinin təməlində duran konseptual faktordur. Hazırda Azərbaycanın xarici siyasətinin mahiyyəti və funksiyasında o, regionlararası və qlobal mühitə proyeksiya prosesində aparıcı rol oynayır. Məsələnin bu tərəfi üzərində bir qədər detallı şəkildə dayanmağa çalışaq.

### Azərbaycanın "orta güc" statusu: siyasət və diplomatiya

Hələ XVI əsrdə Covanni Botero "orta güc dövləti" anlayışını belə izah edirdi: "orta güc dövləti" elə bir dövlətdir ki, başqalarının yardımı olmadan müstəqil mövcudluğunu saxlayan güc və nüfuz sahibidir. Ekspertlər bu təsnifi müasir mərhələdə hər bir dövlətin dünya siyasətinə münasibəti kontekstində izah edirlər. Haqlıdırlar, çünki çağdaş dünyada "orta güc"ün anlamında dövlətin qlobal siyasətə münasibəti çox ciddi yer tutur. Azərbaycan bu mənada böyük təsiretmə imkanına malik dövlət kimi yeni "orta güc" fenomenidir.

Digər ekspertlər də "orta güc" kontekstində dünya siyasətinə münasibət məsələsinə böyük önəm verirlər. Onlar vurğulayırlar: "Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin nüfuzu təkcə onların coğrafi miqyası və ya hərbi gücü ilə deyil, qlobal proseslərə təsir göstərmək və sivilizasiyalararası dialoqda oynadığı vasitəçilik rolu ilə ölçülür. Bu gün Azərbaycan öz iqtisadi, diplomatik, hərbi və mədəni resurslarını maksimum dərəcədə səfərbər edərək Cənubi Qafqazın həlledici gücünə, Avrasiya coğrafiyasının yeni və nüfuzlu "orta güc"ünə çevrilib".

Azərbaycan Prezidenti ölkənin xarici siyasət kursuna elə məzmun vermiş və reallaşma mexanizmləri yaratmışdır ki, nəticə etibarilə dövlətimiz bütün dünyada böyük təsirə və nüfuza malik olmuşdur. Azərbaycan bu anlamda bir çox beynəlxalq və regional təşkilatda son dərəcə əhəmiyyətli rol oynayır. Bu zaman Azərbaycan "öz iqtisadi, diplomatik, hərbi və mədəni resurslarını maksimum dərəcədə səfərbər edir".

Buna görə də ekspertlər haqlıdırlar: "Azərbaycan orta ölçülü bir dövlətin coğrafi imkanlarından istifadə etməklə, strateji infrastruktur yaratmaqla, konstruktiv istehsalçı-istehlakçı dialoqunu qorumaqla, tərəfdaşlıqları şaxələndirməklə və davamlı inkişafa ardıcıl sərmayə qoymaqla mürəkkəb geosiyasi mühitdə necə məharətli siyasət ortaya qoya biləcəyini nümayiş etdirir".

Vurğulanan faktorlar Azərbaycan liderinin siyasi-diplomatik fəaliyyətinin əsas aspektlərini ifadə edir. Onlar aşağıdakılardır: strateji infrastruktur yaratmaq, konstruktiv istehsalçı-istehlakçı dialoqunu qorumaq, tərəfdaşlıqları şaxələndirmək və davamlı inkişafa ardıcıl sərmayə qoymaq. Bu parametrlər müasir dövrdə hər bir müstəqil dövlət üçün çox vacibdir. Onların "orta güc dövləti" statusuna proyeksiyası isə daha geniş anlamda siyasi-diplomatik məharət tələb edir. Nümunə kimi "orta güc"ün regionlararası və qlobal miqyaslarda özəlliklərinə aid olan geosiyasi şərtləri vurğulaya bilərik. Məsələn, Azərbaycan "...müstəqil xarici siyasət yürüdən, milli maraqlarını qətiyyətlə qoruyan, tərəfdaşları ilə birlikdə qitənin enerji və logistika xəritəsini yenidən formalaşdıran bir dövlətdir. Eyni zamanda Azərbaycanın COP29 və WUF13 kimi irimiqyaslı mötəbər qlobal sammitlərə uğurla evsahibliyi etməsi rəsmi Bakının beynəlxalq problemlərin həllində çəkisini və dünya birliyindəki ali yüksək nüfuzunu bariz şəkildə nümayiş etdirir".

Azərbaycan Avrasiyanın "enerji və logistika xəritəsini yenidən formalaşdıran dövlət" olmaqla yanaşı, "COP29 və WUF13 kimi irimiqyaslı mötəbər qlobal sammitlərə" də uğurla evsahibliyi edib. Bu məqam yeni növ "orta güc" olmanın başlıca xüsusiyyətlərtindən birini əks etdirir. Çünki diplomatiya, geosiyasət, enerji təhlükəsizliyi, beynəlxalq miqyaslı tədbirlərin təşkili kontekstində uğurlu siyasətin parametri kimi çıxış edir. Dövlət məhz "orta güc" olmalıdır ki, bu cür mürəkkəb siyasi-diplomatik situasiyada və ziddiyyətli geosiyasi vəziyyətdə təsirini və nüfuzunu artırsın.

Beləliklə, Azərbaycanın "orta güc" statusu müasir mərhələdə uğurlu siyasətlə yüksək diplomatik məharətin vəhdətində formalaşmışdır. Bu, ölkənin yüksək maddi, mənəvi, iqtisadi, enerji potensialına sahib olması ilə yanaşı, dövrün qlobal geosiyasi dinamikasının nəbzini düzgün tutmağa qadir liderə də malik olduğunu göstərir.

### "Orta güc" və böyük strategiya

Mütəxəssislər "orta güc"ün böyük strategiyası ola bilərmi?" sualı ərtafında müzakirələr aparırlar. Əslində, semantik olaraq da maraqlıdır ki, "orta güc" hansı anlamda "böyük strategiya" yarada bilər ki, konseptuallığı ilə yanaşı, praktiki səmərəsi də olsun. Yuxarıda vurğuladığımız birinci mövqenin tərəfdarları çoxdur. Onların arqumentlərini türkiyəli professor Nurşin Atəşoğlu aşağıdakı kimi ifadə edir: "Hazırda beynəlxalq münasibətlər camiəsində "orta güc"ün nədən ibarət olduğuna dair geniş qəbul edilmiş bir tərif yoxdur. Lakin "orta güclər" anlayışını təyin etmək üçün edilən çoxsaylı cəhdlər çox vaxt onların mahiyyətinin birtərəfli təhlilinə yönəlmişdir. Bu perspektivə görə, "orta güclər" böyük güclər deyillər və böyük güclər kimi böyük strategiya hazırlaya bilməzlər".

N.Atəşoğlunun qənaətinə görə, tədqiqatçılar "orta güc"ü xarakterizə edən xüsusiyyətləri müəyyən etmək əvəzinə onun hansı xüsusiyyətlərə malik olmadığını qabardırlar. Başqa sözlə, mütəxəssislər əsas diqqəti "orta güc" fövqəlgüc deyildir" tezisinə yönəldirlər və bu əsasda fövqəlgücün malik olduğu böyük strategiyanın "orta güc"ə aid ola bilməyəcəyini deyirlər. Ancaq N.Atəşoğlu da daxil olmaqla bir sıra ekspertlər fərqli fikir ifadə edirlər. N.Atəşoğlu London Kral Kollecinin professoru Ramon Pacheco Pardonun fikirlərinə əsaslanaraq "orta güc" anlayışına belə tərif verir: "Orta güc" effektiv böyük strategiyanın formalaşdırılması, təhlükəsizlik kimi əsas siyasi məqsədlər müəyyən etməklə və bu məqsədlərə çatmaq üçün bütün zəruri resursları ayırmaqla dövlətin vasitələri ilə məqsədləri arasında tarazlığın yaradılması deməkdir".

Bu tərif R.P.Pardonun "orta güc" üçün müəyyən etdiyi aşağıdakı müddəaların (şərtlərin, keyfiyyətlərin) konseptuallaşmasıdır. Hazırda geosiyasətdə R.P.Pardonun "orta güclü böyük strategiya modeli" termini işlədilir. Onun başlıca elementləri aşağıdakılardır. Birincisi, "orta güclər"in böyük strategiya hazırlamasının ilk şərti bu cür dövlətlərin təsirli olacağı coğrafi əhatə dairəsinin əsasən regional xarakterli olmasıdır". Bundan başqa, "orta güclər" böyük güc fəallığının yaratdığı bəzi vəziyyətlərə reaksiya verərlər və buna görə də belə vəziyyətlərdə "orta güclər" də qlobal arenada rol oynaya bilərlər". İkincisi, "orta güc" ölkəsinin böyük strategiyasının zaman baxımından əhatə dairəsi uzunmüddətli olmalı, onillikləri əhatə etməlidir". Üçüncüsü, "orta güc"lü böyük strategiya modelində ən yüksək siyasi məqsədlər mövcud olmalıdır və bu kontekstdə (i) təhlükəsizlik, (ii) rifah və (iii) statusa nail olmaq bu ölkələr üçün əsas fundamental meyarlar arasında olmalıdır". Dördüncüsü, "orta güclər" böyük strategiyaların həyata keçirilməsində həmişə yumşaq güc və kiberalətlərdən də istifadə etməlidirlər".

R.P.Pardonun bu şərtləri kontekstində Azərbaycanın "orta güc" modelinin regionlararası və qlobal miqyaslarda bir sıra xüsusiyyətlərinə nəzər salmaq maraqlıdır.

### Beynəlxalq legitimlik

Azərbaycanın "orta güc" kimi beynəlxalq miqyasda qəbul edilməsini konkret faktlar təsdiqləyir. Bu sırada Bakının müxtəlif beynəlxalq və regional təşkilatlarda irəli sürdüyü təşəbbüslərin əksəriyyət dövlətlər tərəfindən dəstəklənməsi xüsusi vurğulanmalıdır. Azərbaycan koronavirus pandemiyası dövründə BMT-də təşəbbüslə çıxış etdi və o müzakirə edildi. Xüsusi təşkil edilən tədbir çərçivəsində pandemiya ilə yanaşı, müstəmləkəçilik və ksenofobiya ilə mübarizə məsələsi də ciddi müzakirə edildi.

Vurğulanan faktorların hər biri qlobal dünya nizamına və sülhə xidmət edən məsələlərlə sıx bağlıdır. Bütün bunlara görə də ekspertlərin aşağıdakı qiymətləndirməsi tamamilə doğrudur: "Azərbaycan beynəlxalq münasibətlər sistemində Prezident İlham Əliyevin uğurla tətbiq etdiyi balanslaşdırılmış siyasəti nəticəsində "orta güc" mərkəzlərindən birinə çevrilib. Dünyada sözünün çəkisi olan, mövqeyi qəbul edilən rəsmi Bakı qlobal miqyasda pozitiv gündəliyin formalaşmasına töhfəsini verir. Buna misal olaraq qeyd edə bilərik ki, beynəlxalq münasibətlərdə təsir imkanları minimuma enmiş Qoşulmama Hərəkatına (QH) sədrlik Azərbaycana keçdikdən sonra dünyanın 120 ölkəsinin üzv olduğu, bundan əlavə 17 ölkənin və 10 beynəlxalq təşkilatın müşahidəçi statusunda təmsil olunduğu təşkilat sanki... yenidən doğuldu".

Azərbaycanın "orta güc" olaraq fəaliyyətində regionlararası miqyasda digər "orta güclər"lə strateji xarakterli koordinasiyada olması da diqqət çəkir. Bunun nümunəsi qismində Qazaxıstanı göstərə bilərik. Belə ki, Azərbaycan-Qazaxıstan əməkdaşlığı çoxşaxəlidir. Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstana və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycana çoxsaylı səfərlər etmişlər. Burada "orta güc" olaraq iki qardaş dövlətin koordinasiyalı fəaliyyətinə dair müəyyən ümumi qeydlər edə bilərik.

Qazaxıstanlı alim Erbulat Seylexanov yazır ki, son illər geniş yayılmış C5+1 formatı daxilində Qazaxıstan regionun kollektiv geosiyasi aktor olmasında fəallıq göstərir. Eyni zamanda Qazaxıstanın TDT-nin "əhəmiyyətli regional mərkəzə çevrilməsi" üçün fəallıq göstərdiyi vurğulanır.

Yeri gəlmişkən, Qazaxıstan Prezidenti K.J.Tokayev dünyanın gələcək düzəninin qurulması prosesini nəzərdə tutaraq "orta güc" dövlətlərinin bu prosesdə vacib rol oynadıqlarını qeyd etmişdir.

Vurğulanan məsələlər üzrə Azərbaycan və Qazaxıstanın "orta güc" statusunda əməkdaşlığı yüksək səviyyədədir. Buraya həm bütövlükdə məhəlli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, həm də ticarət, iqtisadiyyat, nəqliyyat-logistika, regional bağlantılar və enerji sferasının çoxşaxəli istiqamətləri üzrə əlaqələr daxildir.

Bunlar onu göstərir ki, Azərbaycan "orta güc" kimi regionlararası miqyasda digər "orta güc"lərlə səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri şəbəkəsini qura bilmişdir. Bizcə, bu məqam ölkənin "orta güc" perspektivinin mühüm cəhətlərindən birini ifadə edir.

Beləliklə, Azərbaycanın "orta güc" statusu milli, regional, regionlararası və qlobal miqyaslarda strateji dəyəri olan faktorları özündə ehtiva edir. Onlar müstəqil dövlətçiliyin identikliyini nəzərə almaq şərtilə inklüzivliyi və legitimliyi təmin edir. Azərbaycanın "orta güc" modelinin ümumi xarakteristikasını və potensialını Prezident İlham Əliyev dəqiq ifadə etmişdir. Burada müasir qlobal geosiyasət üçün vacib olan faktorlar ciddi surətdə nəzərə alınır. Onların sırasında rəqəmsallaşma, süni intellekt, bərpaolunan enerji, "yaşıl keçid" və kommunikasiyaların işləməsi kimi faktorlar xüsusi yer tutur.

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***

# Dövlət Gömrük Komitəsinin sədri Xankəndi şəhərində vətəndaşları qəbul edib



**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həlli üçün müvafiq tədbirlər görürlər.**

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən verilən məlumata görə, Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırov Xankəndi şəhərində - Xankəndi şəhəri, Şuşa, Xocalı, Ağdərə, Xocavənd və Laçın rayonlarından olan vətəndaşları qəbul edib. Komitənin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda Xankəndi şəhəri, Şuşa, Xocalı, Ağdərə, Xocavənd və Laçın rayonlarının sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub.

Qəbul zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, araşdırılması tələb olunan bəzi müraciətlərlə bağlı müvafiq tədbirlər görülməsi üçün aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

# Ermənistan vətəndaşlarının şikayətləri üzrə Apellyasiya Məhkəməsində tərəflərin çıxışlarına başlanılıb



İyunun 9-da Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə məhkəmə baxışı davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

Məhkəmə prosesini Ombudsman Aparatının nümayəndələri də izləyiblər.

Əvvəlcə keçən məhkəmə iclasında təqsirləndirilən şəxslərdən bir qisminin ötən məhkəmə iclasında xahiş etdiyi sənədlərin tərcüməsi onlara təqdim edilib.

Təqsirləndirilən Davit İşxanyan isə 26 may tarixli məhkəmə iclasının məhkəmə-iclas protokolu ilə tanış olmaq istədiyini deyib.

Sədrlik edən məhkəmə-iclas protokolu ilə tanış olmaq üçün məhkəməyə müraciət edilməsinin lazım olduğunu, sənədlərlə tanışlıq üçün heç bir məhdudiyyət qoyulmadığını bildirib.

Ardınca sədrlik edən bildirib ki, məhkəmə kollegiyası Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 394-cü maddəsinin, habelə apellyasiya şikayətlərinin dəlilləri və Məcəllənin 339-341-ci maddələrinin tələblərinə uyğun olaraq məhkəmə çıxışlarının icra edilməsi ilə bağlı prosessual fəaliyyətin başlanmasını qanunauyğun hesab edir.

Çıxış üçün söz müdafiə tərəfinə verilib. Lakin A.Harutyunyanın müdafiəçisi istisna olmaqla digər vəkillər çıxışa hazırlaşmaq üçün məhkəmə prosesinin təxirə salınmasını məhkəmədən xahiş ediblər.

David Manukyan və Davit İşxanyan məhkəmə prosesinin davam etdirilməsini məhkəmədən xahiş edib.

Məhkəmədə fasilə elan olunub.

Fasilə zamanı təqsirləndirilən şəxslərdən bəziləri öz müdafiəçiləri ilə konfidensial qaydada görüşlər keçiriblər.

Fasilədən sonra sədrlik edən elan edib ki, məhkəmə kollegiyası təqsirləndirilən şəxslərin hüquqlarını müdafiə edən vəkilləri ilə konfidensial görüşmələrinə dair vəsatətləri təmin edərək onlara bunun üçün şərait yaradıb. Bundan başqa, iclasda çıxış etmək istəyən şəxslərə də müvafiq şərait yaradacaq. Digər təqsirləndirilənlərin çıxışa hazırlaşması üçün isə onlara vaxt veriləcək.

Ardınca təqsirləndirilən Arayik Harutyunyanın müdafiəçisi Anar Məmmədov çıxış edib. Vəkil çıxışında müdafiə etdiyi şəxs barəsində bəraət hökmü çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən Arayik Harutyunyan çıxış edərək vəkilinin mövqeyi ilə razılaşdığını və səsləndirdiyi fikirləri müdafiə etdiyini deyib.

Məhkəmənin növbəti iclası iyunun 16-da keçiriləcək.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 5 fevral 2026-cı il tarixli hökmünə əsasən, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.

# Təmiz ətraf mühit və "yaşıl artım" milli inkişafın prioritetidir



Bəşəriyyətin qarşılaşdığı iqlim böhranı və resursların sürətlə tükənməsi təhlükəsi bizdən, sadəcə, müvəqqəti tədbirlər deyil, sivilizasiya səviyyəsində bir düşüncə inqilabı tələb edir. Əsrlərdir davam edən xətti iqtisadiyyat modeli - yəni təbiətdən "götür, istehsal et və tulla" yanaşması - artıq özünü tamamilə tükətmişdir. Bu gün biz "sıfır tullantı" fəlsəfəsini, enerji səmərəliliyi və resursların idarə edilməsini bir-birindən ayrı deyil, dayanıqlı gələcəyin vahid və bütöv memarlığı kimi nəzərdən keçirməliyik.

Bəşəriyyət böyük bir fəlakətin astanasındadır. Sənaye və kənd təsərrüfatının müxtəlif sahələrinin, eləcə də nəqliyyat, isitmə və soyutma sistemlərinin fəaliyyəti iqlim dəyişikliklərinə birbaşa təsir göstərir. Bu "51 milyard ton" tullantıdan "sıfıra doğru" paradiqmanın meydana çıxmasına səbəb olub.

Önümüzdə dayanan bu paradiqmanın əsas hədəf və fundamental sualı budur: 51 milyard ton parnik qazının miqdarını aşağı salaraq sıfra necə çevirmək olar və nə üçün məhz sıfır? Bu vəziyyətin yaxşılaşdırılması üçün konkret olaraq fərdlər, əməkdaşlar, sahibkarlar və dövlətlər birgə şəkildə nə etməlidirlər?

Bu sual, sadəcə, texnoloji deyil, həm də etik bir sualdır. Məşhur alman filosofu Armin Qrunvaldın texnologiya etikası sahəsində vurğuladığı kimi: "Biz texnologiyanı elə idarə etməliyik ki, o, insanın muxtariyyətini və planetin gələcəyini təhdid etməsin. Biz gəncliyimizdə sistemlərin çöküşünü, sosializmdən kapitalizmə böyük keçid dövrlərini görmüş və azadlıq uğrunda mübarizə aparmış bir nəsilik. O zaman mübarizəmiz milli və siyasi azadlıq üçün idi. Bu gün isə bizim növbəti böyük mübarizəmiz - planetimizin və gələcək nəsillərin resurs asılılığından, rəqəmsal israfdan və iqlim fəlakətindən azad olunması mübarizəsidir".

Buna görə də bizim qurduğumuz "yaşıl texnologiya" modelləri mütləq şəkildə "insanı və təbiəti qoruyan texnologiya" prinsiplərinə əsaslanmalıdır.

Bu qlobal çağırışlar fonunda Azərbaycan, sadəcə, bir müşahidəçi deyil. Ölkəmizdə dayanıqlı inkişafın təmin edilməsi üçün çox güclü qanunvericilik bazası formalaşdırılmışdır.

"Ekoloji təmiz kənd təsərrüfatı haqqında", "Enerji resurslarından səmərəli istifadə və enerji səmərəliliyi haqqında" və "Bərpaolunan enerji mənbələrindən elektrik enerjisi istehsalı haqqında" qəbul edilmiş qanunlar bu sahədəki fəaliyyətimizin hüquqi sütunlarıdır.

Bu hüquqi baza ölkənin uzunmüddətli strateji vizyonu ilə tamamlanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə qəbul edilmiş və 2030-cu ilə qədər olan dövrü əhatə edən Milli Prioritetlərdə "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" strateji hədəf olaraq müəyyən edilmişdir. Cənab İlham Əliyevin siyasi iradəsi və uzaqgörən "yaşıl enerji" strategiyası sayəsində Azərbaycan Paris sazişi öhdəliklərinə uyğun olaraq 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40 faiz azaltmağı hədəfləyən qətiyyətli bir dövlətə çevrilmişdir.

Respublikamızda bu strateji hədəflər real torpaq üzərində bərpa edilir. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur regionları rəsmi olaraq "yaşıl enerji" zonası elan edilmişdir və bu ərazilərin 2050-ci il hədəfi tamamilə Xalis Sıfır Emissiya zonasına çevrilməkdir. "Ağıllı kənd" və "ağıllı şəhər" infrastrukturunu nəzərdən keçirərkən biz, sadəcə, müasir binalar görmürük. Biz orada Armin Qrunvaldın bəhs etdiyi insan-təbiət harmoniyasını tətbiq edirik: bu şəhər və kəndlərdə alternativ idarəetmə və "sıfır tullantı" prinsipləri tətbiq edilir, məişət tullantıları resurs kimi yenidən dövriyyəyə qatılır. Binaların üzərində quraşdırılmış günəş panelləri, "ağıllı işıqlandırma" və izolyasiya texnologiyaları enerjiyə qənaəti maksimuma çatdırır. Bölgənin su ehtiyatlarından səmərəli istifadə edilir. Artıq ümumi gücü 307 MVt olan 38 hidroelektrik stansiyası da istismara verilmişdir.

Azərbaycanın "yaşıl keçid" sahəsindəki bu unikal təcrübəsi onu qlobal iqlim və şəhərsalma siyasətinin mərkəzinə çevirib. Bakıda keçirilən COP29 iqlim konfransı dünya ekologiya tarixində dönüş nöqtəsi oldu. COP29-un ən böyük tarixi nəticəsi - inkişaf etməkdə olan ölkələrin "yaşıl keçid"i, o cümlədən enerji səmərəliliyi layihələrinin maliyyələşdirilməsi üçün yeni qlobal maliyyə hədəfinin (Bakı Maliyyə Məqsədi) qəbul edilməsi oldu. Bu qərarlar təmiz və az tullantılı texnologiyaların tətbiqi zamanı qarşıya çıxan əlavə xərcləri, yəni Bill Qeytsin "How to Avoid a Climate Disaster" əsərində qeyd etdiyi "Yaşıl Mükafatı" (Green Premium) aradan qaldırmaq üçün qlobal investisiya axınını sürətləndirdi. Bu qlobal xətt Bakının evsahibliyi etdiyi WUF13 ilə birbaşa tamamlanır. COP29-da qəbul edilən iqlim maliyyəsi və strategiyaları WUF13-də "Davamlı və yaşıl şəhərlərin inşası" vizyonu ilə praktiki müstəviyə keçdi.

Dünyada yaranan tullantıların və istehlak olunan enerjinin 70 faizdən çoxu şəhərlərin payına düşür. WUF13 bizə açıq şəkildə göstərdi ki, urbanizasiyanı "sıfır tullantı" və enerji səmərəliliyi prinsipləri ilə idarə etmədən iqlim fəlakətinin qarşısını almaq qeyri-mümkündür. Bizim Qarabağda reallaşdırdığımız layihələr məhz bu qlobal forumların arzuladığı gələcək modelidir.

Biz vizyonumuzu real rəqəmlərlə, irimiqyaslı layihələrlə və qlobal miqyaslı "yaşıl enerji" dəhlizləri ilə gücləndiririk. Bu gün ölkəmiz Avropanın və regionun "yaşıl enerji" təhlükəsizliyinin əsas təminatçısına çevrilmək üçün strateji dəhlizlərin inşasına rəhbərlik edir. Bunlardan biri Xəzər-Qara Dəniz-Avropa "yaşıl enerji" dəhlizi layihəsidir. Xəzər dənizinin 157 QVt nəhəng texniki külək potensialından qaynaqlanan "yaşıl elektrik enerjisi" Gürcüstan və Qara dənizin dibi ilə çəkiləcək sualtı kabel vasitəsilə Rumıniya və Macarıstana, oradan isə bütün Avropa bazarına ötürüləcəkdir. İlkin mərhələdə bu dəhlizlə 4 QVt "yaşıl enerji"nin ixracı hədəflənir.

Digər layihə Mərkəzi Asiya-Azərbaycan-Avropa dəhlizidir. Qazaxıstan və Özbəkistanın nəhəng bərpaolunan enerji resursları Azərbaycanın şəbəkəsi ilə inteqrasiya olunur. Mərkəzi Asiyanın "yaşıl enerji"sinin Xəzər dənizinin dibi ilə ölkəmizə, buradan isə Avropaya nəqli üçün üçtərəfli strateji saziş uğurla icra edilir.

Başqa bir layihə Naxçıvan-Türkiyə-Avropa "yaşıl enerji" dəhlizidir. "Yaşıl enerji" zonası olan Naxçıvanın yüksək günəş enerjisi yaradılacaq infrastruktur və ötürücü xətlər vasitəsilə qonşu Türkiyə bazarına, oradan isə Avropaya çatdırılacaqdır.

Və nəhayət, Azərbaycan-Türkiyə-Avropa ("Cənub qaz dəhlizi"nin "yaşıl transformasiya"sı) layihəsi. Mövcud regional infrastruktur imkanlarından istifadə edərək, gələcəkdə daxili bərpaolunan enerji hesabına sərbəstləşəcək təbii qaz həcmlərinin və ya infrastrukturun imkan verdiyi dərəcədə "yaşıl hidrogenin" birbaşa "Cənub qaz dəhlizi" vasitəsilə Avropa bazarlarına nəqlini nəzərdə tutan strateji ekoloji inteqrasiya xəttidir.

Bu dəhlizləri daxili gücümüzlə bəsləyən 230 MVt-lıq Qaradağ GES, 240 MVt-lıq Xızı-Abşeron Külək-Elektrik Stansiyası, inşası davam edən "Şəfəq", həmçinin Biləsuvarda 445 MVt və Neftçalada 315 MVt gücündəki meqalayihələr dövlətimizin "yaşıl mühərriki" rolunu oynayır.

"Sıfır tullantı" və enerji səmərəliliyi, sadəcə, sənayenin yox, fərdi və kollektiv təfəkkürün transformasiyasıdır. COP29-un qlobal qərarları, WUF13-ün yaşıl şəhərsalma vizyonu və Azərbaycanın Qarabağda yaratdığı "ağıllı reallıq" bircə həqiqətə xidmət edir: resursları israf etməyə artıq heç birimizin haqqı yoxdur. Gələcək nəsillərə, sadəcə, hesabatlar və rəqəmlər deyil, təmiz, yaşana bilən və dayanıqlı bir dünya miras qoymaq bəşəriyyətin borcudur.

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# Uşaqların rəqəmsal təhlükəsizliyinin təmin olunması prioritet məsələdir

Azərbaycanda sosial şəbəkələrdən istifadə ilə bağlı yeni hüquqi tənzimləmələrin tətbiqi nəzərdə tutulur. Milli Məclisə təqdim olunan qanun layihəsinə əsasən, 16 yaşına çatmamış şəxslərin yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformalarında qeydiyyatına icazə verilməyəcək. Eyni zamanda platforma provayderləri istifadəçilərin yaşının yoxlanılması, yetkinlik yaşına çatmayanların təhlükəsizliyinin təmin edilməsi, zərərli məzmunların qarşısının alınması və fərdi məlumatların qorunması ilə bağlı bir sıra öhdəliklər daşıyacaqlar. Tələblərin pozulmasına görə yüksək məbləğdə cərimələr və mərhələli məhdudlaşdırma tədbirləri nəzərdə tutulur.

Bundan başqa, qanun layihəsində 16-18 yaş arası istifadəçilər üçün xüsusi təhlükəsizlik mexanizmlərinin tətbiqi, valideyn nəzarətinin gücləndirilməsi, fərdi məlumatların qorunması və zərərli məzmunun operativ şəkildə silinməsi kimi məsələlər də öz əksini tapıb

Mövzu ilə bağlı AZƏRTAC-a açıqlamasında **Milli Məclisin deputatı Ceyhun MƏMMƏDOV** uşaqların sosial şəbəkələrdə təhlükəsizliyinin təmin edilməsinə dair qanunvericilik təşəbbüsünü şərh edərkən bildirib ki, bu gün uşaqların sosial mediada zərərli təsir və məzmunlara məruz qalması dünya miqyasında geniş müzakirə olunan və ciddi narahatlıq doğuran məsələlərdən biridir. Bir çox ölkə artıq bu prosesin tənzimlənməsi istiqamətində ardıcıl addımlar atır, uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunması üçün yeni hüquqi mexanizmlər formalaşdırır. Azərbaycanda da bu istiqamətdə mühüm addımlar atılır və hazırlanmış qanun layihəsi uşaqların hüquqlarının qorunması baxımından xüsusi əhəmiyyət daşıyır.

Onun sözlərinə görə, bir müddət əvvəl Prezident İlham Əliyevin imzaladığı mühüm sənədlərdə də gənclərin və uşaqların rəqəmsal mühitdə zərərli təsir və məzmunlardan qorunması ilə bağlı vacib müddəalar öz əksini tapıb. Həmin sənədlərdə bu sahədə mövcud çağırışlar diqqət mərkəzində saxlanılıb və mühüm istiqamətlər müəyyənləşdirilib. Hazırlanmış qanun layihəsində bir sıra mühüm məqamlar nəzərdə tutulur və bu sənəd rəqəmsal mühitdə uşaqların təhlükəsizliyinin təmin olunması istiqamətində hüquqi tənzimləmənin həyata keçirilməsinə imkan yaradacaq.



Qanun layihəsində 16 yaşına çatmamış şəxslərin sosial şəbəkələrdən istifadəsi ilə bağlı tələblərin müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda platformaların məsuliyyəti artırılır, onların üzərinə konkret öhdəliklər qoyulur və qaydaların pozulmasına görə müvafiq məsuliyyət tədbirləri nəzərdə tutulur.

Deputat vurğulayıb ki, sənəddə müxtəlif nəzarət və təhlükəsizlik mexanizmlərinin tətbiqi də öz əksini tapıb. Bu mexanizmlər uşaqların zərərli məzmunlardan qorunmasına, sosial şəbəkələrdən daha təhlükəsiz istifadənin təmin olunmasına xidmət edəcək. Qanun layihəsinin qəbulu uşaqların rəqəmsal təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verəcək və bu sahədə mövcud risklərin minimuma endirilməsinə şərait yaradacaq. Bu məsələdə valideynlərin üzərinə də böyük məsuliyyət düşür. Hüquqi tənzimləmə vacib olsa da, valideyn nəzarəti və ailə institutunun rolu xüsusi əhəmiyyət daşıyır.

"Valideynlər övladlarının sosial şəbəkələrdən istifadəsinə ciddi yanaşmalı, onların rəqəmsal davranışlarına nəzarət etməli və mümkün risklər barədə məlumatlı olmalıdırlar. Dövlət qurumlarının, aidiyyəti təşkilatların, təhsil müəssisələrinin və valideynlərin birgə fəaliyyəti nəticəsində bu sahədə daha səmərəli nəticələr əldə etmək mümkündür. Uşaqların zərərli təsir və məzmunlardan qorunması asan məsələ deyil və kifayət qədər mürəkkəb yanaşma tələb edir. Lakin bu, cəmiyyətin gələcəyi baxımından ən vacib istiqamətlərdən biridir və bu sahədə atılan addımların davamlı olması xüsusi əhəmiyyət daşıyır. Əgər dövlət qurumlarının fəaliyyəti, ictimai maarifləndirmə tədbirləri və valideyn məsuliyyəti bir-birini tamamlayarsa, uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm nailiyyətlər əldə edə bilərik", - deyə Ceyhun Məmmədov vurğulayıb.

# Uşaqların sosial şəbəkə platformalarında qeydiyyatı qanunla tənzimlənəcək



Son illərdə dünyada uşaqların sosial şəbəkələrdən istifadəsi ilə bağlı narahatlıqlar daha da artıb. Bir çox ölkə azyaşlıların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunması üçün yeni hüquqi proseslər tətbiq edir, yaş məhdudiyyətlərini müəyyənləşdirir və sosial şəbəkə platformalarının məsuliyyətini artırır. Uşaqların zərərli məzmunlardan qorunması artıq qlobal gündəliyin əsas məsələlərindən biridir. Bu, Azərbaycanda da diqqət mərkəzindədir.

İyunun 8-də Milli Məclisin komitələrində müzakirə olunan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi də bu məsələləri nəzərdə tutur. Təklif olunan dəyişikliklər uşaqların sosial şəbəkə platformalarında qeydiyyatının hüquqi əsaslarla tənzimlənməsini müəyyən edir.

Qanun layihəsinə əsasən, İnzibati Xətalar Məcəlləsinə 388-4-cü maddə əlavə edilir. Yeni maddə yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformalarının fəaliyyəti ilə bağlı tələblərin pozulmasına görə məsuliyyəti müəyyənləşdirir. Həmçinin "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanuna yeni anlayışlar əlavə olunur. Bunlar "sosial şəbəkə platforması", "yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platforması", "platforma provayderi" və "fərdi rəqəmsal hesab" anlayışlarıdır.

Qanun layihəsində ən mühüm yeniliklərdən biri "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunda uşaqların sosial şəbəkələrdə qeydiyyatına dair tələblərin müəyyənləşdirilməsidir. Qanuna təklif edilən 13-4-cü maddəyə əsasən, 16 yaşı tamam olmamış şəxslərin yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformalarında fərdi rəqəmsal hesab yaratmasına yol verilməyəcək. Hansı platformalara bu qaydaların tətbiq olunacağı isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən müəyyən ediləcək. 16 yaş həddinin seçilməsi uşaqların psixoloji yetkinlik səviyyəsi və müstəqil qərar qəbul etmə qabiliyyəti ilə birbaşa bağlıdır. Bu yaşa qədər uşaqlar internet mühitindəki gizli manipulyasiyalara, zərərli ideologiyalara və qeyri-etik məzmunlara qarşı daha müdafiəsiz olurlar. Müvafiq dövlət qurumu tərəfindən xüsusi monitorinqlər aparılacaq və uşaqlar üçün risk daşıyan, kütləvi istifadəçi bazasına malik qlobal və yerli platformalar bu məhdudiyyət siyahısına daxil ediləcək.

Provayderlər bu qanun qüvvəyə minənədək yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformalarında (və həmin platformalarda yaradılan fərdi rəqəmsal hesablarda) yaş həddinin müəyyən edilməsi ilə bağlı rəqəmsal həllərin tətbiqi üçün texniki imkanları təmin etməli və bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməlidirlər. Həmçinin provayderlər bu qanun qüvvəyə mindikdən sonra 16 yaşdan aşağı uşaqlara məxsus mövcud fərdi rəqəmsal hesablara girişin məhdudlaşdırılmasını, şəxsin 16 yaşının tamam olmasını təsdiq edən məlumat təqdim edilmədikdə həmin hesabların və fərdi məlumatlarının silinməsini təmin etməli və bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi quruma məlumat verməlidirlər.

Beləliklə, Azərbaycanda uşaqların sosial şəbəkələrdən istifadəsi daha geniş hüquqi çərçivədə tənzimlənəcək. Məqsəd uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunması, onların zərərli məzmunlardan qorunması və valideyn nəzarətinin gücləndirilməsidir. Unutmaq olmaz ki, bu prosesdə cəmiyyətin, məktəblərin və xüsusilə valideynlərin üzərinə də böyük məsuliyyət düşür. Rəqəmsal savadlılığın artırılması və dövlətin yaratdığı bu hüquqi çərçivədən düzgün istifadə edilməsi gələcəyimiz olan uşaqları virtual dünyanın təhlükələrindən qorumağın ən etibarlı yoludur.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan nümayəndələri MDB-nin antiterror qurumlarının Moskvada keçirilən müşavirəsində iştirak ediblər

Moskvada Azərbaycan nümayəndələrinin iştirakı ilə MDB-yə üzv dövlətlərin terrorizmlə mübarizəyə cavabdeh səlahiyyətli orqanlarının bölmələrinin rəhbərlərinin XIX müşavirəsi keçirilib.

MDB iştirakçısı olan ölkələrin Antiterror Mərkəzinin mətbuat bürosundan AZƏRTAC-a bildirilib ki, tədbir terrorizm və ekstremizmə qarşı mübarizə sahəsində dövlətlərarası əməkdaşlığın möhkəmləndirilməsi məsələlərinə həsr olunub.

Müşavirədə Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan və Özbəkistanın səlahiyyətli orqanlarının nümayəndələri, həmçinin MDB orqanlarının işçi strukturlarının, aidiyyəti beynəlxalq və elmi-təhsil təşkilatlarının təmsilçiləri iştirak ediblər. Plenar iclas zamanı iştirakçılar kollektiv təhlükəsizliyin təmin olunması məqsədilə Birlik ölkələrinin səlahiyyətli orqanlarının səylərinin daha da artırılmasının vacibliyini vurğulayıblar.

İxtisaslaşmış sessiyalar çərçivəsində müasir terror və ekstremizm təhdidlərinə qarşı mübarizə, beynəlxalq əməkdaşlığın inkişafı, informasiya mübadiləsi, eləcə də süni intellekt texnologiyalarının qanunsuz məqsədlərlə istifadəsinin qarşısının alınması məsələləri müzakirə olunub.

Görüşün yekununda iştirakçılar terrorizm və ekstremizmə qarşı mübarizə sahəsində əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsində maraqlı olduqlarını təsdiqləyiblər.

# Azərbaycan Gürcüstan iqtisadiyyatına investisiya yatıran ölkələrin siyahısında dördüncüdür

"Cari ilin birinci rübündə Gürcüstana birbaşa xarici investisiyalar 47,7 faiz artaraq 271,2 milyon dollar təşkil edib".

AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin məlumatında deyilir. Qeyd olunan dövrdə Gürcüstana ən böyük investisiyanı Birləşmiş Krallıq yatırıb. Siyahıda sonrakı pillələrdə ABŞ, Niderland və Azərbaycan dayanır. Birinci rübdə birbaşa xarici investisiyalar əhəmiyyətli dərəcədə artıb. 2026-cı ilin birinci rübündə ən çox investisiya maliyyə və sığorta fəaliyyəti sektoruna, ardınca isə daşınmaz əmlak, informasiya və rabitə, enerji və ticarət sektorlarına qoyulub.

# İstanbul Bəyannaməsi üç ölkəni qlobal çağırışlara qarşı vahid cəbhədə birləşdirir

İyunun 8-də Türkiyənin İstanbul şəhərində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun, Gürcüstanın xarici işlər naziri Maka Botçorişvilinin və Türkiyə xarici işlər naziri Hakan Fidanın iştirakı ilə Azərbaycan-Gürcüstan-Türkiyə xarici işlər nazirlərinin onuncu üçtərəfli görüşü keçirilib. Xarici işlər nazirlərinin bu görüşü regionun gələcək mənzərəsini və inkişaf strategiyasını müəyyən edən çox mühüm hadisədir.

Qlobal miqyasda geosiyasi böhranların yaşandığı, logistik xətlərin təzyiqlərə məruz qaldığı və iqtisadi qeyri-müəyyənliklərin artdığı bir dövrdə Bakı, Tbilisi və Ankara oxunda əlaqələrin daha da dərinləşməsi böyük əhəmiyyət kəsb edir.



**Milli Məclisin deputatı Kamran BAYRAMOV** qəzetimizə açıqlamasında deyib ki, bu üçtərəfli format, sadəcə, növbəti diplomatik təmas deyil, bütövlükdə Avrasiya məkanında sabitliyin, etibarlı tərəfdaşlığın və təhlükəsizliyin əsas təminatçısıdır: "Üç qonşu ölkə arasında əlaqələrin bu cür yüksələn xətlə inkişafı fonunda əldə olunan ortaq platforma regional iqtisadiyyatın əsas hərəkətverici qüvvəsinə çevrilib. Bu sıx əməkdaşlığın ən böyük praktik nəticələri özünü strateji layihələrdə və enerji təhlükəsizliyi sahəsində göstərir. Bakı-Tbilisi-Ceyhan və "Cənub qaz dəhlizi" kimi qlobal layihələrlə Avropanın enerji xəritəsini dəyişən bu ittifaq mövcud əlaqələri yeni bir mərhələyə daşıyır. Azərbaycanın öz təbii qazını artıq 16 ölkəyə ixrac etdiyi indiki şəraitdə Gürcüstanla qaz alqı-satqısı müqaviləsinin müddətinin uzadılması, həmçinin SOCAR və BOTAŞ arasında "Abşeron" yatağının ikinci mərhələsindən qaz tədarükünə dair əldə edilən yeni razılaşma regional və qlobal enerji təhlükəsizliyinə növbəti böyük töhfədir".

Deputat diqqətə çatdırıb ki, enerji sektoru ilə yanaşı, nəqliyyat və kommunikasiya xətlərinin genişləndirilməsi də bu üçtərəfli tərəfdaşlığın prioritet istiqamətlərindəndir. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun, yəni Orta dəhlizin inkişafında hər üç dövlət əvəzolunmaz magistral rolunu oynayır. Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsinin uğurla başa çatdırılması və sərnişin reyslərinin bərpa olunması regional mobilliyi maksimum dərəcədə artıracaq. Eyni zamanda TRIPP layihəsinin icrası və Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz, təhlükəsiz bağlantının təmin edilməsi həm iqtisadi sıçrayış yaradacaq, həm də dövlətlərarası etimadı və inteqrasiyanı xeyli gücləndirəcək.

K.Bayramov vurğulayıb ki, xarici işlər nazirlərinin İstanbul görüşündə xüsusi diqqət yetirilən ən mühüm istiqamətlərdən biri də regional təhlükəsizliyin əsas şərti olan Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi olub: "Üçtərəfli platformada rəsmi Bakının postmünaqişə dövründə irəli sürdüyü sülh quruculuğu təşəbbüslərinin və həyata keçirdiyi etimad quruculuğu tədbirlərinin normallaşma gündəliyinin irəliləməsinə verdiyi mühüm töhfələr yüksək qiymətləndirilib. Azərbaycanın bölgədə davamlı sülhün və sabitliyin bərqərar olması üçün atdığı addımların, konstruktiv mövqeyinin və sülh müqaviləsi layihəsi üzərində apardığı aktiv işin regionun gələcək inkişafı üçün tarixi bir fürsət yaratdığı diqqətə çatdırılıb. Bununla yanaşı, əldə olunmuş bu unikal tarixi imkanı qalıcı və dayanıqlı sülhə çevirmək üçün qətiyyətli addımların atılmasının vacibliyi bir daha bəyan edilib. Görüşdə vurğulanıb ki, iki ölkə arasında münasibətlərin tam normallaşmasına və yekun sülh sənədinin imzalanmasına mane olan fundamental, açıq qalmış məsələlər mütləq şəkildə həllini tapmalıdır. Xüsusilə Ermənistanın daxili qanunvericiliyində, o cümlədən konstitusiyasında Azərbaycana qarşı hələ də qalan hüquqi-siyasi ərazi iddialarının tamamilə aradan qaldırılması sülh prosesinin uğurla tamamlanması üçün qaçılmaz şərtdir. Bakı-Tbilisi-Ankara ittifaqı Cənubi Qafqazın dinc və təhlükəsiz gələcəyini dəstəkləyir, lakin qonşuluq münasibətlərinin beynəlxalq hüququn norma və prinsipləri, suverenlik və ərazi bütövlüyünə qarşılıqlı hörmət əsasında qurulması üçün İrəvanın da üzərinə düşən məsuliyyəti tam yerinə yetirməsi tələb olunur".

Deputat əlavə edib ki, görüşün yekununda imzalanan tarixi İstanbul Bəyannaməsi tərəflərin təkcə iqtisadi və logistik sahədə deyil, həm də terrorizm, mütəşəkkil cinayətkarlıq, kiber təhdidlər və iqlim dəyişikliyi kimi qlobal çağırışlara qarşı vahid cəbhədə birləşdiyini təsdiqləyir. Azərbaycanın Türkiyənin COP31 evsahibliyinə verdiyi tam dəstək də bu sarsılmaz qardaşlıq və strateji müttəfiqliyin bariz nümunəsidir. Yaxın Şərqdə gərginliyin artdığı indiki həssas dövrdə Bakı-Tbilisi-Ankara formatı beynəlxalq hüquqa söykənən sabitlik vahididir və bu əlaqələrin daha da inkişafı region əhalisinin rifahını sığortalamaqda davam edəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Ölkəmizə qarşı media manipulyasiyaları qəbuledilməzdir

## Azərbaycan sülh, sabitlik və mehriban qonşuluq münasibətlərinə hər zaman sadiqdir




Beynəlxalq informasiya platformalarında Azərbaycanın müstəqil xarici siyasətini və qlobal sülh missiyasını hədəfə alan və regionumuzla bağlı reallıqları təhrif etməyə yönəlmiş bəzi qərəzli kampaniyaların şahidi oluruq.

Bu günlərdə "CNN World" xəbər kanalının internet səhifəsində dərc olunmuş və Azərbaycanı hədəfə alan məqalə də bunun bariz nümunələrindən biridir. Sözügedən yazıda Azərbaycan ərazisinin guya İrana qarşı hərbi və ya kəşfiyyat əməliyyatları üçün istifadə edilməsi, habelə İsrail qüvvələrinin ölkəmizdə yerləşdirilməsi barədə tamamilə uydurma və əsassız iddialar irəli sürülüb.

Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin bu məsələyə dair rəsmi şərhində qeyd olunduğu kimi, iddialar heç bir tutarlı sübut ortaya qoyulmadan, yalnız anonim mənbələrə əsaslanır. Ən qəribəsi isə budur ki, rəsmi Bakının bu mövzu ilə bağlı qəti təkzib mövqeyi CNN redaksiyasına sorğuya cavab olaraq əvvəlcədən rəsmi qaydada təqdim edilsə də, telekanal tərəfindən tamamilə görməzdən gəlinib. Azərbaycanın rəsmi mövqeyini nəzərə almayan belə birtərəfli yanaşma jurnalistikanın obyektivlik, qərəzsizlik və peşəkar etika prinsiplərinə tamamilə ziddir və növbəti dezinformasiya cəhdindən başqa bir şey deyil.

### Prinsipial mövqe

Azərbaycanın xarici siyasət kursunda sarsılmaz və dəyişməz bir prinsip var. Ölkəmizin ərazisindən və ya hava məkanından hər hansı üçüncü bir dövlətə qarşı istifadə edilməsinə qətiyyən icazə verilmir. XİN-in sözügedən şərhində də bu barədə deyilir: "Dəfələrlə bəyan edildiyi kimi, Azərbaycan ərazisinin hər hansı üçüncü dövlətə qarşı hərbi əməliyyatlar, kəşfiyyat fəaliyyəti və ya digər düşmən xarakterli məqsədlər üçün istifadə edilməsi barədə iddiaların heç bir əsası yoxdur. Ölkəmiz bu kimi fəaliyyətlərə heç vaxt icazə verməyib və verməyəcək.

Azərbaycan regionda sülhün, sabitliyin və mehriban qonşuluq münasibətlərinin təşviqinə sadiqdir. Bu kimi əsassız və heç bir sübuta əsaslanmayan iddialar növbəti dezinformasiya cəhdidir".

İyunun 5-də Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası da CNN-in məqsədyönlü informasiya təxribatına dair bəyanat yayıb. Bəyanatda qeyd edilib ki, mühüm diplomatik və siyasi hadisələr, qlobal beynəlxalq tədbirlər və ya proseslərin astanasında CNN və oxşar media quruluşları tərəfindən Azərbaycana qarşı hədəflənmiş informasiya kampaniyasının aparılması artıq birinci hal deyil.

Bildirilib ki, komissiyanın apardığı monitorinq zamanı müəyyən edilib ki, adıçəkilən məqalə paylaşıldıqdan dərhal sonra "fürsətçi amplifikasiya" taktikası və prosesi nəticəsində bu anti-Azərbaycan narrativ dünya üzrə əksər nüfuzlu media orqanlarında, habelə "X", "Threads", "Facebook" və "Teleqram" kimi sosial media platformalarında sürətlə yayılaraq kampaniya halını alıb: "Məqalə müəlliflərinin sonda daim Azərbaycanın əleyhinə olan mövqeyi ilə seçilən və vaxtilə "Soros Fondu"nun maliyyələşdirdiyi media layihələrində fəaliyyət göstərən şəxsə müraciət etməsi isə məsələnin haradan qaynaqlandığını ehtimal etməyə əsas verir".

Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiya CNN-i bu məqalənin əsassızlığı barədə açıqlama verməyə və ya iddialarını sübut edəcək faktları ictimaiyyətə təqdim etməyə çağırıb.

"Əks halda CNN doğru olmayan və anonim mənbələrə söykənərək geniş beynəlxalq əhatə dairəsinə malik materiallar yaymaqla hibrid təhdidlərin vacib komponentləri sayılan informasiya əməliyyatları, saxta narrativlər və dezinformasiya kampaniyalarında alət rolunu oynadığını bir daha təsdiq etmiş olacaq", - deyə Milli Məclisin komissiyasının bəyanatında vurğulanıb.

Rəsmi Bakı bu barədə prinsipial mövqeyini dəfələrlə nümayiş etdirib, yalnız bəyanatlarda deyil, yüksəksəviyyəli diplomatik təmaslarda da qarşı tərəfə çatdırılıb. Məsələn, cari il yanvarın 29-da xarici işlər naziri Ceyhun Bayramovun iranlı həmkarı Seyid Abbas Əraqçi ilə telefon danışığı zamanı bu məsələ yenidən qətiyyətlə vurğulanıb. Bakının mövqeyini ifadə edən XİN rəhbəri bölgədə son gərginliyin narahatlıq doğurduğunu, bütün tərəflərin İranda və onun ətrafında qeyri-sabitliyə səbəb ola biləcək addımlardan və ritorikadan çəkinmələrinin zəruriliyinin ölkəmiz tərəfindən hər zaman vurğulandığını bildirib. Mövcud problemləri yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll etməyin vacib olduğu qeyd edilib. Nazir bildirib ki, Azərbaycan öz hava məkanının və ya ərazisinin hər hansı dövlət tərəfindən qonşu İrana və ya digər ölkələrə qarşı hərbi əməliyyat aparılması üçün istifadəsinə heç vaxt imkan verməyəcək.

### Bölgədə gərginliyin aradan qaldırılmasına töhfələr

Azərbaycan regional sabitliyin qarantını qarşıdurmada deyil, dinc yanaşı yaşama və qarşılıqlı hörmət prinsiplərində görür. Regionda yaradılmış yeni reallıqlar da məhz bu sülh gündəminə xidmət edir. Azərbaycanın ABŞ Prezidenti Donald Trampın təsis etdiyi Sülh Şurasının təsisçi üzvlərindən biri olması ölkəmizin qlobal barışa verdiyi dəyərin beynəlxalq miqyasda qəbul olunmasının göstəricisidir.

Rəsmi Bakı qonşu İranda cərəyan edən mürəkkəb hadisələrin sülh yolu ilə həllinə tərəfdar olduğunu təkcə sözdə deyil, əməli addımlarla da sübut edib. Bu il yanvarın 31-də Prezident İlham Əliyev İran Prezidenti Məsud Pezeşkiana zəng edərək Azərbaycanın bölgədə gərginliyin aradan qaldırılmasına hər cür töhfə verməyə hazır olduğunu diqqətə çatdırıb.

Həmçinin martın 1-də Prezident İlham Əliyevin İran Prezidenti Məsud Pezeşkiana ünvanladığı məktubda dost İran xalqının üzüntüsü dərindən paylaşılır. Ölkəmizin rəhbəri vurğulayıb ki, bu çətin gündə dost və qardaş İran xalqına sülh, sabitlik və əmin-amanlıq arzulayırıq.

Eyni zamanda həmin dövrdə dövlət başçısı İranın ölkəmizdəki səfirliyində olub, başsağlığı verib. Halbuki Azərbaycan Prezidentindən başqa heç bir dövlət başçısı İranın hansısa bir səfirliyinə getməyib.

Bütün bu addımlar xüsusi çəkiyə malikdir və məktub ölkəmizin regionda gərginliyin deyil, rifahın tərəfdarı olduğunun növbəti təsdiqidir.

Eyni zamanda İranda baş verən böhranlar zamanı humanitar dəstək göstərməyi özünə mənəvi borc bilən Azərbaycan qonşu ölkəyə yardım əlini uzadan ilk dövlətlərdən biri olub.

Azərbaycanın xarici siyasətinin humanizm prinsiplərinə əsaslanmasının ən böyük sübutu İranda yaranmış mürəkkəb vəziyyətlə bağlı xarici ölkə vətəndaşlarının təxliyə prosesində yaşandı. Əcnəbi vətəndaşların təxliyə üçün məhz Azərbaycanı seçməsi təsadüfi deyildi. Çünki beynəlxalq ictimaiyyət ölkəmizin regionda əsl "təhlükəsizlik adası" olduğuna tam əmin idi. Azərbaycan dövləti humanitar prinsipləri rəhbər tutaraq həmin şəxslərin təhlükəsiz və rahat şəkildə ölkələrinə qayıtmaları üçün hər cür şərait yaratdı və bu həssas diqqətə görə əksər dövlətlər Azərbaycana rəsmi minnətdarlıqlarını bildirdilər.

Reallıq ondan ibarətdir ki, rəsmi Bakı gərginliyin, qarşıdurmanın deyil, rifahın, dialoqun tərəfdarı olub.

Buna görə də "CNN World" kimi qlobal media platformalarında yayılan qərəzli məqalələr Azərbaycanın regionda formalaşdırdığı etibarlı tərəfdaş və sülh carçısı imicinə kölgə sala bilməz. Azərbaycan öz suverenliyinə hörmət olunmasını tələb etdiyi kimi, qonşularının da daxili işlərinə qarışmama prinsiplərinə hər zaman sadiqlik nümayiş etdirir.

CNN isə peşəkar jurnalistika etikasına hörmət əlaməti olaraq, bu əsassız iddialarla dolu məqaləyə dair rəsmi təkzib yayımlamalıdır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Ermənistan cəmiyyəti Paşinyanın timsalında reallığı seçdi

## İndi növbə quru bəyanatların yox, konkret və qətiyyətli hüquqi addımlarındır

Ermənistanda gərgin keçən parlament seçkilərinin nəticələri bəlli oldu. Seçki bülletenlərinin yüz faizi sayıldı və Nikol Paşinyanın "Vətəndaş Müqaviləsi" Partiyası 49,81 faiz səs toplayaraq qalib gəldi. Ermənistan Mərkəzi Seçki Komissiyasının rəhbəri Vahaqn Ovakimyan deyib ki, nəticələrin yenidən sayılması və düzəliş edilməsi ayın 12-dək davam edəcək: "Bundan sonra şikayətlər və ərizələr qiymətləndiriləcək. Yekun nəticələr iyunun 14-də elan ediləcək".

Əslində, Paşinyanın qələbəsi sürpriz olmadı, onun rəqiblərindən daha çox səs toplayacağı gözlənilirdi. Konstitusiyaya əsasən, Baş nazirin seçilməsi, hökumətin tərkibinin təsdiqlənməsi üçün adi çoxluq (50+1) kifayətdir. Beləliklə, Nikol Paşinyanın partiyası növbəti dəfə təkbaşına hökuməti formalaşdırmaq şansı əldə edir. Lakin Paşinyanın hədəflərinə çatması üçün indiki nəticə yetərli görünməyə bilər. Məsələ ondadır ki, 29 mandatlı Samvel Karapetyanla 12 mandatlı Robert Koçaryan bloklarının birləşməsi parlamentdə təsir imkanlarına malik müxalif platforma formalaşdırmaq imkanı qazanıblar. Belə olacağı təqdirdə Paşinyan üçün bir sıra məsələlərdə əlavə çətinliklərin yaranacağı istisna edilmir.

Əsas məsələlərdən biri Ermənistanda yeni konstitusiyanın qəbulu, ərazi iddialarının mövcud qanunvericilikdən tamamilə çıxarılmasıdır. Konstitusiya dəyişikliyi regionda formalaşan yeni reallıqlar kontekstində ilk növbədə Paşinyan hökumətinə lazımdır. Rəsmi Bakı sülh sazişinin tam imzalanması kontekstində Ermənistan Konstitusiyasında ərazi iddialarının aradan qaldırılmasını vacib şərt olaraq görür. Azərbaycanla sülh sazişi və Türkiyə ilə normallaşma məsələsində Karapetyan-Koçaryan blokları ortaq mövqe nümayiş etdirə, prosesi tormozlamağa cəhd göstərə bilərlər. Bənzər tendensiyanın Qərblə Rusiya arasında seçim məsələsində də müşahidə ediləcəyi deyilir.



Lakin Paşinyanın boş dayanmayacağı bəllidir. Əgər müxalif düşərgə hökumətə qarşı sərt qarşıdurma xəttini seçərsə, Paşinyanın hüquqi vasitələrdən istifadə edəcəyi şübhəsizdir. Yekun nəticələrdən sonra Nikol Paşinyanın səsləndirdiyi fikirlər də diqqət çəkir. O, Ermənistan xalqının səsvermə yolu ilə dövlətçiliyin, müstəqilliyin və sülhün müdafiəsinə qalxdığını bəyan etdi, "müharibə partiyası" adlandırdığı qüvvələrin məğlubiyyətini vurğuladı. Həmçinin qeyd etdi ki, "üçbaşlı müharibə partiyası"nın və onu müşayiət edən cinayətkar oliqarxik sistemin aradan qaldırılması hökumətin ən vacib vəzifələrindən biri olacaq: "Biz bunu təxirə salmadan və çox qətiyyətli və aydın addımlarla həyata keçirməliyik". Paşinyan müxalifət rəhbərlərinin əvvəlki cinayətlərinə görə həbs olunma ehtimalını da gündəmə gətirib.

Ermənistanda keçirilən seçkilərdə önəmli olan cəmiyyətin hansı siyasi xəttə üstünlük verməsidir. Seçkilər təkcə hakimiyyət uğrunda siyasi mübarizə deyildi, həmçinin ölkənin gələcək geosiyasi istiqamətinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətli idi. Seçki nəticələri göstərdi ki, seçicilərin təxminən yarısı Nikol Paşinyanın təklif etdiyi Avropaya inteqrasiya, sülh və transformasiya gündəliyinə üstünlük verir.

Paşinyanın seçki kampaniyasının əsas xüsusiyyəti praqmatik mesajlar üzərində qurulması idi. O, seçicilərə Azərbaycanla yeni müharibə və qeyri-müəyyənlik perspektivi ilə iqtisadi inkişaf, regional kommunikasiyaların açılması və beynəlxalq inteqrasiya arasında seçim təqdim etməyə çalışdı. Revanşist qüvvələri isə keçmişin simvolu kimi təqdim etdi. Ermənistan cəmiyyətinin əhəmiyyətli hissəsi revanşistləri korrupsiya və ölkəni ağır geosiyasi asılılığa sürükləmiş zərərli qüvvələr kimi görür. Buna görə də kampaniya daha çox "gələcək və ya keçmiş" arasında seçim formasında aparıldı.

Digər mühüm amil Ermənistan cəmiyyətində yeni müharibə qorxusunun güclü olmasıdır. Əksəriyyət anlayır ki, revanşist çağırışlar Ermənistanı növbəti fəlakətə sürükləyir. Bu baxımdan Paşinyanın qələbəsi ilk növbədə Ermənistan cəmiyyətinin yeni müharibə riskini qəbul etməməsinin, köhnə siyasi elitalara etimadsızlığının və regionda formalaşmış yeni geosiyasi reallıqlara uyğunlaşmaq məcburiyyətinin nəticəsi kimi qiymətləndirilə bilər. Ermənistan seçicisi mövcud şəraitdə daha real və daha az riskli hesab etdiyi siyasi kursa səs verdi. Bu, eyni zamanda 2020-ci ildən sonra formalaşmış yeni geosiyasi düzənin, Prezident İlham Əliyevin qətiyyətlə müdafiə etdiyi sülh strategiyasının növbəti siyasi təsdiqidir. Postmüharibə dövründə Azərbaycanın irəli sürdüyü davamlı sülh və normallaşma gündəliyi regionda aparıcı siyasi xətdir.

Paşinyan xalqdan növbəti dəfə mandat alsa da, onun sınaqdan necə çıxması hələ indi başlayır. Seçkilərdə ifadə olunan ictimai iradənin sonrakı siyasi qərarlarda əksini tapması İrəvan hökuməti üzərinə düşən əsas məsuliyyətlərdən biridir. Ermənistan rəhbərliyi bundan sonra sülh gündəliyinə uyğun real siyasi qərarlar qəbul etməlidir. Sərhədlərin delimitasiya və demarkasiyası prosesinin sürətləndirilməsi, sülh sazişinin imzalanması üçün zəruri hüquqi addımların atılması və regional nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsi növbəti mərhələnin əsas göstəriciləri olacaq.

Nəticə etibarilə indi növbə quru bəyanatların yox, konkret və qətiyyətli hüquqi addımların atılmasıdır. Azərbaycanın formalaşdırdığı yeni regional reallıq kontekstində Ermənistanın başqa yolu da yoxdur. Sülh gündəliyindən yayınmaq İrəvan üçün növbəti və bəlkə də daha ağır siyasi-iqtisadi fəlakətin başlanğıcı demək olacaq.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# XİN beynəlxalq təhlükəsizlik mühitində artan risklərlə bağlı bəyanat yayıb

Məlumdur ki, mövcud beynəlxalq təhlükəsizlik mühitində daha da artan gərginlik, müxtəlif regionlarda, o cümlədən Ukraynada və Yaxın Şərqdə davam edən silahlı münaqişələr beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdid olaraq qalmaqdadır.

AZƏRTAC xəbər verir ki, mövzu ilə əlaqədar Azərbaycanın Xarici İşlər Nazirliyi bəyanat yayıb.

Bəyanatda bildirilib: "Təəssüf ki, belə ərazilərdə olan Azərbaycan vətəndaşlarının silahlı toqquşmalar və hərbi əməliyyatlar nəticəsində həlak olması və ya müxtəlif dərəcəli bədən xəsarətləri alması halları qeydə alınır. Bu cür hadisələr münaqişə zonalarında və onların yaxınlığında yerləşən ərazilərdə təhlükəsizlik risklərinin son dərəcə yüksək olduğunu bir daha nümayiş etdirir və həmin bölgələrə səfər edən və ya fəaliyyət göstərən vətəndaşlarımızın həyat və sağlamlığı üçün ciddi təhlükələr yaradır.

Bu kontekstdə vətəndaşlarımıza xarici ölkələrə səfər etməzdən əvvəl təhlükəsizlik vəziyyətini diqqətlə qiymətləndirmələrinə, rəsmi dövlət qurumlarının xəbərdarlıq və tövsiyələrini nəzərə almalarına, münaqişə və hərbi əməliyyatların aparıldığı ərazilərə səfərlərdən yayınmalarına bir daha çağırış edirik. Bununla yanaşı, vətəndaşların muzdlu və ya könüllü əsasda xarici dövlətlərin ərazisində silahlı münaqişələrdə və hərbi əməliyyatlarda hər hansı bir formada iştirakının Azərbaycan qanunvericiliyinə uyğun olaraq cinayət məsuliyyəti ehtiva etdiyini bir daha diqqətə çatdırırıq".

Qeyd olunub ki, Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları xaricdə olan vətəndaşlarımızın hüquq və maraqlarının müdafiəsi istiqamətində fəaliyyətlərini davam etdirir. Bununla yanaşı, hər bir vətəndaşın öz təhlükəsizliyinə məsuliyyətlə yanaşması və yüksəkriskli fəaliyyətlərdən uzaq durması xüsusi əhəmiyyət kəsb edir.

"Xarici İşlər Nazirliyi beynəlxalq vəziyyətlə bağlı inkişafları diqqətlə izləməyə davam edir", - deyə bəyanatda vurğulanır.

# İQTİSADİYYAT

## Azərbaycan iqtisadiyyatının gücünü beynəlxalq maliyyə qurumları da etiraf edirlər

**Azərbaycanda son illər həyata keçirilən iqtisadi islahatlar, neftdənkənar sahənin inkişafına yönəlmiş siyasət və maliyyə sabitliyinin qorunması beynəlxalq maliyyə qurumlarının diqqətindən kənarda qalmır. Dünyanın aparıcı reytinq agentlikləri və beynəlxalq təşkilatları ölkəmizin iqtisadi göstəricilərini müsbət qiymətləndirir, dayanıqlı inkişaf potensialına dair nikbin proqnozlar səsləndirirlər.**

Bu baxımdan beynəlxalq reytinq agentliyi "Fitch Ratings"in son hesabatı xüsusi diqqət çəkir. Agentlik Azərbaycanın uzunmüddətli xarici valyutada emitent defolt reytinqini BBB səviyyəsində təsdiqləyib, proqnozu isə "sabit" saxlayıb (Qeyd edək ki, "Fitch Ratings"in Azərbaycan iqtisadiyyatına verdiyi BBB səviyyəsi kredit reytinqləri şkalasında kredit qabiliyyətinin kifayət qədər səviyyəli olduğu deməkdir). Hesabatda ölkəmizin güclü xarici maliyyə mövqeyi, aşağı dövlət borcu səviyyəsi və Dövlət Neft Fondunun əhəmiyyətli aktivləri sayəsində formalaşan yüksək maliyyə çevikliyi əsas üstünlüklər kimi qeyd olunub.

Agentlik hazırda qlobal maliyyə bazarlarının ən etibarlı informasiya mənbələrindən biri kimi tanınır. Bu gün "Fitch Ratings" yalnız reytinq fəaliyyəti ilə məhdudlaşmır. Qurum maliyyə bazarlarının təhlili, risklərin idarə olunması, kredit araşdırmaları və peşəkar təlim xidmətləri istiqamətlərində də fəaliyyət göstərir. Elə buna görə də onun Azərbaycan iqtisadiyyatı ilə bağlı verdiyi hər bir rəy və proqnoz ölkənin investisiya cəlbediciliyinin, maliyyə dayanıqlılığının və beynəlxalq etimad səviyyəsinin mühüm göstəricilərindən biri hesab olunur.




Agentliyin qiymətləndirməsində Azərbaycanın güclü maliyyə dayanıqlılığını şərtləndirən əsas amillərdən biri kimi ölkənin xarici valyuta ehtiyatları xüsusi vurğulanır. Qurumun proqnozlarına görə, yaxın illərdə də bu istiqamətdə müsbət dinamika davam edəcək. Agentlik Azərbaycanın suveren valyuta aktivlərinin 2026-cı ildə 93 milyard dollara yüksələcəyini proqnozlaşdırır. Bu məbləğin ölkənin həmin il üçün proqnozlaşdırılan ümumi daxili məhsulunun 117 faizinə bərabər olacağı bildirilir. "Fitch Ratings" hesab edir ki, valyuta aktivlərinin artımında əsas rolu enerji sektorundan əldə olunan gəlirlər oynayacaq. Xüsusilə Yaxın Şərqdə müşahidə olunan geosiyasi gərginlik fonunda neft və qaz qiymətlərinin yüksəlməsi Azərbaycanın ixrac gəlirlərinin artmasına əlavə imkanlar yaradır. Hesabatda qeyd olunur ki, ölkənin suveren valyuta aktivlərinin böyük hissəsi, yəni təxminən 84 faizi Dövlət Neft Fondunda cəmləşəcək. Qalan hissə isə Mərkəzi Bankın beynəlxalq valyuta ehtiyatları şəklində saxlanılacaq. Bu amil Azərbaycanın strateji maliyyə ehtiyatlarının etibarlı şəkildə idarə olunduğunu və uzunmüddətli makroiqtisadi sabitliyin qorunmasına xidmət etdiyini göstərir.

Agentliyin hesabatında diqqətçəkən məqamlardan biri də Azərbaycanın xarici maliyyə mövqeyinin möhkəmliyinə verilən yüksək qiymətdir. Bu mənada "Fitch Ratings"in proqnozlarına görə, ölkənin xalis suveren xarici aktivləri yaxın illərdə ÜDM-in 73 faizi səviyyəsinə çatacaq. Bu da Azərbaycanın BBB reytinq kateqoriyasına daxil olan dövlətlər arasında ən yüksək göstəricilərdən birinə sahib olacağı deməkdir. Təsadüfi deyil ki, maliyyə naziri Sahil Babayev Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "2025-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib ki, ötən il büdcədə qeyri-neft-qaz gəlirlərinin payı 55,2 faizə çatıb: "Bu, 2024-cü illə müqayisədə 2,8 faiz bəndi çoxdur və 2029-cu ilə bizim hədəfimiz 69-70 faizə çatmaqdır. İcmal büdcənin qeyri-neft-qaz gəlirlərinin qeyri-neft-qaz ÜDM-nə nisbəti 28,7 faizə çatıb və icmal büdcənin qeyri-neft-qaz baza kəsiri qeyri-neft-qaz ÜDM-in cəmi 18,6 faizinə bərabər olub. Bu da çox önəmli bir göstəricidir. Bizim büdcəmiz bütün ölkələrdə olduğu kimi, kəsirlə proqnozlaşdırılır və bizim kəsrimiz adətən ümumi büdcə seqmentində proqnoz olaraq 2,2-2,5 faiz ətrafında olur".

Nazir həmçinin bildirib ki, dövlət büdcəsi ilə bağlı ikinci göstərici də müəyyən edilib: "Bu, qeyri-neft baza kəsiridir, yəni büdcənin qeyri-neft-qaz gəlirlərinin qeyri-neft-qaz xərclərinə nisbətdə göstəricisidir. Qeyri-neft-qaz baza kəsirinin davamlı olaraq azaldılmasına çalışırıq. Düşünürük ki, bu rəqəmin aşağı düşməsi Azərbaycan dövlət büdcəsinin makroiqtisadi, fiskal çərçivələrinin sağlamlaşması üçün daha da sağlam, daha da dayanıqlı olması üçün çox önəmli göstəricidir və keçən ilin icrasında bu göstərici ÜDM-in cəmi 18,6 faizinə bərabər olub. Hədəf göstəricisi 22 faiz idi. Hədəf göstəricidən 3,5 faiz bəndi daha aşağı nəticə əldə etmişik. Əlbəttə, növbəti dövrdə bu rəqəmin daha da aşağı salınması planlaşdırılır. Təsdiq olunmuş ortamüddətli xərclər çərçivəsində 2029-cu ilə bu rəqəmin 13 faizə qədər azaldılmasını planlaşdırırıq".

Agentliyin proqnozlarına əsasən, enerji daşıyıcılarının dünya bazarlarında yüksək qiymətlərinin qorunub saxlanılması və idxalın nisbətən məhdud artımı Azərbaycanın xarici ticarət balansına da müsbət təsir göstərəcək. Nəticədə tədiyə balansının cari əməliyyatlar hesabı üzrə profisitin 2026-cı ildə ÜDM-in 9 faizinə yüksələcəyi gözlənilir. Halbuki bu göstərici 2025-ci ildə 4,6 faiz səviyyəsində qiymətləndirilirdi. "Fitch Ratings" in ekspertləri hesab edirlər ki, 2027-ci ildə neft və qaz qiymətlərində müəyyən enmə tendensiyası müşahidə olunsa belə Azərbaycanın cari əməliyyatlar hesabı üzrə profisiti eyni reytinq qrupuna daxil olan ölkələrin orta göstəricilərini üstələməyə davam edəcək. Bu isə öz növbəsində ölkənin valyuta ehtiyatlarının artımına, makroiqtisadi sabitliyin möhkəmlənməsinə və maliyyə dayanıqlılığının qorunmasına əlavə dəstək verəcək.

Hesabatda büdcə idarəçiliyi sahəsində aparılan islahatlar da yüksək qiymətləndirilir. Qeyd olunur ki, 2027-2030-cu illəri əhatə edən strategiya çərçivəsində qeyri-neft büdcə kəsirinin mərhələli şəkildə azaldılması fiskal dayanıqlığın güclənməsinə xidmət edəcək. Agentliyin fikrincə, büdcə qaydalarının təkmilləşdirilməsi və Dövlət Neft Fondundan transferlərin tədricən azaldılması maliyyə siyasətinin daha sabit və proqnozlaşdırılan olmasına, eyni zamanda ölkənin xarici aktivlərinin artmasına əlavə dəstək verəcək.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan qlobal iqtisadi çağırışların davam etdiyi bir şəraitdə də öz maliyyə dayanıqlılığını qoruyub saxlamağı bacarır. Beynəlxalq reytinq agentliklərinin müsbət qiymətləndirmələri ölkədə həyata keçirilən iqtisadi siyasətin düzgün istiqamətdə olduğunu göstərməklə yanaşı, gələcək inkişaf perspektivlərinə olan inamı da gücləndirir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Qazaxıstan və Azərbaycan maliyyə nəzarəti üzrə təcrübə mübadiləsi aparıb

**Qazaxıstan Maliyyə Bazarının Tənzimlənməsi və İnkişafı Agentliyinin sədri Mədinə Abılkasımova Azərbaycan Mərkəzi Bankı İdarə Heyətinin sədr müavini Toğrul Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC Qazaxıstan Maliyyə Bazarının Tənzimlənməsi və İnkişafı Agentliyinə istinadla xəbər verir ki, tərəflər riskəsaslı nəzarətin təkmilləşdirilməsi, nəzarət fəaliyyətinə müasir analitik alətlərin və rəqəmsal həllərin tətbiqi məsələlərini müzakirə ediblər. Onlar həmçinin maliyyə institutlarının dayanıqlığının qiymətləndirilməsi sahəsində təcrübə mübadiləsi aparıblar.

Bundan əlavə, görüş iştirakçıları istehlak kreditlərinin, o cümlədən faiz dərəcəsinin tənzimlənməsi və borc-kapital nisbətinin hesablanması üzrə təcrübə mübadiləsi aparıblar.

Səfər çərçivəsində Azərbaycan Mərkəzi Bankının nümayəndələrinin agentliyin riskəsaslı nəzarətə yanaşmalarına, Nəzarət Baxışı və Yoxlama Prosesinin (SREP) tətbiqinə, habelə çirkli pulların yuyulması, terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə ilə bağlı məsələlərə həsr olunmuş bir sıra ekspert sessiyalarında iştirakı planlaşdırılır.

Bankların daxili kapitalının və likvidlik adekvatlığının qiymətləndirilməsinə, nəzarət fəaliyyətində "SupTech" texnologiyalarından və süni intellektdən istifadəyə, risklərin idarə edilməsi modelinə xüsusi diqqət yetiriləcək.

Görüşdən sonra tərəflər maliyyə sektorunun tənzimlənməsi və nəzarətinin cari məsələləri üzrə əməkdaşlığı daha da inkişaf etdirməkdə və təcrübə mübadiləsi aparmaqda maraqlı olduqlarını təsdiqləyiblər.

## EPIC son illər ölkəmizdə əmək qanunvericiliyi ilə bağlı aparılan islahatlara dair məlumat dərc edib

**Bərabər Əməkhaqqı üzrə Beynəlxalq Koalisiyanın (EPIC) rəsmi saytında son illər Azərbaycanda əmək qanunvericiliyinin beynəlxalq standartlara uyğun şəkildə təkmilləşdirilməsi, əmək münasibətlərində gender bərabərliyinin dolğun təminatı üçün aparılan islahatlara dair məlumat dərc edilib.**

Məlumatda cinsindən asılı olmayaraq eyni və ya bərabər dəyərli müxtəlif işi yerinə yetirən işçilərə bərabər əməkhaqqı ödənilməsi ilə bağlı son vaxtlar milli qanunvericilikdə edilmiş dəyişiklik xüsusi vurğulanır. Bu addımın gender əsaslı bərabərsizliklərin azaldılmasına töhfə verməklə yanaşı, həm də inklüziv iqtisadi artımı dəstəklədiyi, ədalətli və şəffaf əməkhaqqı təyin edilməsi təcrübəsini təşviq etdiyi qeyd olunur.

Eyni zamanda qadınların əmək bazarında iştirakının dəstəklənməsi, onların məşğulluq imkanlarının artırılması üçün son illər ölkəmizdə görülən işlər yüksək qiymətləndirilir. Qadın əməyi ilə bağlı qanunvericilik islahatları nəticəsində Azərbaycanın Dünya Bankının "Qadın, Biznes və Hüquq" üzrə 2024-cü il hesabat-reytinqdə öz indeksini 78,8-dən 85-ə yüksəltdiyi bildirilir. Qeyd edilir ki, Dünya Bankının 2026-cı il üzrə hesabat-reytinqində də ölkənin bu islahatlarının gender əsaslı ayrı-seçkiliyin aradan qaldırılması sahəsində ən yaxşı təcrübələrdən biri olduğu əksini tapıb.

Beynəlxalq Əmək Təşkilatı və BMT-nin Qadınlar Təşkilatı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının rəhbərlik etdiyi, Azərbaycan da daxil olmaqla 80-dək ölkənin üzv olduğu EPIC qadınlar və kişilər arasında bərabər əməkhaqqı ödənişi prinsipini qlobal səviyyədə təbliğ və təşviq edir, bu sahədə hökumətlərə və müvafiq təşkilatlara ekspertiza dəstəyi göstərir.

## Ötən ay Çağrı Mərkəzinə 38,7 mindən çox müraciət daxil olub

**Cari ilin may ayında İqtisadiyyat Nazirliyinin 195-1 Çağrı Mərkəzinə 39 minə yaxın müraciət daxil olub.**

İqtisadiyyat Nazirliyinin 195-1 Çağrı Mərkəzinə 2026-ci ilin may ayı ərzində 34 251 canlı rejimdə, qalanları isə səsli menyu xidməti vasitəsilə olmaqla ümumilikdə 38 742 müraciət olub.

Müraciətlər əsasən sahibkarlıq fəaliyyəti, lisenziyaların verilməsi, vergilərin ödənilməsi, vergi ödəyicisinin hüquq və vəzifələri, daşınmaz əmlakın dövlət qeydiyyatına alınması, dövlət əmlakının özəlləşdirilməsi, həmçinin İqtisadiyyat Nazirliyinin səlahiyyətlərinə və fəaliyyət istiqamətlərinə dair digər məsələləri əhatə edib.

Daxil olan müraciətlərin əksər hissəsi cavablandırılıb, araşdırma tələb edən müraciətlər üzrə nazirliyin aidiyyəti strukturları tərəfindən müvafiq tədbirlər görülüb.

Vətəndaşların İqtisadiyyat Nazirliyinə və qurumlarına müraciətinin daha da asanlaşdırılması və vətəndaş məmnunluğunun yüksəldilməsi məqsədilə yaradılmış 195-1 Çağrı Mərkəzinə ölkənin istənilən regionundan stasionar telefonla birbaşa zəng etmək mümkündür. Göstərilən xidmətlər ödənişsizdir. 195-1 Çağrı Mərkəzi canlı rejimdə, qanunvericiliklə nəzərdə tutulmuş rəsmi iş günlərində fasiləsiz olaraq saat 9.00-dan 18.00-dək fəaliyyət göstərir.

# Tərəfdaşlarımız

## Möhtəşəm layihələrin sınağından keçmiş "Türkiye Petrolleri"

**Bu şirkətin adı "Türkiye Petrolleri Anonim Ortaklığı"dır. Çox zaman onu qısaca TPAO, yaxud "Türkiye Petrolleri" adlandırırlar. 72 yaşlı TPAO Azərbaycanda həyata keçirilən qlobal neft, qaz və ixrac layihələrində ən yaxın təfəfdaşlarımızdandır.**

"Türkiye Petrolleri" 1954-cü ildə milli şirkət olaraq Türkiyədə karbohidrogen kəşfiyyatı, qazma, hasilat, neft və qazın emalı, eləcə də marketinq fəaliyyətlərində iştirak etmək məqsədilə yaradılıb. 1983-cü ilə qədər inteqrasiya olunmuş neft şirkəti kimi bu sahələrin hər birində ilklərə imza atıb. Bu gün isə sırf upstream (kəşfiyyat, qazma, quyuların tamamlanması və hasilat) sektorunda iştirak edən milli neft şirkətidir. Ölkə iqtisadiyyatının mühüm aktoru olan TPAO ötən onilliklər ərzində Türkiyə neft sənayesinə bir çox uğur qazandırıb.

Hazırda "Türkiye Petrolleri" öz ölkəsi ilə yanaşı, Azərbaycan, İraq, Liviya, Pakistan, Somali və digər ölkələrdə fəaliyyət göstərən geniş beynəlxalq layihələr portfeli ilə neft və qaz yataqlarının kəşfiyyatı, hasilatı, qazma işləri, eləcə də enerji layihələrinin idarə olunması ilə məşğuldur. Bu şirkət Azərbaycana 1994-cü ildə gəlib. Yəni burada "Əsrin müqaviləsi" imzalanan vaxtdan fəaliyyət göstərir. Bu isə o deməkdir ki, ötən 32 il ərzində Azərbaycanın dünyaya səs salan möhtəşəm layihələri həyata keçirilərkən TPAO bizimlə olub və onların reallaşmasında öz zəhmət, səriştə və təcrübəsini sərf edib. Belə ki, o, "Azəri-Çıraq-Günəşli" (AÇG), Bakı-Tbilisi-Ceyhan (BTC), "Şahdəniz", Cənubi Qafqaz Boru Kəməri (CQBK) və "Şəfəq-Asiman" layihələrində dünyanın bir sıra tanınmış şirkətləri ilə yanaşı tərəfdaşlıq edir və həmin layihələrin hər birində sanballı iştirak payına malikdir.

"Əsrin müqaviləsi" adını almış AÇG-nin tammiqyaslı işlənməsi layihəsinə TPAO bu barədə möhtəşəm sazişin imzalandığı gündən - 1994-cü il sentyabrın 20-dən qoşulub. Ötən müddət ərzində TPAO "Azəri-Çıraq-Günəşli" ilə birgə addımlayaraq onu uğurdan uğura aparan şirkətlərdən biri olub. Bu gün layihədə 5,73 faiz iştirak payına malikdir.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri layihəsində isə TPAO-nun iştirak payı 6,53 faiz təşkil edir. Şirkət bu layihəyə kəmərin tikintisi mərhələsində qoşulub. Rəsmi olaraq 2003-cü ildə layihədə yer alıb.

"Türkiye Petrolleri" eləcə də dünyanın ən nəhəng karbohidrogen yataqlarından olan "Şahdəniz"in tərəfdaşları sırasındadır. Bu qaz-kondensat yatağının işlənməsi layihəsinə ilk dəfə 1996-cı ildə - Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) imzalandıqda qoşulub. Lakin şirkətin ilkin payı 9 faiz təşkil edib, 2014-cü ilin mayından isə bu göstərici 19 faizə çatdırılıb.




TPAO Cənubi Qafqaz Boru Kəməri layihəsinə də rəsmi olaraq həmin vaxt - 2014-cü ilin may ayında qoşulub və hazırda CQBK-da 19 faizlik iştirak payı var.

Şirkətin SOCAR və BP ilə tərəfdaşlığı uğurla davam edir. Keçən il iyunun 3-də "Bakı Enerji Həftəsi" çərçivəsində TPAO şirkətinin "Xəzər dənizinin Azərbaycan sektorundakı" Şəfəq-Asiman" perspektiv strukturunun birgə geoloji-kəşfiyyatı və işlənməsi üzrə hasilatın pay bölgüsü haqqında Saziş"ə qoşulmasına dair sənədlər imzalandı.

SOCAR, BP və TPAO arasında imzalanan bu sənəd layihəni irəli aparan ən uyğun variantın müəyyənləşdirilməsi üçün blokun bundan sonrakı qiymətləndirilməsini sürətləndirməyə kömək edəcək. Qeyd edək ki, "Şəfəq-Asiman" dəniz bloku Bakıdan təxminən 125 kilometr cənub-şərqdə, suyun dərinliyinin 650-800 metr olduğu bir ərazidə yerləşir. Bu blok "Şahdəniz"dən 60 kilometr aralıdadır. Səngəçal terminalından isə "Şəfəq-Asiman"ı 145 kilometrlik məsafə ayırır.

Xatırladaq ki, BP ilə SOCAR arasında "Şəfəq-Asiman" dəniz blokunun birgə kəşfiyyatı və işlənməsi üzrə HPBS 2010-cu ilin oktyabr ayında Bakıda imzalanıb. 2012-ci ildə müqavilə sahəsində üçölçülü seysmik məlumatların toplanması proqramı həyata keçirilib. Əldə olunmuş seysmik məlumatların interpretasiyası isə 2015-ci ildə başa çatıb. Bundan sonra kəşfiyyat quyusunun qazılacağı yer seçilib və qazma işlərinin planlaşdırılması aparılıb.

Nəticədə 2020-ci ilin yanvarında SAX01 kəşfiyyat quyusunun qazılmasına başlanıb və bu iş 2021-ci ilin martında sona çatıb. Həmin quyu 7189 metr dərinliyə çatmaqla Fasilə lay dəstinin əsasınadək qazılıb və keçilən laylarda qaz-kondensat ehtiyatlarının mövcudluğunu təsdiqləyib. Daha sonra quyu əlavə qiymətləndirmə işlərinin aparılması və növbəti fəaliyyətlərin planlaşdırılması üçün bağlanıb.

"Şəfəq-Asiman"da layihəni irəli aparacaq ən uyğun variantın müəyyənləşdirilməsi üçün blokun əlavə qiymətləndirilməsi tələb olunur. Bu məqsədlə hazırda Aşağı Suraxanı layına bir quyunun qazılması da daxil olmaqla gələcək fəaliyyətlərin planlaşdırılması üzrə işlər aparılır. "Şəfəq-Asiman"da iştirak payları belədir: BP (operator - 35 faiz), SOCAR (35 faiz) və TPAO (30 faiz).

SOCAR-ın prezidenti Rövşən Nəcəf bu layihədəki üçtərəfli tərəfdaşlıq haqqında belə deyib: " TPAO-nun "Şəfəq-Asiman" tərəfdaşlığına qoşulmasından çox məmnunuq. Bu strateji əməkdaşlıq Azərbaycanın dəniz ehtiyatlarının qiymətləndirilməsi və mümkün işlənməsini irəli aparmaq üçün regional tərəfdaşlıqların əhəmiyyətini bir daha vurğulayır. BP və TPAO ilə birlikdə məqsədimiz qiymətləndirmə prosesini sürətləndirməklə nəticədə enerji təhlükəsizliyini artırmaq və bütün maraqlı tərəflərə əlavə dəyər gətirməkdir".

Bu əməkdaşlıq SOCAR-ın geniş yerli təcrübəsini, BP-nin qabaqcıl texnologiyasını və TPAO-nun dəniz sahəsindəki təcrübəsini bir araya gətirir. Məqsəd Xəzər dənizindəki bu perspektivli strukturun tam potensialını birlikdə üzə çıxarmaqdır.

Azərbaycan-Türkiyə enerji əməkdaşlığı çərçivəsində qazanılan uğurlarda TPAO-nun iştirakçısı olduğu layihələrin adı cari ayın əvvəlində keçirilmiş "Bakı Enerji Həftəsi"ndə də vurğulanıb.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# REGİONLAR

## Qazaxlı fermerlər biçinə hazırdırlar

**Mayın 25-də Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirənin keçirilməsi, həmçinin "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi və bundan irəli gələn bəzi məsələlərin tənzimlənməsi haqqında dövlət başçısının müvafiq sərəncamı bir daha onu söyləməyə əsas verir ki, ölkəmizdə kənd təsərrüfatının inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.**

Bütün bunlar barədə Qazax Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə ətraflı söhbət getmiş, dövlət proqramının icrasından irəli gələn vəzifələr ətraflı müzakirə edilmişdir. Müşavirədə rayon üzrə istehsal olunan məhsulların həcminin artırılması, sahibkarlara göstərilən dövlət qayğısı, taxıl biçininə hazırlıq işlərinin vəziyyəti, biçinin vaxtında və itkisiz başa çatdırılması, bu zaman yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunması, mövsümi suvarmanın təmin edilməsi ətraflında müzakirələr aparılmışdır.

Müşavirədə rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək dövlət başçısının sədrliyi ilə keçirilən müşavirədə kənd təsərrüfatının inkişafı ilə bağlı səslənən fikirlərin, qarşıya qoyulan məqsədlərin hər kəs üçün fəaliyyət proqramı olduğunu qeyd etmiş, kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən islahatların qısa müddətdə müsbət nəticələr verəcəyini diqqətə çatdırmışdır. Bildirmişdir ki, dövlət tərəfindən sahibkarlara, kəndli fermer təsərrüfatlarına verilən dəstək ölkə iqtisadiyyatında böyük pay sahibi olan kənd təsərrüfatının inkişafına təsirsiz qalmayacaq. Müşavirədə kənd təsərrüfatının neft sənayesi və tikinti sektorundan sonra ölkə iqtisadiyyatında üçüncü böyük sahə olduğu qeyd edilərək aqrar sektorun həm də işsizliyin aradan qaldırılmasında və əhalinin sosial vəziyyətinin yaxşılaşmasında mühüm rol oynadığı diqqətə çatdırılmışdır.



Qeyd edilmişdir ki, respublikamızın hər yerində olduğu kimi, Qazax rayonunda da kənd təsərrüfatına böyük diqqət və qayğı göstərilir. Bunun nəticəsində əkin sahələri son illər bir neçə dəfə artmış, məhsuldarlıq xeyli yüksəlmişdir. Məhsuldarlığın artırılmasında başlıca səbəblərdən biri kimi bitkilərin vaxtlı-vaxtında suvarma suyu ilə təmin olunması qeyd edilmişdir. Bu sahənin daim diqqət mərkəzində saxlanması və hər il rayonda olan suvarma arx və kanalların təmir olunması və təmizlənməsi istiqamətində görülən işlərin sayəsində təsərrüfatların su problemi minimuma enmişdir. Bunun bir səbəbi də əkin sahələrinin suvarılmasında subartezian quyularından səmərəli istifadə olunmasıdır. Yeri gəlmişkən qeyd edək ki, rayonda hazırda 214 subartezian quyusu istismar edilir. Həmçinin sudan qənaətlə istifadə olunması diqqət mərkəzində saxlanılır. Bunun üçün cari ildə kəndlərdə gecə və gündüz tərtib olunmuş növbəlilik cədvəli tərtib edilərək həyata keçirilir.

Sonda bildirək ki, 2026-cı ilin məhsulu üçün rayon üzrə 6950 hektarda arpa, 4782,8 hektarda buğda olmaqla 11732,8 hektarda taxıl səpini aparılmışdır. Taxıl biçininə hazırlıq çərçivəsində 28 kombayn saz vəziyyətə gətirilmişdir. 30 kombaynın isə digər rayonlardan dislokasiya olunacağı planlaşdırılmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Gəncədəki süni göl əsaslı təmirdən sonra istifadəyə verilib

**Gəncənin Heydər Əliyev Park-Xiyaban Kompleksinin ərazisində yerləşən süni göl əsaslı təmirdən sonra istifadəyə verilmişdir. Bununla əlaqədar Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov süni göldə aparılan işlərlə tanış olmuşdur.**



Parkın direktoru İlyas Məmmədov şəhər rəhbərinə göldə aparılan təmir-bərpa işləri barədə ətraflı məlumat verərək bildirmişdir ki, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində fəaliyyət göstərən "Regional Su Meliorasiya" QSC-nin sifarişi ilə göldə təmir-bərpa işləri aparılmış, layihə çərçivəsində 380 metr uzunluğunda suötürücü boru xətti çəkilmiş, 6 hektar əraziyə malik süni gölün yamacları beton tavalarla üzlənmiş, ətrafı dəmir məhəccərlərlə əhatələnmişdir.

Qeyd edək ki, süni göl 2023-cü ilin yaz aylarında qonşu rayonların ərazisindən gələn sel suları nəticəsində daşaraq ətraf yaşayış məntəqələri üçün təhlükə yaratmışdı. Bundan sonra aidiyyəti qurumlar tərəfindən gölün suyu tamamilə boşaldılmış, dibi lil və palçıqdan təmizlənərək bərpa işlərinə başlanılmışdır.

***"Azərbaycan"***

## Azərbaycan pəhləvanlıq məktəbinin qədim tarixi var

**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi, Neftçala Rayon İcra Hakimiyyəti və "El Pəhləvanları" İdman Klubu İctimai Birliyinin birgə təşkilatçılığı ilə Neftçala Bayraq Meydanında "Qəhrəman irsi: pəhləvanlıqdan gələcəyə" layihəsi çərçivəsində tədbir keçirilib.**

Çıxış edənlər Azərbaycanda pəhləvanlıq məktəbinin qədim tarixini və onun milli adət-ənənələrlə sıx bağlılığını vurğulayıblar. Qeyd olunub ki, bu qədim sənət xalqımızın qəhrəmanlıq simvolu və mənəvi irsi olduğundan onun qorunması gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində böyük əhəmiyyəti var. Eyni zamanda dövlətin milli-mənəvi dəyərlərə göstərdiyi diqqət fonunda bu cür layihələrin gənclər arasında sağlam həyat tərzinin və milli idman növlərinin populyarlaşdırılmasına güclü təkan verdiyi diqqətə çatdırılıb.

Sonra layihənin rəhbəri, tanınmış pəhləvan Nurəddin Hüseynov (Beyləqanlı) çıxış edərək layihə haqqında ətraflı məlumat verib və əsas məqsədin Azərbaycan el pəhləvanlığı irsinin qorunması, milli dəyərləin təbliği və bu qədim ənənələrin gələcək nəsillərə uğurla ötürülməsindən ibarət olduğunu bildirib.

Rəsmi çıxışlardan sonra tədbirin bədii-idman hissəsi başlanılıb. Nurəddin Beyləqanlının rəhbərliyi ilə el pəhləvanları tərəfindən ağır çəkili daşların qaldırılması, dəmir zəncirlərin qırılması və digər pəhləvanlıq nümunələri nümayiş olunub.

Milli idman növünə gənclərin və uşaqların marağını artırmaq məqsədilə tədbirdə azyaşlıların da çıxışlarına şərait yaradılıb.

***"Azərbaycan"***

## Peşə məktəbinin 154 məzunu işlə təmin olunacaq

**Neftçala Peşə Məktəbi PHŞ-də gənclərin məşğulluğunun artırılması, peşə təhsili ilə əmək bazarı arasında əlaqələrin möhkəmləndirilməsi və işəgötürənlərlə əməkdaşlığın genişləndirilməsi məqsədilə peşə yarmarkası keçirilib.**



Rayon icra hakimiyyəti, Şirvan-Salyan Regional Məşğulluq filialının Neftçala rayon xidmət şöbəsi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Neftçala-Salyan KOB İnkişaf Mərkəzi, "IODICO" MMC, "Neftechala Operating Company LTD", Neftçala Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi, "Azerbaijan Fish Farm", "Xıllı Balıq" MMC, Neftçala Sənaye Məhəlləsi və rezidentləri, "Azərişıq" ASC, "Azəriqaz" İB, "Aztelekom" MMC, Dövlət Sosial Müdafiə Fondunun Neftçala rayon şöbəsi və digər dövlət qurumları, müəssisə və təşkilatların nümayəndələrinin iştirak etdikləri tədbir çərçivəsində qonaqlar məktəbin tədris infrastrukturu, müasir emalatxana və laboratoriyaları, tələbələrin hazırladıqları əl işləri və praktik fəaliyyət nümunələri ilə yaxından tanış olublar. Həmçinin təşkil olunan infotur zamanı iştirakçılara peşə təhsilinin üstünlükləri, dual təhsil modeli, istehsalat təcrübələrinin əhəmiyyəti və əmək bazarına inteqrasiya imkanları barədə ətraflı məlumat təqdim edilib.

Yarmarkada 50-dən çox işəgötürən müəssisə və təşkilatın nümayəndəsi iştirak edib. Tədbir çərçivəsində 294 məzun işəgötürənlərə təqdim olunub. Keçirilən görüşlər və ilkin müsahibələr nəticəsində 154 məzunun işlə təmin olunması istiqamətində razılıq əldə edilib, 32 nəfər isə özünüməşğulluq proqramına cəlb olunub.

Peşə təhsilinin imkanlarının nümayiş etdirilməsi, işəgötürənlərlə məzunlar arasında birbaşa əlaqələrin qurulması və gənclərin əmək bazarına inteqrasiyasının dəstəklənməsi baxımından mühüm əhəmiyyət daşıyan bu cür təşəbbüslər regionda məşğulluğun artırılmasına və insan kapitalının inkişafına mühüm töhfə verir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Kəndin içməli su problemi həll edilib

**Tovuzun Cəlilli kəndinin sakinləri uzun illər idi ki, içməli su sarıdan əziyyət çəkirdilər. Bu günlər həmin problem həll edilmişdir. Kənddə mərkəzləşdirilmiş su təchizatı sistemi yaradılaraq əhalinin içməli suya olan tələbatı ödənilmişdir.**

Bunun üçün şəhərin mövcud su təchizatı sisteminin imkanlarından istifadə edilməklə 8 kilometr uzunluğunda yeni su xətti çəkilmiş və kəndin müxtəlif yerlərində 27 ictimai bulaq yaradılmışdır. Hazırda Cəlilli kəndində 2275 nəfər yaşayır. Yeni yaradılmış su təchizatı şəbəkəsi vasitəsilə yaşayış məntəqəsinin gündəlik 180 kubmetr su tələbatının tam ödənilməsi mümkün olmuşdur.

Qeyd edək ki, Tovuz şəhərinin mövcud su təchizatı sistemi Zəyəmçay çayının məcrasında yerləşən üfüqi suqəbuledici qurğu və Tovuzçay su anbarı ərazisində yerləşən 6 subartezian quyusu vasitəsilə təmin olunur. Şəhərin ümumi abonent sayı 6982-dir. Ümumi su şəbəkəsinin uzunluğu 186, magistral su kəmərinin uzunluğu 39, kanalizasiya şəbəkəsinin uzunluğu 137 kilometrdir.

***"Azərbaycan"***




## İşğaldan azad olunmuş ərazilərdə məskunlaşan sakinlərlə sahə görüşləri davam edir

**Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi (AXA) tərəfindən işğaldan azad olunmuş ərazilərdə məskunlaşan sakinlərlə sahə görüşləri davam etdirilir. Növbəti görüşlər Laçın rayonunun Zabux kəndində, Zəngilan rayonunun Ağalı kəndində, Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində, eləcə də Xocalı rayonunun Ballıca və Xanyurdu kəndlərində baş tutub.**



Sahə görüşlərinin əsas məqsədi sakinlərin kənd təsərrüfatı fəaliyyəti üzrə mövcud vəziyyətini hərtərəfli öyrənmək, onların cari təsərrüfat işlərində praktiki bacarıqlarını artırmaq və bu sahədə ehtiyaclarını müəyyənləşdirmək olub. Həmçinin təsərrüfatların daha səmərəli idarə olunması, məhsuldarlığın artırılması və müvafiq istiqamətlər üzrə peşəkar məsləhətlərin təqdim edilməsi nəzərdə tutulub.

Təsərrüfat sahibləri ilə görüşlərdə onların fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılıb. AXA-nın mütəxəssisləri tərəfindən əkin sahələrinin vəziyyəti qiymətləndirilib, torpağın becərilməsi, bitkilərin mühafizəsi, gübrələmə tədbirləri və məhsuldarlığın artırılması ilə bağlı tövsiyələr verilib. Eyni zamanda sakinlərə torpaq analizlərinin aparılmasının əhəmiyyəti barədə ətraflı məlumat təqdim olunub. Bildirilib ki, torpağın münbitlik göstəricilərinin müəyyənləşdirilməsi düzgün gübrələmə proqramının hazırlanmasına, resurslardan səmərəli istifadəyə və nəticə etibarilə daha yüksək məhsuldarlığın əldə olunmasına imkan yaradır.

Proqram çərçivəsində heyvandarlıq təsərrüfatlarına da baxış keçirilib. Baytar həkimlər tərəfindən saxlanılan heyvanların ümumi sağlamlıq vəziyyəti qiymətləndirilib, yemləmə qaydaları, profilaktik tədbirlərin vaxtında həyata keçirilməsi, peyvəndləmə və müxtəlif xəstəliklərdən qorunma üsulları barədə sakinlərə ətraflı məlumat verilib.

***Lazım QULİYEV,,***
***"Azərbaycan"***

## Naftalanda sağlamlıq turizminin inkişaf perspektivləri müzakirə olunub

**Naftalanda Dövlət Turizm Agentliyinin təşkilatçılığı, şəhər icra hakimiyyətinin dəstəyi ilə Sağlamlıq Turizmi üzrə İşçi Qrupunun növbəti yığıncağı keçirilmişdir.**

Yığıncaqdan əvvəl Naftalan şəhərində fəaliyyət göstərən sağlamlıq turizmi müəssisələrinə baxış olmuşdur. İştirakçılara Naftalan Turizm İnformasiya Mərkəzində şəhərdə turistlərin məlumatlandırılması istiqamətində həyata keçirilən işlər barədə məlumat verilmişdir. Sonra Naftalandakı neft quyularına infotur təşkil edilmiş, iştirakçılar unikal müalicəvi xüsusiyyətlərə malik Naftalan neftinin hasilatı prosesi ilə yerində tanış olmuşlar. Naftalan şəhərində fəaliyyət göstərən sağlamlıq turizmi müəssisələrinə baxış təşkil edilmişdir. İştirakçılara müəssisələrin fəaliyyəti, müalicə və reabilitasiya xidmətləri, eləcə də yerləşdirmə infrastrukturu barədə ətraflı məlumat verilmişdir.

Tədbir çərçivəsində keçirilən geniştərkibli yığıncaqda sağlamlıq turizminin inkişafı istiqamətində aktual məsələlər müzakirə edilmişdir. Müzakirə zamanı Naftalanda sağlamlıq turizminin mövcud vəziyyəti və inkişaf perspektivləri, sanatoriya-kurort müəssisələrinin fəaliyyəti, xidmət keyfiyyətinin artırılması və kadr hazırlığı məsələləri ətrafında fikir mübadiləsi aparılmış, eləcə də şəhərdə fəaliyyət göstərən hotel, sanatoriya və müalicə-sağlamlıq müəssisələrinin rəhbərləri dinlənilərək onların sağlamlıq turizminin inkişafı, xidmət keyfiyyətinin yüksəldilməsi, kadr hazırlığı və gələcək əməkdaşlıq imkanları ilə bağlı təklifləri dinlənilmişdir.




***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***




Qanlı tarix

**1937-ci ilin qarşısıalınmaz güclü ölüm və sürgün dalğası peşəsindən, sənətindən asılı olmayaraq, tanınmış, istedadlı adamların hamısını tikanlı, qan qoxulu qoynuna aldı. Heç bir günahı olmayan, amma adı repressiya siyahısına düşən kimsəyə aman verilmədi, heç kim bağışlanmadı. Hamıya qarşı uydurma, saxta ittihamlarla cinayət işi açıldı. Həbs olunanlar ya ağır işgəncələr verilə-verilə öldürüldü, ya da geriyə dönüşü olmayan gedər-gəlməz yerlərə sürgün olundu.**



# Mahnıları onu həmişə yaşadacaq

Musiqi tariximizdə öz yeri olan Əməkdar artist Cahan Talışinskaya da 1937-ci ilin repressiya qurbanlarından biri kimi əzablarla dolu bir ömür yaşayıb. Öyrəndik ki, o, 9 fevral 1909-cu ildə Lənkəran şəhərində anadan olub. Doqquz yaşına çatanda, 1918-ci ildə ailəsi Bakı şəhərinə köçüb. Onun gələcək həyatının yeni mərhələsi bu şəhərdə başlayıb. Cahan Talışinskaya böyük bacısı Bilqeyis xanımın evində yaşamalı olub. Bilqeyis xanım "Yeni yol" qəzetinin baş redaktoru Rzaqulu Nəcəfovun həyat yoldaşı idi.

Hələ kiçik yaşlarından gələcəyin tanınmış müğənnisi olacaq Cahan xanımın güclü musiqi duyumu var idi. Bacısının evində müxtəlif musiqi alətlərinin olması onun istedadının parlaması üçün göydəndüşmə bir imkan olmuşdu. O, gün ərzində pianoda, tarda müxtəlif musiqilər ifa edir, vaxtını səmərəli keçirirmiş. Gündən-günə musiqiyə olan maraq və həvəsi daha da artırmış.

Bakıya gəldikdən bir müddət sonra Cahan Talışinskaya təhsil almaq üçün Azərbaycan Qızlar Seminariyasında oxumağa başlayır. Zaman keçdikcə düşdüyü şəhər mühiti onun həyata, dünyaya baxışını dəyişir. Gənc qız təhsil almaqla yanaşı, Əli Bayramov klubundakı bədii özfəaliyyət dərnəyinə də gedir. Həyat yavaş-yavaş onun üzünə gülür. Bir-birinin ardınca uğur qazanır. 1927-ci ildə Cahan Talışinskaya Bakı şəhərinin radio şəbəkəsində işə qəbul edilir. Elə həmin il də ailə həyatı qurur. 1928-ci ildə oğul övladı dünyaya göz açır. Körpənin adını Nazim qoyurlar. Amma onun ailə həyatı uzun çəkmir. Övladı doğulan kimi Cahan xanım həyat yoldaşı Məmməd Hacıbəyovdan ayrılır.

Ömrünün gənclik illərini yaşayan Cahan xanım tez-tez konsertlərə dəvət olunur, məlahətli səsi və bənzərsiz ifaları ilə tamaşaçıları heyran edır. Azərbaycanın bölgələrinə qastrol səfərlərinə də çıxır. Hərbi hissə və birləşmələrdə əsgər və zabitlər qarşısında çıxış edir.

Getdikcə püxtələşən və təcrübəsi artan Cahan Talışinskaya Azərbaycan xalq mahnılarının və muğamlarının gözəl ifaçılarından biri olur. Görkəmli müğənni ilə eyni dövrdə yaşayıb-yaratmış musiqiçilərin sözlərinə görə, Cahan xanımın ifa etdiyi "Şahnaz", "Segah", "Bayatı-Şiraz", həmçinin "Qarabağ şikəstəsi" muğamları özünəməxsusluğu ilə seçilir və sevilir. İndi hamımızı sehirləyən "Qatar" muğamı Cahan xanımın şah əsərinə çevrilir. Bu muğam onun ifasında çox möhtəşəm səslənir.

Zaman keçdikcə Cahan Talışinskayanın şöhrəti hər tərəfə yayılır. 30-cu illərin əvvəlində Əfqanıstan şahı Əmənulla xan Bakıya səfərə gəlir. Şahın şərəfinə ziyafət verilir. Sonra konsert proqramı başlayır. Mötəbər qonağın şərəfinə proqrama Cahan xanımın da ifası salınır. Onun məlahətli səsi şahın da, onun həyat yoldaşının da ürəyini, qəlbini oxşayır. Bundan məmnun olan şahın xanımı qızıl qol saatını Cahan xanıma hədiyyə edir. Bununla da onun ömrünün narahatlıqla dolu günləri başlayır. Konsertdən aldığı xoş təəssüratın istisi, qızıl qol saatının sevincinin hərarəti soyumamış, elə ertəsi gün Cahan xanımı NKVD-yə çağırırlar. Şahın xanımının hədiyyə kimi verdiyi qol saatını bir günlüyə ondan alırlar. Amma çox saxlamırlar, sabahısı gün hədiyyəni ona qaytarırlar. Müğənni saatın arxasına baxanda görür ki, orada "Cahan Talışinskayaya Əmənulla xandan" sözləri yazılıb. Cahan xanım buna o qədər də əhəmiyyət verməyərək həmişəki kimi müğənnilik fəaliyyətini davam etdirir. Yeni mahnılar, yeni bəstələr, yeni uğurlar bir-birini əvəzləyir.

1937-ci il başqa yaradıcı adamlar kimi Cahan xanımın da həyatını və yaradıcılığını alt-üst edir. Müğənninin bacısı Sitarə xanım əri ilə birgə saxta ittihamlarla həbs olunur. Cahan Talışinskaya heç nədən və heç kimdən çəkinib qorxmadan bacısının qızı Bəhicəni evində saxlayır. Qızın yiyəsiz qalmasına imkan vermir. O biri bacısı Bilqeyis xanımın da əri həbs olunanda imkanı daxilində ona da kömək göstərir. Bu addımlara görə həbs və sürgün olunmaq təhlükəsi onun başının üstündə dolaşsa da, bacısının çətinliklər burulğanına düşməyinin qarşısını almağa çalışır.

Bir müddətdən sonra NKVD-dən ona gizli əməkdaşlıq təklif olunur. Bu, Cahan xanımın həm həyatının, həm də yaradıcılıq işlərinin ritmini pozur. Əməkdaşlıqdan qəti şəkildə imtina etdikdən sonra müğənninin fəaliyyətinə müəyyən məhdudiyyətlər qoyulur. Süni şəkildə yaradıcılıq planlarının qarşısında əngəllər yaradılır, sədlər çəkilir. 1938-ci ildə ilk dəfə Moskvada keçirilən Azərbaycan incəsənət ongünlüyündə onun iştirak etməsinə icazə verilmir. Heç bir səbəb göstərilmədən Cahan Talışinskayanın adı bu tədbirdə iştirak edənlərin siyahısından çıxarılır. Bu cür xoşagəlməz hadisə, haqsızlıq müğənniyə çox pis təsir edir, onun ovqatını korlayır.

Nəhayət, sürgün, həbs dalğası günlərin birində Cahan xanıma da gəlib çatır. Qaranlıq gecələrin birində onun da qapısı qəflətən döyülür. 1940-cı ildə təşkil olunmuş saxta donosla C.Talışinskaya 14 yaşlı oğlu ilə bərabər Qazaxıstanın Petropavlovsk rayonuna sürgün edilir. Hansı ki, həmin il Cahan Əməkdar artist fəxri adına layiq görülmüşdü. Amma buna baxmayaraq, başqaları kimi onu da sürgünə, gedər-gəlməzə göndərirlər. Bununla da müğənninin ömrünün ağrı-acılı günləri başlayır. Sürgündə olmazın zülmünü çəkir. Aclıqdan xilas olmaq üçün Cahan xanım Əfqanstan şahının həyat yoldaşının ona hədiyyə etdiyi qızıl qol saatını satmaq məcburiyyətində qalır.

1942-ci ilin avqust ayına qədər "xalq düşməni" adı altında oğlu Nazimlə birlikdə güclü nəzarət altında saxlanılır. Böyük çətinliklərdən sonra Cahan Özbəkistana köçməyə icazə almağa nail olur. Amma yolda bütün əşyalarının oğurlaması müğənnini çox sarsıdır. Düşdüyü ağır vəziyyətdən çıxmaq üçün oğlu Nazimi Bakıya qardaşı professor-travmatoloq Əbülfət Talışinskinin yanına göndərir.

Tale yavaş-yavaş üzünə gülməyə başlayır. Cahan xanım Daşkənddə unudulmaqda olan şöhrətini geri qaytarmağa başlayır. Şəhərdəki filarmoniyada solist kimi işləyir. Amma oğlunun və qohumlarının həsrətini çəkməsi ona böyük əzab verir. Yaxınlarını görmək üçün zorla ayrılmağa məcbur edildiyi vətənə qayıtmağa can atır. Xeyli gərgin çalışmalardan sonra Cahan xanım doğma vətənə olmasa da, onun bir az yaxınlığına gəlməyə müvəffəq olur. Bu da təsadüfi bir hadisə nəticəsində baş verir. 1943-cü ildə Daşkəndə SSRİ Xalq Komissarlığı nəzdində yerləşən musiqi idarəsinə V.Surin adlı yeni rəhbər təyin edilir. Surin ümumittifaq estrada artistlərinin müsabiqəsində münsiflər heyətinin üzvü imiş. Həmin müsabiqədə iştirak edən Cahan Talışinskaya laureat adına layiq görülür. O, Cahan xanımla tanış olub söhbət etdikdən sonra onu işləmək üçün Tbilisi şəhərindəki incəsənət işləri üzrə idarəyə göndərir. Arzularına çatmağa, doğmaları ilə görüşməyə yaxın olan Cahan xanım Tbilisidəki Azərbaycan teatrının səhnəsinə qayıdır. Vətənə bir addım yaxın olduğuna görə yavaş-yavaş üzü gülür.

Amma təəssüflər ki, Cahan xanımın bu sevinci də uzun çəkmir. Bakıdakı NKVD təşkilatı Tiflisə məktub göndərərək Cahan xanımın yenidən Orta Asiyaya sürgün edilməsi məsələsini qaldırır. Amma cəmiyyət xeyirxah adamlardan xali deyilmiş. Bir zamanlar Bakıda yaşamış Zaqafqaziya hərbi şurasının üzvü, SSRİ Ali Sovetinin deputatı Xavər Vəliyev Cahan xanımı sürgün olunmaqdan xilas edir. Böyük çətinliklə də olsa, bu təhlükəli işin qarşısını alır. Cahan xanım Tiflisdə qalır. Uzun xahiş və minnətdən sonra nəhayət ki, vətənə qayıdır. Həmin dövrdə musiqi teatrının direktoru və bədii rəhbəri Şəmsi Bədəlbəyli onu kollektivə dəvət edir. Cahan xanım böyük şövqlə səhnədə bir-birindən maraqlı, yaddaqalan rollar oynamağa başlayır.

Faşist Almaniyasına qarşı müharibə qələbə ilə başa çatandan sonra, 1949-cu ildə repressiya və sürgünlərin yeni dalğası alovlanır. Cahan Talışinskaya yenidən oğlu ilə bərabər Daşkəndə sürgün edilir. Tanınmış müğənni vətənindən, doğmalarından göz yaşı içində ayrılır. Stalinin ölümündən və Bağırovun həbsindən sonra sürgün olunmuş digər günahsız insanlar kimi Cahan Talışinskayanın və oğlunun azad olunması barədə də qərar qəbul edilir.

Amma həbslərdən, sürgünlərdən bezən Cahan xanım vətənə qayıtmır, Özbəkistanda qalır. Bu hadisələr onu həyatdan və insanlardan küsdürür. Daşkənddə qalsa da, heç yerdə işləmir. Oğlu Nazim Daşkənddə evlənir, nəvələri dünyaya gəlir.

1966-cı ildə Daşkənddə sarsıdıcı zəlzələ baş verir. Onların neçə ildən bəri yaşadıqları ev sıradan çıxır. Özləri də təsadüf nəticəsində sağ qalırlar. Vəziyyətin ağır, dözülməz olduğunu görən C.Talışinskaya həmişəlik olaraq Vətənə qayıdır. Cahan xanım doğma vətənə dönəndən bir il sonra 1967-ci ildə piano arxasında oturub mahnı ifa etdiyi zaman qəflətən iflic olur. Elə həmin vaxt 58 yaşında dünyasını dəyişir.

Beləliklə, əzab-əziyyətlər, sürgünlər içində keçən bir istedadlı ömür başa çatır. 1937-ci ilin repressiya dalğası tanınmış müğənninin həyatını məhv edir. Onun bir zamanlar ifa etdiyi mahnılar bu gün də efirlərdə səsləndirilir. Adı heç vaxt dillərdən düşməyəcək mahnıları Cahan xanımı həmişə yaşadacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Təqsirsizlər

# "Günah"ı bir neçə baş mal-qaraya sahib olması idi

**5-6 ay idi ki, Soltan bəyin qapısını döyməyən, harada olduğunu soruşmayan az adam tapılardı. Kənd soveti, kolxoz şurasının üzvləri, hətta rayon mərkəzindən gələn məsul işçilər də hər qarşılarına çıxandan Soltan kişinin yerini xəbər alırdılar. Kolxoz quruculuğunun "fəal" komsomolçu gənclərindən Soltan bəyin hərdən gecələr evinə gizli gəlib-getdiklərini araşdıranlar da olmuşdu.**

Şamaxının Qaraqışlaq sovetliyinin Eloba kəndinin keçmiş bəyi Soltan Mehdi oğlu Əkbərov 1933-cü ildə 3 illik sürgündən qayıdandan sonra sanki həyatdan küsmüşdü, bəzi həmkəndlilərindən incimişdi. Əmisi Ağababanı və uşaqlarını erməni bolşeviklər 1918-ci ildə gözləri qarşısında vəhşicəsinə qətlə yetirmiş, evlərini talan etmişdilər. O zaman Soltan təsadüf nəticəsində sağ qalmışdı. İndi isə erməni quldurlarından fərqli olaraq, yeni qurulan şura hökuməti o biri əmilərinin və atasının var-dövlətini əlindən almış, özlərini də qolçomaq elan etmişdi.

Kənddə sovetləşmə, kolxoz quruculuğu başlanandan Soltan kişiyə "sən bizim düşmənimizsən" deyib, ona qara yaxanlar da tapılmışdı. Kəndin hörmətli adamlarından olan Soltan təsərrüfatında daimi işləyən iki fəhləni, eləcə də mövsümi işlərdə çalışan iki kəndlini "istismar" etdiyinə görə 1929-cu ildən 1933-cü il dekabrın 19-dək adı "kulak"ların və səsdən məhrum edilənlərin siyahısına salınmışdı. El-oba məclislərində yuxarı başda əyləşən, məsləhət-məşvərətdə sözü hesaba alınan Soltan kişini yığıncaqlara, tədbirlərə yaxın buraxmırdılar. "Sən mülkədar olmusan, sən qolçomaqsan", - deyə 1929-cu ildə bolşeviklər Soltan bəyin 8 hektar əkin sahəsini əlindən alıb 1 hektarından istifadə etməyə - "orada da nə əkib-becərsə filan qədərini kolxoza təhvil vermək" şərtilə izacə vermişdilər. Üstəlik, mal pəyəsini, şum malasını, suvuranını, dəvəsini, atını, 2 camışını, 2 inəyini, 4 öküzünü, 60 qoyununu, 10 keçisini, yaşadığı evi, bir sözlə, nəyi varsa, əlindən alıb vermişdilər yeni qurulan kolxoza. Soltan bəyin qapısında bir araba, bir ulaq, 5-6 qoyun-keçi qalmışdı. Bunun üçün də Allahına şükür edən Soltan Əkbərov əkin-biçinlə, qoyun-quzu saxlamaqla külfətini dolandırırdı. Bunu da gözü götürməyən bolşeviklər 1931-ci ildə başladılar təzədən onun qapısını döyməyə ki, şura hökuməti qurulmamışdan əvvəl varlı olmusan, tutulmalısan. Onlar dəfələrlə yaşadığı evə soxularaq - gəvə, kilim, yorğan-döşək, stol-stul, samovar, qab-qacaq... "evdə nə varsa, kolxoza təhvil verməlisən" adı ilə silib-süpürmüşdülər.

1931-ci ildə Soltan Əkbərovu həbs etdilər. İstintaq-sorğu materiallarında "NKVD" müstəntiqinin suallarına cavabında Soltan bəyin əkin sahəsində işləyən kəndlilər etiraf edirlər ki, "Bizi məcbur etməyiblər, işləyib haqqımızı almışıq". Yeni hökumətin "NKVD" işçiləri isə, - "Yox, Soltan bəy, sən günahkarsan, cinayətkarsan - onları istismar etmisən...", - deyirdilər.

Beləliklə, Xalq Daxili İşlər Komissarlığı Kürdəmir rayon şöbəsi tərəfindən toplanan istintaq materiallarına əsasən, bütün varidatı əlindən alındığına baxmayaraq, Soltan Mehdi oğlu Əkbərov əvvəllər mülkədar olduğuna, kolxoza və artelə üzv yazılmadığına, kolxoz quruculuğuna qarşı çıxdığına görə 1931-ci ildən 1933-cü ilədək azadlıqdan məhrum edilərək sürgünə göndərildi. Ailəsi, qohumları yerini-yurdunu da bilmədilər.

Soltan Əkbərov sürgündə olanda həyat yoldaşı Tamam Baxış qızı böyük minnətlə birtəhər kolxoza üzv yazılmışdı. Axı, o dövrlər "xalq düşməni"nin ailəsini kolxoza, uşaqlarını məktəbə yaxın buraxmırdılar. Çoxuşaqlı ana bu qınağı bir az yumşaltmaq üçün azyaşlı 6 uşağını damın altında qoyub gecə-gündüz kolxoz işində çalışır, fərqlənmək istəyirdi. 13 yaşlı Züleyxaya, 10 yaşlı Məmmədə, 9 yaşlı Qarakişiyə, 6 yaşlı Gövsərə və 3 yaşlı Gülxanıma evin böyük qızı 14 yaşlı Zeyvə baxırdı. Evin bütün qayğıları onun öhdəsinə düşmüşdü. Qonum-qonşular Soltan bəyin ailəsi ilə münasibət saxlamağa qorxurdular. İstəyənlər də təsadüfdən-təsadüfə, axşamlar gəlib-gedirdilər. Tamam kolxozun işindən baş açan kimi balalarını başına yığıb həyətindəki dirriklə məşğul olur, toyuq-cücə, qoyun-keçi saxlayır, kimsənin minnətini götürməmək üçün min bir əzab-əziyyətə qatlaşaraq övladlarını böyüdürdü.

Haqsızlığa təkcə Soltan bəy yox, Eloba kəndində çoxları, o cümlədən yaxın qohumu Hacıbaba və Polad bəy də tuş gəlmişdi. Soltan Əkbərov sürgünə göndərilməmişdən bir neçə həftə öncə eşitmişdi ki, kənddə babat dolanışığı olan, qapısında bir atı, beş-on qoyun-keçisi, bir inəyi olan çox adamın mal-qarasını əlindən alıb kolxoza veriblər. Bəzilərini səsvermə hüququndan məhrum etmiş, bir neçəsini də "kulak" adıyla qazamata salmışdılar.

El qınağı ağır olar, deyiblər. Hamı bilirdi ki, Soltan bəy günahsızdı, Soltan kişinin ailəsi o qınağa layiq deyil. Ancaq nadanlar, nanəciblər, yediyi çörəyə kəm baxanlar, qisas arzusunda olanlar, ən nəhayət, bolşevik kommunistlər və komsomolçular bunun fərqinə varmırdılar. Elə buna görə də Soltan Əkbərov 1933-cü ildə sürgündən qayıdandan sonra kəndə, doğma ev-eşiyinə uyuşa bilmirdi. Gələndən kolxoza üzv də yazılmışdı, amma həyatla, özüylə bacara bilmirdi. Odur ki, hamıdan xəbərsiz qonşu kənddə özünə balaca bir həyətyanı sahə almışdı, yurd-yuva düzəltmişdi. Elə kəndə, evinə gizlin gəlib-getməyinin bir səbəbi də o idi ki, yaxın vaxtlarda ailəsini də götürüb sakitcə kənddən birdəfəlik çıxıb getsin.



Soltan Əkbərov haqsızlıqla barışa bilmirdi. Zəmanədən, üzüdönüklərdən inciyəndən elə-obaya qarışmırdı. Gündüzünü-gecəsini meşədə ovçuluq etməklə keçirirdi. Soltan bəy meşədə vəhşi heyvanlarla bir yerdə yaşamağı camaatın var-dövlətindən, kolxoz yaradan kommunistlərlə, komsomolçularla, satqın və simasızlarla bir yerdə yaşamaqdan üstün tuturdu. Qız nəvəsi Səfalı Osmanov deyir ki, mən uşaq olanda böyüklərdən eşitmişdim ki, o vaxt ərki çatan yaxınlar babama təkidlə "A kişi, daşı ətəyindən tök, gəl, evində-eşiyində, ailənin içində yaşa" deyəndə o, "İtlə, pişiklə bir yerdə yaşamağa razıyam, amma kommunistlə, komsomolçuyla yox, nadanla, namərdlə bir kənddə üz-üzə gəlməkdənsə, meşədə heyvanlarla yaşamaq mənə daha rahatdır" deyərmiş.

1937-ci il. Payızın orta ayı idi. Sanki ağaclar da Soltan bəydən üz döndərmişdi. Daş palıddan başqa meşədə barmaqla sayılası qədər yarpağı tökülməmiş ağac qalmışdı, meşə dizəcən saralmış otun və xəzəlin içində idi. Haradansa atlı gedəndə, mal-heyvan keçəndə aydınca görünürdü. Komsomolçular Soltan Əkbərovun gecələdiyi yeri elə xəbər vermişdilər ki, hökumət adamları nəhəng çəkil ağacının altında qarğıdan, qamışdan çatılmış, ağac şaxı ilə örtülmüş balaca koma "evi" tapmaqda heç bir çətinlik çəkmədilər.

Soltan bəy atın fınxırtısına yuxudan hövlnak ayılıb çölə çıxanda gördü ki, əlisilahlı milis nəfərləri onu dörd tərəfdən mühasirəyə alıblar. Yaxınlıqdakı alça ağacına bağladığı atının yüyəni isə həmkəndlisi, təzə kolxoz sədrinin əlində idi. Hökumət adamları Soltan bəyi dan sökülәndə Gəgəli kəndinin yaxınlığındakı meşəlikdən çıxarıb kənddəki kolxoz idarəsinin qabağına gətirdilər. Orada da qolunu qandallayıb üzü Kürdəmirə, rayon mərkəzinə tərəf aparanda kənd camaatı bir-birinə dəydi. Gəgəli kəndi məsafəcə Eloba kəndinə yaxın olduğundan Soltan bəyi burada da yaxşı tanıyırdılar. Bəd xəbər bir an içində Elobaya da çatdı. Ailəsi, qardaşları, qohum-əqrəba, bir sözlə, kənddə böyükdən kiçiyə hamı bildi ki, "NKVD" işçiləri Soltan bəyi tutub.

Soltan Mehdi oğlu Əkbərov barəsində 1937-ci il noyabrın 9-da başlanan cinayət işinə 11 gündən sonra - noyabrın 20-də yekun vuruldu. Komsomolçuların şahidlik ərizələrinə istinadən məhkəmə prosesində hətta o da məlum oldu ki, Soltan bəy guya əmiləri və digər yaxın qohumları ilə gizli danışığa girib kolxozun klubunu, ot tayasını yandırmağa cəhd göstərib. İfadəyə fikir verək: yandırmayıb ha, yandırmağa cəhd göstərib. Bunu komsomolçular biliblər. Məhkəmədə Soltan bəyin işinə komsomolçu və bolşeviklərin yazdıqları yalan məlumatlar, cansız kağızlar "şahidlik" ediblər. "Ot tayası niyə yanmayıb, klubda niyə yanğın olmayıb, bu təxribatın qarşısı necə alınıb" - soruşan olmadı. Kommunistlərin və komsomolçuların arayışlarından o da "sübuta yetirildi" ki, Soltan bəy kolxoza nəzərdə tutulan miqdarda vergi ödəməkdən imtina edib, kənd camaatı arasında antisovet təbliğatı aparıb. Nəticədə 5 kənd sakini kolxoz üzvlüyündən çıxıb, başqa-başqa kəndlərdə mövsümi işlərlə məşğul olub.

Əslində, bu adamlar kənddə hamının yaxşı tanıdığı bənna Əli, suvaqçı Məmməd, dülgər Əhməd, bıçaq-qayçı itiləyən dəli Qəşəm, kənkan Əkbər və bu kimi sənət sahibi olan adamlar idi ki, kəndbəkənd gəzib ona-buna müəyyən işlər görür, kiminə hasar çəkir, kiminə ev tikir, kiminə pəyə qurur, kiminə qapı-pəncərə düzəldirdilər.

Beləliklə, komsomolçuların və "fəal" kolxoz üzvlərinin şahidliyi ilə keçən 10 günlük məhkəmə prosesində Soltan Əkbərov Xalq Daxili İşlər Komissarlığının xüsusi üçlüyünün 22 noyabr 1937-ci il tarixli qərarı ilə əmlakı müsadirə olunmaqla 10 il müddətinə uzaq Sibirin şimal sərhədlərinə sürgün edildi.

O gündən "xalq düşməni" kimi tanınan Soltan Əkbərovun ailəsi, yaxınları uzun illər bilməyiblər ki, 50 yaşlı Soltan kişi haradadır, ölübmü, qalıbmı?! 10 il onun ata gözləyən övladları, həyat yoldaşı 1947-ci ildən sonra aidiyyəti ünvanlara müraciətlər yazıb cavablar gözləyiblər. Övladlarının 1958-ci ildə respublika Dövlət Təhlükəsizliyi Komitəsinə müraciətindən sonra məlum olub ki, Soltan Əkbərov Azərbaycan Respublikası XDİK-in xüsusi üçlüyünün, yuxarıda qeyd etdiyimiz 22 noyabr tarixli qərarına əsasən, 29 noyabr 1937-ci ildə cəza müddətini başa vurduqdan sonra Azərbaycana qayıtmamaq şərtilə uzaq Sibirə sürgün olunubmuş. Eyni tarixli qərarla onun yaxın qohumları - Gəgəli kəndinin sakinləri Hacıbaba və Polad Cəbiyev qardaşları da "qolçomaq" adı ilə əmlakları müsadirə olunmaqla həmin gecə Bakıda saat 24.10 dəqiqədə güllələnibmişlər.

1920-ci ildə rus imperiyasının XI qırmızı ordusu tərəfindən işğal olunan Azərbaycanda bu və bu kimi ailə faciələrinin yaranmasında, yaşanmasında yeni hökumətin özü maraqlı idi. Kimliyindən və nəçiliyindən asılı olmayaraq istədiyi tərəflər arasında qarşıdurma yaradır, hədə-qorxu, şantaj və terror yolu ilə əvvəl adamların var-dövlətini, sonra da güllələnməyə məhkum etməklə və ya uzaq Sibirin qarlı-şaxtalı meşələrində, Qazaxıstanın insan yaşayışı mümkün olmayan gedər-gəlməzlərində yaradılmış xüsusi ölüm düşərgələrinə sürgünə göndərilməklə canını alırdı. Bununla da sovet hökuməti camaatın gözünün odunu alır, "Məni bəyənməsən, səni bundan da betər edərəm!" hədəsi ilə yerdə qalanlara ismarıc göndərirdi.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***



# Mədəniyyət



**Ustad sənətkarlarımız**

# Qaranlığa işıq salan satira - Sabir dünyası

**XX əsr Azərbaycan ədəbiyyatının və ictimai fikrinin formalaşmasında böyük satirik şair Mirzə Ələkbər Sabirin yaradıcılığı müstəsna əhəmiyyət kəsb edir. "Molla Nəsrəddin" ədəbi məktəbinin ən qüdrətli nümayəndələrindən olan Sabir öz yaradıcılığı ilə milli poeziyamızda yeni bir mərhələnin - tənqidi realizm dövrünün əsasını qoymuşdur. Onun qələmindən çıxan hər bir misra zamanın ictimai-siyasi eybəcərliklərinə, cəhalətə və xurafata qarşı açılmış kəskin bir üsyan xarakteri daşıyırdı.**

Şamaxının qədim torpağından boylanan bu dahi söz ustadı qələmini millətin dərdlərinə ortaq etdi. Şeirləri ilə insanları qəflət yuxusundan ayıldan bənzərsiz bir mücahid oldu. Sabir yaradıcılığı - bəzəkli Şərq poeziyasının xəyalpərəstlik dumanını darmadağın edən, milləti amansız reallığı ilə üz-üzə qoyan möhtəşəm bir ədəbi nümunə idi. O, bu xalqa nifrət etmirdi, sadəcə, xalqının aynadakı əksinə baxıb qan ağlayan fədakar sənətkar idi. Onun hər misrası - yüzillik qəflət yuxusuna dalmış bir cəmiyyətdə hələ də çaxmaqda olan bir şimşəkdir.

Sabirin dahi bir sənətkar kimi yetişməsində onun doğulduğu Şamaxı mühitinin böyük rolu olmuşdur. Qədim mədəniyyət mərkəzi olan bu şəhər eyni zamanda mühafizəkarlığın və dini xurafatın da güclü olduğu bir məkan idi. Gənc Ələkbərin ilk təhsilini mollaxanada alması, onun cəmiyyətdəki sxolastik təfəkkürü daxilindən tanımasına şərait yaratdı. Lakin onun həyatında əsl dönüş nöqtəsi böyük maarifçi Seyid Əzim Şirvaninin açdığı yeni üsullu məktəb oldu.



Seyid Əzim gənc Ələkbərə klassik Şərq poeziyasının sirlərini öyrətməklə bərabər, ona dünyəvi elmlərin vacibliyini aşıladı. Sabir hələ gənc yaşlarında fars dilindən nizamlı tərcümələr edir, poeziyanın dilini və texnikasını dərindən mənimsəyirdi. Atasının onu ticarətə cəlb etmək istəyinə baxmayaraq, Sabirin daxilindəki poeziya və elm sevgisi bütün maddi çətinliklərə qalib gəldi.

### Cəhalətə açılan atəş

Sabir adı çəkiləndə ağıla ilk gələn kəskin, sarsıdıcı və eyni zamanda düşündürücü satirası olur. Məşhur "Molla Nəsrəddin" jurnalının aparıcı siması olan şair xalqın qanını soran istismarçıları, dini xurafatı və savadsızlığı amansızcasına ifşa edirdi. Onun "Hop-Hop" imzası ilə yazdığı hər bir sətri cəmiyyətdəki cahilliyə qarşı açılan bir atəş idi. "Oxutmuram, əl çəkin" fəryadı, sadəcə, bəsit bir inad deyildi, dövrün acınacaqlı təhsil mənzərəsinin ən ağrılı tənqidi idi. O, cəmiyyətin ən qapalı, qaranlıq köklərinə - xurafata, savadsızlığa, qadın əsarətinə və ziyalı biganəliyinə ironiya ilə hücum edirdi. "Millət necə tarac olur-olsun, nə işim var?!" misrasını yazan qələm, əslində, içəridə baş verən böyük fəlakətin barometrinə çevrilmişdi. Onun gülüşü çarəsizliyin doğurduğu bir üsyan idi. O, klassik divan ədəbiyyatının estetik qəliblərini sındıraraq, fəhlənin, kəndlinin, dövrün acı gerçəkliyini ədəbiyyata gətirdi, onu xalqın içinə endirdi.

Şair müasir səviyyədə təhsil verən məktəblərin maarifçilik fəaliyyəti göstərməsinin vacibliyini qeyd edirdi. Müasir təhsil verən qurumlara qarşı çıxanları, xüsusilə mollaları və uşaqlarını yeni üsullu məktəblərə göndərməyən valideynləri tənqid etməyi özünə borc bilirdi. Bu məktəbləri dinə qarşı çıxmaqda ittiham edənlərin mövqeyini də müxtəlif şeirlərində tənqid edirdi. "Tərpənmə, amandır, bala, qəflətdən ayılma" misrası ilə başlayan şeirində isə şair nadanlıq anlayışı üzərində dayanır, uşaqların təhsilinə önəm verməyən, başda atalar olmaqla valideynləri sərt bir üslubla tənqid atəşinə tutur. Uşaq təhsilinə ailələrin baxış bucağını bir çox şeirində işıqlandıran şair məktəbi "kafirlik" kimi görən düşüncə tərzini yumorlu bir yanaşma ilə ələ alır.

Mirzə Ələkbər Sabir bir çox əsərində fəhlə və kəndlilərin ağalar tərəfindən insan kimi qəbul olunmadığını bütün səmimiyyəti ilə qələmə alır. Bu əsərlərdən birində şair mal-mülk sahiblərinin kasıblara yaşamaq haqqını belə artıq gördüyünü bildirir. Torpaq sahiblərinin və varlıların insanlara göstərdiyi təzyiqi və yanaşmanı bütün rəng çalarları ilə sözə çevirən şair yaşam şəraitinin yalnız kapital sahibləri üçün "ideal" olduğunu vurğulayır. Əksər şeirlərində o, cəmiyyətin ədalətli mübarizəsinə dəstək verir.

"Fəqirə insan kimi danışmaq caiz deyil" misrası ilə Sabir varlıların yoxsullara qarşı qeyri-insani münasibətini ifadə edir. Şeirləri vasitəsilə insanları ictimai problemlər haqqında düşünməyə çağırır. "Ey fəhlə! Sosial sinif içində sən insan kimi yaşamağa layiqsənmi?" sualı ilə şeirinə söhbət ovqatı qatır.

Misralarında fəhlə ilə bağlı problemləri işəgötürənin dili ilə ifadə edən Sabir ironik ifadə ilə oxucunu düşündürür. "Bakı fəhlələrinə" adlı şeirində də hüquq mübarizəsinə toxunan şair ədalət hissini xalq arasında yaymaq istəyir. Maddi imkanların əsas ölçü vahidinə çevrildiyi cəmiyyətlərdə sinfi fərqlər feodal sisteminin əksi kimi varlıların hökmranlığını doğurur. Bu tip cəmiyyətlərdə varlılar iqtidar sahiblərini istiqamətləndirir. Sabir də bu mövzuya toxunaraq cəmiyyətdəki problemləri çəkinmədən satira atəşinə tutur.

### "Molla Nəsrəddin" - sözün səngəri

Şairin irsi "Molla Nəsrəddin" jurnalı və Cəlil Məmmədquluzadə dühası ilə birgə Şərq aləmində böyük bir intibah dalğası yaratdı. Sabir, sadəcə, şeir yazmırdı, o, yeni bədii təfəkkür formalaşdırırdı. Ölüm təhdidləri, təkfirlər, "kafir" ittihamları qarşısında geri çəkilməyən bu xəstə və yorğun adam Şərq qadınının hüquqsuzluğunu da, ziyalı mühitinin cılızlığını da eyni cəsarətlə hədəfə alırdı. Onun yaradıcılığı bir insanın fərdi davası deyildi, bütöv bir xalqın özünü dərketmə, öz kimliyini tapma prosesinin mətni idi.

Sabirin "Molla Nəsrəddin" jurnalında dərc olunan satirik şeirləri əsasən ictimai quruluşun yaratdığı ədalətsizliklərin, sosial bərabərsizliyin, gerilik və mövhumatın tənqidinə həsr olunmuşdur. Bu jurnal Sabirin poeziyasında dönüş nöqtəsi olmuş, onun şeir formasını və üslubunu dəyişərək, realist mövqeyini daha da gücləndirmişdir.



Şairin 1906-1911-ci illər arasında yazdığı satiralar jurnalın məzmun və ideya yükünü daşıyan əsas ədəbi nümunələrdən olmuşdur.

"Molla Nəsrəddin" jurnalı yalnız dini fanatizmi, mövhumat və şəriətə əsaslanan düşüncə tərzini deyil, həmçinin bu anlayışlara tənqidsiz və kor-koranə itaət edən, savadsızlıq və cəhalət içində yaşayan xalq kütləsini də tənqid obyektinə çevirmişdir. Jurnalın bu yanaşması ictimai tənqidin əsas vasitələrindən biri kimi satirik ifadə formalarının inkişafına şərait yaratmışdır. Bu kontekstdə Mirzə Ələkbər Sabirin satirik yaradıcılığı "Molla Nəsrəddin" vasitəsilə geniş auditoriyaya çatmış, onun üslubu tənqidi realizmin Azərbaycan ədəbiyyatında formalaşmasına və inkişafına mühüm təsir göstərmişdir.

Mirzə Ələkbər Sabir "Molla Nəsrəddin" jurnalında öz adı ilə bərabər, müxtəlif gizli imzalarla da çıxış etmişdir. Bu imzalardan ən çox tanınanı "Hop-hop" təxəllüsüdür. Ümumilikdə Sabirin jurnal səhifələrində 36 müxtəlif gizli imzadan istifadə etdiyi məlumdur. Bu müxtəlif imzalar xüsusilə satiraların məzmunu və üslubunun analizi baxımından mühüm əhəmiyyət kəsb edir. Sabirin istifadə etdiyi təxəllüslər təkcə forma və üslub fərqliliyi yaratmaq məqsədi daşımırdı, onlar eyni zamanda şairin tənqidi mövqeyini konkretləşdirir, satiranın hədəfini və məzmununu dərinləşdirirdi.

Sabir Şərq poeziyasındakı mürəkkəb ərəb-fars tərkiblərini, saray ədəbiyyatının süni parıltısını qırdı. O, sadə ünsiyyət vasitəsi kimi danışılan canlı, lakonik və kəsərli Azərbaycan dilini poeziyanın mərkəzinə gətirdi.

### Sabirə böyük ehtiram

Mirzə Ələkbər Sabir cəmi 49 il yaşadı və fiziki olaraq bu dünyanı erkən tərk etdi. Bu il böyük şairin ölümündən 115 il ötür, amma onun qoyub getdiyi bədii irs əsrləri aşaraq indi də aktuallığını qoruyur. Sabir satirasının əsas hədəfi fərdlər yox, cəmiyyəti geriyə çəkən cəhalət, yalançı vətənpərvərlik, xurafat və savadsızlıq idi. Sabir, sadəcə, XX əsrin əvvəllərində yaşamış bir şair deyil, o, Azərbaycan millətinin intibah dövrünün, milli özünüdərk prosesinin ən böyük memarlarından biridir. Onun qələmi bəşəriyyət tarixində nadir təsadüf olunan bir gücə malik idi. O, eyni sətirdə həm ağladır, həm güldürür, həm də dərindən düşündürürdü.

Bu gün müstəqil Azərbaycan dövlətində yaşayan hər bir vətəndaş üçün Sabirin maarifçilik idealları yolgöstərən bələdçi rolunu oynayır. O, bizi özümüzə tanıdan, nöqsanlarımızı göstərərək mükəmməl olmağa səsləyən əbədi bir səsdir. Onun ədəbiyyatımıza gətirdiyi satirik üslub, xalq dili və tənqidi realizm bədii təfəkkürümüzün inkişafında yeni cığır açmışdır. Şairin ölümündən əsrlər keçsə də, Sabir poeziyası öz aktuallığını heç vaxt itirməyəcək.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

**Teatr xadimlərimiz**

# Səhnənin və ekranın unudulmaz sənətkarı

**Azərbaycan teatr və kino tarixində özünəməxsus yeri olan sənətkarlar arasında Xalq artisti Möhsün Sənaninin adı xüsusi ehtiramla çəkilir. O, yarım əsrdən artıq yaradıcılıq fəaliyyəti ilə milli səhnə və ekran sənətimizin inkişafına mühüm töhfələr verib, yaratdığı müxtəlif xarakterli rollarla tamaşaçıların yaddaşında silinməz iz qoyub.**

Möhsün Sənani 1900-cü il iyunun 19-da Tiflisdə "Şeytanbazar" məhəlləsində ruhani ailəsində dünyaya gəlib. Həyatının ilk illərindən ağır sınaqlarla üzləşib, 4-5 yaşlarında valideynlərini itirib. Onu və bacısını nənələri himayəsinə götürüb. Nənəsinin Möhsünün gələcəyi barədə öz arzusu, xəyalı olub, onun atasının yolunu davam etdirməsini, molla, mərsiyəxan olmasını istəyib. 1906-cı ildə nəvəsini mədrəsəyə də bu məqsədlə göndərib. Ancaq Möhsün mədrəsədə iki il oxuyub. 1908-ci ildə mədrəsə təhsili yarımçıq qalıb. Nənəsinin vəfatı ilə Möhsünün də, bacısının da həyatı yeni bir məcraya düşüb. Xalaları molla Zinyətə pənah aparıblar. Molla Zinyət onları öz balalarından ayırmayıb, baxmayaraq ki, xalasının böyük ailəsinin maddi vəziyyəti ürəkaçan olmayıb. Ancaq balaca Möhsün bacısı ilə birlikdə doğmalıq gördükləri bu ailənin maddi sıxıntılarını artırdıqlarını düşünüb. Odur ki, 1909-cu ildən çətin işlərin qulpundan yapışıb. Yaşı az olsa da, çörəkpulu qazanmaq üçün ağır işlərdə çalışıb, "Şeytanbazar"da işləyib.



Onun həyatını dəyişən teatr sənəti olub. Yeniyetməlik çağlarından bu sənətin cazibəsinə düşüb. Tiflisdə fəaliyyət göstərən teatrların və həmin şəhərə qastrola gedən aktyorların tamaşalarına böyük maraq göstərib. Diqqətlə izlədiyi aktyorların oyunlarını, meydanlarda dərvişlərin oxumalarını təqlid etməkdən yorulmayıb. 1911-ci ildə bu minvalla ilk dəfə tamaşaçı qarşısına çıxıb.

Bir il sonra - 1912-ci ildə kiçik həvəskarlar dərnəyinə qoşularaq epizodik rollarda çıxış etməyə başlayan Möhsün həmişəlik səhnənin sehrinə düşüb. İlk rejissoru Tiflis müsəlman artistləri dəstəsinin aktyoru Mirzəxan Quliyev olub. Bəxti gətirib ki, Tiflisdə sənət yolunun başlanğıcında Mirzəxan Quliyev, Mirzəli Abbasov, Mustafa Mərdanov, İbrahim İsfahanlı kimi aktyorlarla qarşılaşıb. Onun istedadını görüb, gələcəyinə inanıb, dəstək veriblər.

Möhsün də həyatın çətinliklərinə, rastlaşdığı maneələrə, problemlərə rəğmən səhnə fəaliyyətini davam etdirib. O illərdə sənət yoluna sədd çəkmək istəyənlərin əksəriyyəti atası Molla Sadığın dostları idi. Bir tərəfdən də maddi sıxıntılar onu rahat yaşamağa qoymurdu. Həmin çətin günlərində gürcü dostunun atasının köməyi ilə tramvay parkında işə düzələn Möhsün aldığı maaşla yalnız özünü və bacısını təmin etməyib, həm də xalasıgilə əl tutub.

1915-ci ildə Tiflis truppasına cəlb olunan aktyorlar arasında Möhsün Sənani də vardı. Həmin il Hüseyn Ərəblinskinin iştirakı ilə "Kaveyi-Ahəngər" tamaşası səhnəyə qoyulub. Dəmirçi Kavənin oğlu rolu da Möhsün Sənaniyə tapşırılıb. Rolu məharətlə oynayıb.

Maddi ehtiyac, dolanışıq qayğısı onu tərk etməsə də, teatr sənətindən uzaqlaşmayıb. Getdikcə bu sənətə daha da bağlanıb. Mirzəli Abbasov, Mirzəxan Quliyev, Əşrəf Yüzbaşıyev, Mirseyfəddin Kirmanşahlı, İbrahim İsfahanlı, Tərlan xanım, Əli Əskərov, Həsən Səbri, Paşa Mahmudov, Panfiliya Tanailidi, Əli Qurbanov (Möhsün Sənaninin xalası Molla Zinyətin oğlu, sonralar Azərbaycanın Xalq artisti olub) və başqa çox məşhur sənətkarların fəaliyyət göstərdikləri Tiflis teatrı truppasının ən gənc aktyoru olan Möhsün öz ifası ilə tamaşaçıların diqqətini cəlb edib, alqışlarını qazanıb. Ona "Arşın mal alan"da Süleyman bəy, Vəli, "Məşədi İbad"da hambal, "Nadir şah"da Rzaqulu, "Otello"da Kasio kimi rollar həvalə edilib. Möhsün də hər rolu layiqincə ifa edib. Səhnə sənətində ilk uğurlarına, ilk tamaşaçı alqışlarına şahid olmuş Tiflis teatr truppasında 1920-ci ilədək fəaliyyət göstərib.

Bu teatrda sənətdə ilk addımlarını atan aktyorların çoxu kimi o da sonralar Bakıya gəlib. Fəaliyyətini bu şəhərdə davam etdirən aktyor Azərbaycan Dövlət Dram Teatrının kollektivinə qoşulub. Həmin teatrda tanınmış aktyorlarla səhnəyə çıxıb. Bu, onu həvəsləndirməklə yanaşı, məsuliyyətini daha da artırıb. "Vaqif" tamaşasında Eldar, "Göz həkimi"ndə Həsənağa rolları ilə aktyorluq bacarığını nümayiş etdirib. Qısa müddətdə tanınıb. Getdikcə repertuarı genişlənib. Onun soyadı Cəfərov olsa da, teatr sənətində Sənani təxəllüsü ilə məşhurlaşıb. Özünəməxsus ifası ilə aktyorlar arasında seçilib.



Komik və tragik rolları eyni peşəkarlıqla ifa edən, yüksək yaradıcılıq imkanlarına malik olan Möhsün Sənaninin aktyorluq qabiliyyəti kinorejissorların da diqqətindən yayınmayıb. İlk dəfə 1923-cü ildə, 23 yaşında ekrana "Qız qalası əfsanəsi" filmində epizodik rolla çıxıb və uğur qazanıb. Çox keçməyib ki, "Bayquş" və "Bismillah" filmlərinə dəvət alıb. O zamanlar hələ Azərbaycan kinosunun səssiz dövrü idi. Möhsün Sənaninin səsli kinoda ilk rolu 1939-cu ildə çəkildiyi "Kəndlilər" filmindəki Eldar olub.

Kino sənətində də zəngin yaradıcılıq yolu keçən Möhsün Sənani 30-a yaxın filmdə rol alıb. O, "Arşın mal alan", "Bir məhəllədən iki nəfər", "Bizim küçə", "Dağlarda döyüş", "Fətəli xan", "İsmət", "Kəndlilər", "Kölgələr sürünür", "Koroğlu", "Qara daşlar", "O olmasın, bu olsun", "Səbuhi", "Səhər", "Sehrli xalat", "Yeni horizont", "Qızmar günəş altında" və başqa filmlərdə fərqli xarakterli rollar oynayıb. Əsasən ikinci dərəcəli və epizodik olsa da, həmin rolların hər biri tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Teatrda da, kinoda da bənzərsiz rolları ilə rəğbət qazanan Möhsün Sənani 1943-cü ildə Əməkdar artist,1949-cu ildə Xalq artisti fəxri adına layiq görülüb.

Həyatın da, sənətin də bütün çətinliklərinə sinə gərən sənətkar səhhətində problemlər yarandığı dövrlərdə belə yaradıcılıq eşqini itirməyib. Ömrünün 50 ilini sənətə həsr edən aktyorun gözləri nurdan düşsə də, könlünün işığı ilə sənət yoluna davam edib. Möhsün Sənani 1981-ci il fevralın 11-də dünyasını dəyişib. Bu gün də onun adı Azərbaycan teatr və kino tarixində ehtiramla xatırlanır. Yaratdığı obrazlar, lent yazılarında qorunan tamaşalar və filmlər sənətkarın xatirəsini yaşadır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Rəşid Behbudovun anım günündə xatirə otağı yeni eksponatlarla zənginləşdirilib

**İyunun 9-da Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında görkəmli sənətkar, Xalq artisti Rəşid Behbudovun anım gününə həsr olunmuş tədbir keçirilib.**



Anım günü çərçivəsində Dövlət Mahnı Teatrında fəaliyyət göstərən Rəşid Behbudovun xatirə otağına yeni eksponatlar təqdim olunub.

Bu münasibətlə keçirilən tədbirdə Milli Məclisin deputatları, mədəniyyət xadimləri, tanınmış ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Təqdim olunan eksponatlar sırasında Azərbaycan Beynəlxalq Bankı tərəfindən sənətkarın 110 illik yubileyinə həsr olunaraq hazırlanmış xüsusi qramofon (patefon) və vinil val, həmçinin ailəsi tərəfindən təqdim edilən şəxsi kolleksiya nümunələri və digər dəyərli xatirə əşyaları yer alıb. Eyni zamanda Milli Məclisin deputatı, Naxçıvan Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva və digər rəssamlar tərəfindən təqdim olunan rəsm əsərləri və hədiyyələr də xatirə otağında nümayiş olunan eksponatlar sırasına daxil edilib.

Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrının direktoru Ülviyyə Bəbirli bildirib ki, bu cür tədbirlər milli musiqimizin təbliği və gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Direktor vurğulayıb ki, burada bir araya gələn hər kəsin bu sahəyə göstərdiyi maraq və dəstək təqdirəlayiqdir. "Bu gün tədbirin keçirildiyi məkan ötən il Mədəniyyət Nazirliyinin dəstəyi ilə açılmış Rəşid Behbudovun xatirə otağıdır. Burada sənətkarın şəxsi əşyaları və ona hədiyyə olunmuş qiymətli eksponatlar nümayiş etdirilir. Tanınmış simalarla yanaşı, gənclərin də bu prosesdə aktiv iştirakı sevindirici haldır", - deyə o qeyd edib.

Rəşid Behbudov Fondunun direktoru Kamil Şahverdiyev çıxış edərək sənətkarın zəngin irsinin qorunması və gələcək nəsillərə çatdırılmasında xatirə otağının rolunu yüksək qiymətləndirib.

Milli Məclisin deputatı, Naxçıvan Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva, Azərbaycan Beynəlxalq Bankının mətbuat katibi Yadigar Cəfərli və digər çıxış edənlər Rəşid Behbudovun təkcə musiqidə deyil, bütövlükdə Azərbaycan mədəniyyətində silinməz iz qoyduğunu və vizual sənətlərdə də onun obrazına mütəmadi müraciət olunduğunu diqqətə çatdırıblar.

Sonda tədbir iştirakçıları xatirə otağına nümayişə verilən yeni eksponatlarla yaxından tanış olublar.

# Astanadakı xatirə lövhəsi Qazaxıstan-Azərbaycan dostluğunu xatırladır

Astanadakı "Xalqlar dostluğu" xatirə lövhəsi Qazaxıstan ilə Azərbaycan arasındakı dostluq əlaqələrini xatırladır.

AZƏRTAC xəbər verir ki, bu memarlıq abidəsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şərəfinə adlandırılan küçənin açılışını qeyd edir. Xatirə lövhəsindəki yazı üç dildə - qazax, Azərbaycan və rus dillərində həkk olunub.




Heydər Əliyev küçəsinin açılış mərasimi 2023-cü il aprelin 10-da Astananın mərkəzində Azərbaycan və Qazaxıstan liderləri İlham Əliyev və Kasım-Jomart Tokayevin iştirakı ilə baş tutub.

Heydər Əliyev küçəsi Qazaxıstan paytaxtının müasir inzibati və biznes mərkəzlərindən biri olan Yesil rayonunda yerləşir. Onun uzunluğu 1400 metrdir. Bu ərazi Astananın şəhər mühitinin bir hissəsi və Azərbaycan-Qazaxıstan münasibətləri ilə əlaqəli görkəmli yerlərdən biridir.

"Xalqlar dostluğu" xatirə lövhəsi Heydər Əliyev küçəsi məkanının bir hissəsinə çevrilib. Onun memarlıq dizaynı ortaq türk köklərini və yaxın mədəni dəyərləri əks etdirir.

Obyekt Qazaxıstan paytaxtının sakinlərinə və qonaqlarına iki qardaş xalq arasında qarşılıqlı hörmət və dostluğu xatırladır.

# Uzunömürlülüyün sirləri

**Dünyanın bəzi ərazilərində yaşayan insanlar uzun ömür sürmələri ilə diqqət çəkirlər. Bu insanların həyat tərzi hər zaman alimlərin, həkimlərin və dietoloqların araşdırma mövzusu olub. Aparılan tədqiqatlar göstərir ki, uzunömürlülük təkcə genetik faktorlarla bağlı deyil. İnsanların necə qidalanması, gündəlik həyat tərzi, sosial münasibətləri, fiziki aktivliyi və psixoloji vəziyyəti də ömrün uzunluğuna ciddi təsir göstərir. Məhz buna görə dünyanın ən uzunömürlü cəmiyyətləri üzərində aparılan araşdırmalar son illərdə daha da genişlənib və alimlər bu insanların ortaq xüsusiyyətlərini müəyyən etməyə çalışıblar.**



Bu araşdırmaların mərkəzində isə "Mavi Zona" adlanan bölgələr dayanır. "Mavi Zona" termini dünyada yüz yaşdan çox yaşayan insanların sayının yüksək olduğu bölgələri ifadə edir. Yaponiyanın Okinava adası, İtaliyanın Sardiniya bölgəsi, Yunanıstanın İkariya adası, Kosta Rikanın Nikoya yarımadası və ABŞ-nin Kaliforniya ştatındakı Loma Linda şəhəri bu bölgələrə daxildir. Həmin ərazilərdə yaşayan insanların həyat tərzi digər cəmiyyətlərlə müqayisədə daha sağlam hesab olunur və onların uzunömürlü olmasının əsas səbəbləri məhz burada axtarılır.

Mütəxəsislər bildirirlər ki, bu bölgələrdə yaşayan insanların həyat tərzi müəyyən ortaq xüsusiyyətlərlə seçilir. Belə ki, genetik faktorlar mühüm rol oynasa da, sağlam və uzun ömür üçün əsas təsir göstərən amillər qidalanma, stresin idarə olunması, sosial münasibətlər və fiziki aktivlikdir. "Mavi Zona"da yaşayan insanlar da gündəlik həyatlarında sadə, lakin sağlam vərdişlərə üstünlük verirlər və bu vərdişlər illər ərzində onların sağlamlığını qoruyur.

Araşdırmalar göstərir ki, uzunömürlülüyün ən vacib səbəblərindən biri qidalanma rejimidir. Okinava adasında yaşayan insanlar əsasən kalorisi az, lakin qida dəyəri yüksək olan məhsullar qəbul edirlər. Onların gündəlik menyusunda tərəvəzlər, dəniz məhsulları, tofu, paxlalılar və yaşıl çay mühüm yer tutur. Bu qidalar antioksidantlarla zəngin olduğu üçün orqanizmdə hüceyrələrin zədələnməsinin qarşısını almağa kömək edir. Alimlər hesab edirlər ki, məhz bu qidalanma sistemi ürək-damar xəstəliklərinin, şəkərli diabetin və digər xroniki problemlərin riskini azaldır.

Okinava sakinlərinin maraqlı xüsusiyyətlərindən biri də "Hara haçi bu" adlanan ənənəyə əməl etmələridir. Bu prinsipə görə insanlar tam doymadan, təxminən 80 faiz toxluq hiss edənə qədər yemək yeyirlər. Həkimlərin fikrincə, həddindən artıq qidalanmadan uzaq durmaq həm həzm sistemini qoruyur, həm də orqanizmdə piylənmənin qarşısını alır. Mütəxəssislər qeyd edirlər ki, müasir cəmiyyətlərdə insanların çoxu normadan artıq qida qəbul edir və bu da bir çox xəstəliklərin yaranmasına səbəb olur.

Daxili xəstəliklər üzrə mütəxəssislər uzunömürlü insanların əsasən emal olunmuş məhsullardan uzaq durduqlarını bildirirlər. Onlar qida rasionlarında təzə tərəvəzlərə, meyvələrə, tam taxıllara, zeytun yağı kimi sağlam yağlara və təbii protein mənbələrinə üstünlük verirlər. Bu cür qidalanma həm orqanizmin immun sistemini gücləndirir, həm də yaşlanma prosesini ləngidir. Həkimlərin fikrincə, son illərdə sürətli həyat tərzi insanları daha çox hazır və emal olunmuş məhsullara yönəldib. Lakin "Mavi Zona"da yaşayan insanlar hələ də təbii və mövsümi məhsullarla qidalanmağa davam edirlər.

Sardiniyada yaşayan insanların həyat tərzi də alimlərin xüsusi diqqətini çəkir. Bu bölgədə yaşayan yaşlı insanların əksəriyyəti gündəlik həyatlarında olduqca aktivdirlər. Onlar uzun yürüşlər edir, kənd təsərrüfatı işləri ilə məşğul olur və fiziki fəaliyyəti həyatlarının adi hissəsi hesab edirlər. Araşdırmalar göstərir ki, fiziki aktivlik təkcə bədən sağlamlığı üçün deyil, həm də zehni sağlamlıq üçün vacibdir. Hərəkətsiz həyat tərzi isə ürək xəstəlikləri, piylənmə və digər problemlərin yaranma riskini artırır.

Mütəxəssislərin fikrincə, uzunömürlü insanların idmana yanaşması da fərqlidir. Onlar ağır məşqlərdən daha çox gündəlik təbii hərəkətə üstünlük verirlər. Bağçılıq, velosiped sürmək, piyada gəzmək və ev işləri onların gündəlik həyatının ayrılmaz hissəsinə çevrilib. Bu fəaliyyətlər bədəni daim hərəkətdə saxlayır və insanın yaşlandıqca da aktiv qalmasına kömək edir.

Uzunömürlülükdə mühüm rol oynayan digər amillərdən biri sosial münasibətlərdir. "Mavi Zona"da yaşayan insanlar ailələri və dostları ilə sıx əlaqələr qururlar. Onlar tez-tez bir araya gəlir, birlikdə vaxt keçirir və bir-birinə dəstək olurlar. Bu da psixoloji sağlamlığa birbaşa təsir göstərir. Tənhalıq və sosial təcrid isə insan sağlamlığı üçün siqaret və piylənmə qədər təhlükəli hesab olunur. İnsanın özünü bir cəmiyyətin üzvü kimi hiss etməsi stresin azalmasına kömək edir. Güclü ailə bağları və dost münasibətləri insanın emosional yükünü azaldır, depressiya riskini aşağı salır və həyat keyfiyyətini artırır. "Mavi Zona"da yaşayan insanların əksəriyyəti yaşlı dövrlərində belə tək yaşamır və ailə üzvləri ilə sıx münasibətlərini qoruyurlar. Bu isə onların həm psixoloji, həm də fiziki sağlamlığına müsbət təsir edir.

Araşdırmalar göstərir ki, uzunömürlü insanların psixoloji vəziyyəti də digər insanlardan fərqlənir. Yunanıstanın İkariya adasında yaşayan insanlar daha sakit və stressiz həyat sürməyə çalışırlar. Onlar iş və şəxsi həyat arasında balans yaratmağa önəm verir, həyat hadisələrinə daha müsbət yanaşırlar. Stres insan orqanizminin ən böyük düşmənlərindən biridir. Uzunmüddətli stres ürək-damar xəstəlikləri, yüksək təzyiq və immun sisteminin zəifləməsi kimi problemlərə yol aça bilər. "Mavi Zona"da yaşayan insanlar stresi azaltmaq üçün müxtəlif üsullardan istifadə edirlər. Meditasiya, dua, təklikdə vaxt keçirmək və təbiətlə təmas onların gündəlik həyatının bir hissəsidir. Bu üsullar insanın zehni rahatlığını təmin edir və stres hormonlarının səviyyəsini aşağı salır. Mütəxəssislərin fikrincə, müasir həyatın sürətli tempi insanları daha çox psixoloji gərginliyə məruz qoyur və bu səbəbdən insanların zehni sağlamlığa daha çox diqqət ayırması vacibdir.

Uzunömürlü insanların yuxu rejimi də diqqətçəkən məqamlardandır. Alimlər bildirirlər ki, keyfiyyətli yuxu orqanizmin bərpası üçün vacibdir. "Mavi Zona"da yaşayan insanlar adətən gec saatlara qədər oyaq qalmır və kifayət qədər yatmağa çalışırlar. Bu isə həm fiziki enerjinin bərpasına, həm də beynin sağlam fəaliyyətinə kömək edir. Yuxu pozuntuları isə yaşlanma prosesini sürətləndirən əsas amillərdən biri hesab olunur.

Uzunömürlülüyün əsas sirlərindən biri də insanların həyat məqsədinin olmasıdır. Okinava sakinləri bunu "ikigai" adlandırırlar. Bu anlayış insanın hər səhər hansı məqsədlə oyandığını ifadə edir. İnsan özünü faydalı və lazım olan biri kimi hiss etdikdə həm psixoloji, həm də fiziki baxımdan daha sağlam olur. Alimlər qeyd edirlər ki, həyatda məqsəd hissi olan insanlar daha az stres yaşayır və daha uzun ömür sürürlər. Bu bölgədə yaşayan uzunömürlü insanların diqqətçəkən xüsusiyyətlərindən biri də onların təbiətlə yaxın münasibətdə olmalarıdır. Onlar daha çox açıq havada vaxt keçirir, təmiz hava qəbul edir və təbiətin ritminə uyğun yaşayırlar. Bu həyat tərzi həm fiziki sağlamlığa, həm də zehni rahatlığa müsbət təsir göstərir. Şəhər həyatının yaratdığı səs-küy, hava çirkliliyi və gərgin iş rejimi isə insanların sağlamlığına mənfi təsir edən əsas amillər sırasındadır.

Mütəxəssislər hesab edirlər ki, müasir dövrdə insanlar texnologiyanın və sürətli həyat tempinin təsiri ilə sağlam vərdişlərdən uzaqlaşırlar. Uzun iş saatları, hərəkətsizlik, qeyri-sağlam qidalanma və sosial münasibətlərin zəifləməsi bir çox xəstəliklərin yayılmasına səbəb olur. Buna görə də alimlər "Mavi Zona"dakı həyat tərzinin digər cəmiyyətlər üçün də nümunə ola biləcəyini düşünürlər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



Azercell

## abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən təqdim olunan xidmətlərin optimallaşdırılması məqsədilə 09.07.2026-cı il tarixdən etibarən aşağıda qeyd olunan xidmətlərin istifadə şərtlərində dəyişikliklər tətbiq ediləcək.

Fakturalı xətt sisteminə aid nömrələrin abunəçiləri üçün nəzərdə tutulmuş "Yeni Hər Yerə", "SuperSən 3GB", "SuperSən 6GB", "SuperSən 10GB", "SuperSən 20GB", "SuperSən 30GB", "Premium 50GB", "Premium 75GB", "Premium 100GB", "DövlətCell" tariflərinə yeni qoşulmalar dayandırılacaq. Qeyd olunan tarixə kimi müvafiq tarif paketlərinə qoşulan abunəçilər mövcud abunəlikləri ləğv edilənə qədər paketlərindən istifadəyə davam edə biləcəklər.

01 iyul 2026-cı il tarixdən etibarən "Azercell Telekom" MMC-nin fakturasız (SimSim) və fakturalı xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulan "Qaynar Xəbər", "iLike" və "Ordan-Burdan" xidmətləri (müvafiq olaraq "9622", "9623" və "9624" qısa nömrələri üzərindən təqdim edilir) ləğv ediləcək.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim olunan xidmətlər, tariflər və kampaniyalar barədə ətraflı məlumatı rəsmi internet səhifəmizdən **(www.azercell.com)**, həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofislər, həftənin 7 günü, 24 saat fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə edə bilərlər.


# DÇ-2026-da hansı komandalar gözləntiləri doğrultmaya bilər?

Futbol üzrə dünya çempionatında ən böyük məyusluq yarada biləcək komandalar açıqlanıb.

AZƏRTAC "Goal" nəşrinə istinadən xəbər verir ki, mütəxəssislərin bir qismi Braziliya millisinin gözləntiləri doğrultmayacağını düşünür. Bildirilib ki, Karlo Ançelottinin rəhbərliyi altında komanda hələ tam formalaşmayıb və heyətdə bəzi mövqelərdə seçim imkanları məhduddur. Bu səbəbdən "sambaçılar"ın erkən mərhələdə mübarizəni dayandıracağı istisna edilmir.



Almaniya yığması da uğursuzluq yaşaya biləcək potensial namizədlər sırasında göstərilib. Qeyd olunub ki, komanda son böyük turnirlərdə uğurlu çıxış etməyib və hazırkı heyətin müxtəlif mövqelərdə zəif cəhətləri var.

İspaniya millisinin isə Lamin Yamaldan həddindən artıq asılı olduğu vurğulanıb. Ekspertlər gənc futbolçunun zədədən yeni qayıtmasının və mövsüm ərzində çox oyun keçirməsinin komandanın çıxışına təsir göstərə biləcəyini qeyd ediblər. Proqnozlarda Niderland yığmasının da adı çəkilib. Ronald Kumanın rəhbərlik etdiyi komandanın bəzi aparıcı futbolçularının istənilən formada olmaması, eləcə də pley-off mərhələsində güclü rəqiblərlə qarşılaşmaq ehtimalı niderlandlıların işini çətinləşdirə bilər.

Bəzi mütəxəssislər Argentina və İngiltərə millilərinin də gözlənilən nəticələri verə bilməyəcəyini iddia ediblər. Onların fikrincə, argentinalılar heyətini kifayət qədər yeniləməyib, ingilislər isə əsas futbolçuların mümkün zədələri fonunda ciddi problemlərlə üzləşə bilərlər.

Qeyd edək ki, mundial iyunun 11-dən iyulun 19-dək ABŞ, Kanada və Meksikada təşkil olunacaq.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**


## ALLAH RƏHMƏT ELƏSİN!

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının prezidenti

**RUSLAN QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3793**
**Sifariş 722**

**Qiyməti 60 qəpik**